**AZƏRBAYCAN RESPUBLİKASI**

**ALİ MƏHKƏMƏSİNİN**

**MÜLKİ KOLLEGİYASI**

# Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasının 2020-ci il üzrə fəaliyyətinə dair

# H E S A B A T

# M Ü N D Ə R İ C A T

**ALİ MƏHKƏMƏNİN MÜLKİ KOLLEGİYASI**................................................. **3**

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasının 2020-ci il ərzində həyata keçirilmiş ümumi fəaliyyətinə dair məlumat............. **3**

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasında 2020-ci il üzrə baxılmış işlərə dair məlumat.................................................. 7

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasında baxılmış mülki işlərin apellyasiya instansiyası məhkəmələri üzrə müqayisəli təhlili......................................................................................... 25

**ƏLAVƏLƏR**......................................................................................... **53**

# ALİ MƏHKƏMƏNİN MÜLKİ KOLLEGİYASI

**Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasının 2020-ci il ərzində həyata keçirilmiş ümumi fəaliyyətinə dair məlumat**

Azərbaycan Respublikası Prezidentinin 6 may 2020-ci il tarixli sərəncamına əsasən Ali Məhkəmənin hakimi Sənan Hacıyev Ali Məhkəmənin Mülki Kollegiyasının sədri təyin edilmişdir. Azərbaycan Respublikası Milli Məclisinin 05 may 2020-ci il tarixli qərarına əsasən 2020-ci ildə Ali Məhkəmənin Mülki Kollegiyasının hakimləri Qürbət Əsgərov, Vəfaddin İbayev və Akif İsgəndərovun vəzifələri dəyişdirilərək, Bakı Apellyasiya Məhkəməsinin, hakim Aslan Kalbalıyev isə Bakı Hərbi Məhkəməsinin hakimi vəzifəsinə təyin edilmişdir. Eyni zamanda, Bakı Apellyasiya Məhkəməsinin hakimləri Vüqar Həsənov, Abiddin Hüseynov, Zaur Əliyev, İsmayıl Xəlilov, Elşad Şamayev və Sumqayıt Apellyasiya Məhkəməsinin Mülki Kollegiyasının sədri Aqil Abbasov Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasının hakimləri təyin edilmişlər. Hazırda Ali Məhkəmənin Mülki Kollegiyasının tərkibində 16 hakim fəaliyyət göstərir.

1. 2020-ci il 1 mart tarixindən qüvvəyə minmiş qanunvericilikdəki dəyişikliklərlə Ali Məhkəmənin Plenumunun məhkəmə təcrübəsinə dair verdiyi izahla bağlı qərarlarının hüquqi əhəmiyyətinin artırıldığı nəzərə alınaraq, Mülki Kollegiya tərəfindən Ali Məhkəmənin Plenumunun mülki, ailə, əmək, mülki-prosessual qanunverciliyin tətbiqi ilə bağlı olan bütün qərarları yenidən öyrənilməklə bəzi qərarların qüvvədən düşmüş hesab olunması, bır sıra qərarların isə qanunvericiliyə edilmiş dəyişikliklərə uyğunlaşdırılması, habelə məhkəmə təcrübəsi əsasında mövcud ehtiyaclar nəzərə alınmaqla təkmilləşdirilməsi Plenuma təklif edilmişdir. 2020-ci il 20 fevral tarixində "Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun mülki və mülki prosessual qanunvericiliyin tətbiqi üzrə bağlı olan bəzi qərarlarının qüvvədən düşmüş hesab edilməsi və bəzi qərarlarına əlavə və dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun qərarı qəbul edilmişdir. (Əlavə №1)

*Həmin Qərarda Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun aşağıdakı qərarları qüvvədən düşmüş hesab edilmişdir:*

I. "Vətəndaşların məhkəmə işləri üzrə ərizə və şikayətlərinə baxılmasının yaxşılaşdırılması tədbirləri haqqında" 1991-ci il 12 noyabr tarixli Qərar;
II. "Respublika məhkəmələri tərəfindən mənzil qanunvericiliyinin tətbiqi təcrübəsi haqqında" 1992-ci il 16 oktyabr tarixli Qərar;
III. "Əmək müqaviləsinin bağlanmasının dəyişdirilməsini və xitamını nizama salan əmək qanunvericiliyinin tətbiqinin məhkəmə təcrübəsi haqqında" 1993-cü il 3 may tarixli Qərar;
IV. "Torpaq qanunvericiliyinin məhkəmələr tərəfindən tətbiqi təcrübəsinin bəzi məsələləri haqqında" 2003-cü il 14 fevral tarixli 2 saylı Qərar;

*Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun aşağıdakı qərarlarına əlavə və dəyişikliklər edilmişdir:*

I. "İcra vərəqəsinin verilməsi və icrası ilə əlaqədar məhkəmə təcrübəsinin bəzi məsələləri barədə" 2003-cü il 14 yanvar tarixli, 01 nömrəli Qərarı;
II. "Hakimə (məhkəmə tərkibinə) etiraz etmə barədə qanunvericiliyin tətbiqi təcrübəsi haqqında" 24 noyabr 2005-ci il tarixli, 3 nömrəli Qərarı;
III, "Məhkəmə qətnaməsi haqqında" 2005-ci il 24 noyabr tarixli, 04 nömrəli Qərarı;
IV. "Ədalət mühakiməsinin həyata keçirilməsi zamanı «İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında» Avropa Konvensiyası müddəalarının və İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedentlərinin tətbiqi haqqında" 30 mart 2006-cı il tarixli, 05 saylı Qərarı;

V. "Mənəvi zərərin ödənilməsi barədə qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsi haqqında " 2008-ci il 03 noyabr tarixli, 07 nömrəli Qərarı;
VI. "Ərizənin baxılmamış saxlanılması barədə qanunvericiliyin məhkəmələr tərəfindən tətbiq edilməsi təcrübəsi haqqında" Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunun 2011-ci il 31 mart tarixli, 03 nömrəli Qərarı;
VII. "Valideynlərin və digər qohumların uşaqla ünsiyyətdə olmaq hüquqları ilə əlaqədar qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsi haqqında" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 2011-ci il 28 oktyabr, 6/2011 nömrəli Qərarı;
VIII. "Nikahın pozulması, boşanmadan sonra yetkinlik yaşına çatmayan uşaqların valideynlərdən hansının yanında qalması və uşaqlar üçün valideynlərdən aliment tutulması tələbinə dair işlərə baxılarkən qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsi haqqında" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 2016-cı il 28 mart tarixli, 8-2/2016 №-li Qərarı.

2. Məhkəmə aidiyyətinin müəyyən edilməsi ilə bağlı hüquqi müəyyənliyin təmin edilməsi məqsədi ilə 2020-ci il yanvarın 1-dən qüvvəyə minmiş Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinə 2019-cu il 9 iyul tarixli 1633-VQD nömrəli Qanunla edilmiş dəyişikliklərin tətbiqi üzrə əsaslandırılmış izahın verilməsi zərurəti yarandığından "İşlərin ümumi və yaxud kommersiya məhkəmələrinə aidiyyətinin müəyyən edilməsi, məhkəmə aidiyyəti ilə bağlı mübahisələrə və məhkəmələr arasında yaranan fikir ayrılıqlarına baxılmasının xüsusiyyətlərinə dair" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun qərar, habelə qərarın icrası üzrə məhkəmə aidiyyətinin müəyyən edilməsi meyarları və onların xüsusiyyətlərini, o cümlədən bu meyarlar üzrə yoxlanılma ardıcıllığını əks etdirən cədvəlin layihələri Kommersiya Kollegiyası ilə birgə hazırlanaraq, Plenumun 18 Sentyabr 2020-ci il tarixli iclasında təsdiq edilmişdir. (Əlavə №2)

3. Məhkəmələrin hüquqi məsələlərin həllinə yanaşmasının sabitliyini və normativ hüquqi aktların tətbiqi ilə bağlı hüquqi mövqeyinin proqnozlaşdırılan olmasını təmin etmək məqsədi ilə Mülki Kollegiya cari il ərzində aşağıdakı 3 mübahisəli məsələ ilə bağlı Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 418-1-ci maddəsində təsbit edilmiş yeni mexanizmə müraciət etmişdir. Hər 3 halda mübahisəli hüquqi məsələlərə hüquq ictimaiyyətinin diqqətini çəkmək məqsədi ilə Ali Məhkəmənin internet səhifəsi və sosial şəbəkələr vasitəsilə verilmiş məlumat nəticəsində maraqlı şəxslər, o cümlədən hüquqşünaslar və ayrı-ayrı təşkilatlar tərəfindən çoxsaylı yazılı formada əsaslandırılmış rəylər (*amicus curiae* rəyi) təqdim edilmiş, nəticədə Ali Məhkəmənin şəffaflığı və ictimaiyyətə açıqlığı təmin olunmuşdur.

*a) Mülki və Kommersiya Kollegiyalarının "İpoteka haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi üzrə ipoteka predmeti olan əmlakın ilkin satış qiymətinin müəyyən edilməsi məsələsinə dair 2020-ci il 20 iyul tarixli 1 nömrəli Qərardad qəbul edilmişdir;(Əlavə №3)*

*b) Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1200-cü maddəsinin tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsi məqsədi ilə verilmiş 2020-ci il 30 iyun tarixli təqdimat eyni məsələnin Konstitusiya Məhkəməsi Plenumunun 08.01.2021-ci il tarixli Qərarı ilə öz həllini tapdığından baxışdan çıxarılmışdır;*

*c) Mülki və Kommersiya Kollegiyalarının "Apellyasiya və kassasiya şikayətlərinin mümkünlüyü və şikayətlərə baxılmasının hədləri ilə bağlı Mülki Prosessual Məcəllənin tətbiqi məsələlərinə dair" 2020-ci il 14 oktyabr tarixli 04/2020 nömrəli Qərardad qəbul edilmişdir.(Əlavə №4)*

4. Cari il ərzində Mülki Kollegiya daxilində qanunverciliyin ayrı-ayrı müddəalarının tətbiqi ilə bağlı əlavə 8 hüquqi məsələ üzrə vahid yanaşma formalaşdırılmış, habelə 1 hüquqi məsələ ilə bağlı məhkəmələrə icmal məktubu ünvanlanmışdır.

5. “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikası Qanununun 79-1-ci maddəsinin dördüncü hissəsinə əsasən Məhkəmə Hüquq Şurası tərəfindən təsdiq edilmiş “Məhkəmələr tərəfindən maddi və prosessual hüquq normalarının tətbiqində sistemli xarakter daşıyan nöqsanların müəyyən edildiyi sahədə məhkəmələrin fəaliyyətinin monitorinqinin aparılması” Qaydalarına uyğun olaraq ilk dəfə “Valideynlərin və digər qohumların uşaqla ünsiyyətdə olmaq hüquqları ilə əlaqədar qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsi haqqında” Ali Məhkəmə Plenumunun 28 noyabr 2011-ci il tarixli (20 fevral 2020-ci ildə edilmiş dəyişikliklərlə) Qərarının, habelə Kommersiya Kollegiyası ilə birgə “İşlərin ümumi və ya kommersiya məhkəmələrinə aidiyyətinin müəyyən edilməsi, məhkəmə aidiyyəti ilə bağlı mübahisələrə və məhkəmələr arasında yaranan fikir ayrılıqlarına baxılmasının xüsusiyyətlərinə dair” Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 2020-ci il 18 sentyabr tarixli Qərarının icrası üzrə məhkəmə fəaliyyətinin monitorinqi planları layihələri, habelə monitorinqə dair anket formaları hazırlanmışdır. Hər iki plan Plenumun 2020-ci il 18 sentyabr tarixli Qərarı ilə təsdiq edilməklə müvafiq olaraq oktyabr və noyabr aylarından 1 illik müddət ərzində məhkəmə fəaliyyətinin bu istiqamətlər üzrə monitorinqinin keçirilməsi qərara alınmışdır. (Əlavə №5)

6. Mülki Kollegiyanın məhkəmə qərarları təhlil edilərək, qanunvericiliyin tələbləri, beynəlxalq təcrübə, habelə qərarların çatımlılığı ilə bağlı ictimai tələbat nəzərə alınmaqla, yeni qərar nümunəsi layihəsi, habelə bu yeni qərarların forma və məzmununa dair tələbləri əks etdirən işçi sənəd kimi daxili istifadə üçün nəzərdə tutulan müvafiq təlimat hazırlanmışdır. 2020-ci ilin sentyabr ayından etibarən Mülki Kollegiyada mərhələli şəkildə yeni formada qərarların tətbiqinə başlanılaraq, 2021-ci ildən tam şəkildə yeni formada qərarların yazılması təmin edilmişdir. (Əlavə №6)

7. Kollegiya tərəfindən mülki işlər üzrə kassasiya şikayətləri təhlil edilərək, mövcud çatışmazlıqlar aşkar edilmiş, kassasiya şikayətlərinin və onlara etirazların keyfiyyətinin yüksəldilməsi məqsədi ilə mülki işlər üzrə kassasiya şikayəti və ona qarşı etirazın vahid nümunəvi forması hazırlanmışdır.(Əlavə №7)

8. Kollegiyada mövcud iş yükü, verilən kassasiya və əlavə kassasiya şikayətlərinin, onların prosessual tələblərə uyğunluğu, məzmun baxımından keyfiyyətli və əsaslandırılmış surətdə tərtibi ilə bağlı müvafiq təhlil aparılaraq, mövcud çatışmazlıqların aradan qaldırılması məqsədi ilə Azərbaycan Respublikasının Vəkillər Kollegiyasına müraciət edilərək, müvafiq məsləhətləşmələr aparılmış və bu istiqamətdə işin təşkil edilməsi üçün əlavə tədbirlərin görülməsi qərara alınmışdır. Əldə edilmiş məlumata əsasən, Vəkillər Kollegiyası üzvlərinə müvafiq icmal məktubu ilə müraciət edərək, qeyd edilən məsələlərin aradan qaldırılmasının vacibliyini diqqətlərinə catdırmışdır.

9. Cari ildə Mülki Kollegiya tərəfindən məhkəmə fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsinə imkan verəcək “Ədalət mühakiməsinin və məhkəmələrin fəaliyyətinin keyfiyyətinin ölçülməsinə dair sorğu” formaları hazırlanaraq, elektron formata keçirilməsi və “Elektron məhkəmə” informasiya sisteminə inteqrasiya olunması üçün Ali Məhkəmənin İnformasiya Texnologiyaları şöbəsinə təqdim edilmişdir.

10. Cari il ərzində Mülki Kollegiya tərəfindən Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinə Azərbaycan Respublikası Mülki Məcəlləsinin 337.1, 337.2, 339.6, 346 və 354-cü maddələrinin əlaqəli şəkildə şərh edilməsinə dair 1 sorğu verilmiş, habelə Konstitusiya Məhkəməsinin icraatında olan aşağıdakı 5 iş üzrə yazılı mülahizələr verilmişdir:

*1) Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 403.2-ci maddəsinin Azərbaycan Respublikası Konstitusiyasının 25, 57, 60 və 71-ci maddələri, “İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında” Avropa Konvensiyasının 6-cı*

*maddəsi, eləcə də Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 13 dekabr 2010-cu il tarixli Qərarındakı hüquqi mövqeyi baxımından şərh edilməsinə dair;*

*2) "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununun 9.8-ci maddəsinin Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 152-ci maddəsi ilə əlaqəli şəkildə şərh edilməsinə dair;*

*3) Azərbaycan Respublikası Mülki Məcəlləsinin 407.2-ci maddəsində müəyyənləşdirilmiş "sadə yazılı müqavilə müvafiq qayadada imzalandığı andan bağlanmış sayılır" müddəasında müvafiq qaydada imzalanma ifadəsinin mənası baxımından şərh edilməsinə dair;*

*4) Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsinin Mülki Məcəlləsinin 1193, 1194 və 1200-cü maddələri baxımından əlaqəli şəkildə şərh edilməsinə dair.*

*5) Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsinin "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikası Qanununun 9-cu maddəsinin 5-ci bəndi, Mülki Məcəllənin 14.2.2-ci maddəsi və Mülki Prosessual Məcəllənin 4.1-ci maddəsinin tələbləri, o cümlədən Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsinin Mülki Prosessual Məcəllənin 4.1, 53, 149, 152-ci maddələri ilə əlaqəli şəkildə şərh edilməsinə dair.*

11. Kollegiya tərəfindən Azərbaycan Respublikasının Ədliyyə Nazirliyindən daxil olmuş Azərbaycan Respublikasının yeni "İcra Məcəlləsi" layihəsinə, "Notariat haqqında" Azərbaycan Respublikasının Qanununa, "Azərbaycan Respublikasında notariat hərəkətlərinin aparılması qaydaları haqqında Təlimat"a dəyişikliklərin edilməsi barədə bir sıra digər normativ-hüquqi aktların layihələrinə dair rəylər hazırlanmışdır.

12. Ali Məhkəmənin Mülki Kollegiyasında baxılan konkret işlərin məhkəmə tərkiblərində, daha sonra isə Kollegiyada öyrənilməsi və müzakirəsi işi daha da təkmilləşdirilmişdir. İşlər əvvəlcə məhkəmə tərkiblərində hakimlərin öz aralarında, daha sonra isə Kollegiyada ətraflı müzakirə edilir. Vahid mövqeyin formalaşdırılması tələb olunan məsələlər üzrə isə Kollegiyanın bütün üzvlərinin iştirakı ilə geniş müzakirələr aparılır.

13. Mülki məhkəmə icraatı sahəsində məhkəmə qərarlarının sabitliyinin və vahid məhkəmə təcrübəsinin bərqərar olmasının təmin edilməsi məqsədi ilə Ali Məhkəmənin Mülki Kollegiyası tərəfindən apellyasiya instansiyası məhkəmələrinin ləğv edilmiş bütün qərarları xüsusi meyarlar üzrə öyrənilmişdir. Əldə edilmiş nəticələr hər bir apellyasiya instansiyası məhkəməsinə və hər bir hakimə ayrı-ayrılıqda xas olan məxsusi çatışmazlıqların aşkar olunmaqla, onların aradan qaldırılmasına, habelə hakimlərin tədris ehtiyaclarının müəyyən edilməsinə imkan verəcəkdir.

14. 2020-ci ilin avqustunda səlahiyyət müddəti bitən və fəaliyyətlərinin dövri qiymətləndirilməsi nəzərdə tutulan 26 birinci, 20 apellyasiya və 5 kassasiya instansiyası məhkəməsinin hakimlərinin fəaliyyətlərinin qiymətləndirilməsinə dair rəylər hazırlanaraq, Məhkəmə-Hüquq Şurasına təqdim edilmişdir.

**Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasının**

**2020-ci il üzrə baxılmış işlərinə dair məlumat**

**I.** 2020-ci ildə Mülki Kollegiyanın icraatında cəmi 7312 iş olmuşdur. Onlardan 1251 (17,1%) iş 2019-cu ildən qalıq keçmiş, 6061 iş (82,9%) isə 2020-ci ilin yanvar-dekabr aylarında daxil olmuşdur.




2019-cu ilin müvafiq dövrü ilə müqayisədə icraatda olan iş sayı 2091 (22,2%) ədəd azalmışdır. Belə ki, 2019-cu ilin müvafiq dövründə icraatda ümumən 9403 iş olmuşdur. Onlardan 1113 iş (11,8%) 2018-ci ildən qalıq keçmiş, 8290 iş (88,2%) isə 2019-cu il ərzində daxil olmuşdur.

**II.** 2019-2020-ci illərə qalıq keçmiş işləri müqayisə etdikdə görünür ki, 2020-ci ilə qalıq keçən 138 (12,4%) iş artmışdır. 2020-ci ildə daxil olan 6.061 iş ilə 2019-cu ilin müvafiq dövründə daxil olan 8.290 işlərin sayını müqayisə etdikdə isə görünür ki, 2020-ci ildə daxil olan işlərin sayı 2.229 (26,9%) iş azalmışdır.



**III.** 2019-cu il ərzində Mülki Kollegiyanın icraatında olan 9403 mülki işdən 1251 iş növbəti ilə qalıq kimi keçmiş, 2020-ci ildə isə Mülki Kollegiyanın icraatında olan 7312 işdən 1827 iş 2021-ci ilə qalıq kimi keçmişdir. 2019-2020-ci illər üzrə bu göstəricilərin müqayisəsindən görünür ki, növbəti ilə qalıq keçmiş işlərin sayı 576 iş (46%) artmışdır.




**IV.** 2015-2020-ci illər ərzində Mülki Kollegiyanın icraatında olan işlərin statistikası.




Azərbaycan Respublikasında koronavirus (COVİD-19) infeksiyasının yayılması təhlükəsinin qarşısının alınması ilə əlaqədar Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 2020-ci il 23 aprel tarixli Qərarına əsasən məhkəmələrin icraatında olan işlərə baxılmasının müvəqqəti olaraq təxirə salınması, həmçinin, qanunvericiliyə edilmiş dəyişikliklər əsasən inzibati-iqtisadi məhkəmələrin əvəzinə ayrıca inzibati və kommersiya məhkəmələrinin yaradılması, habelə işlərin məhkəmə aidiyyətinin, yəni ümumi və yaxud kommersiya məhkəmələrinə aidiyyətinin müəyyən edilməsi üzrə yeni qaydaların tətbiq edilməsi 2020-ci il üzrə Mülki Kollegiyanın icraatında olan işlərin sayının 2019-cu il ilə müqayisədə azalmasına səbəb olmuşdur.

**V.** 2020-ci ildə Kollegiyanın icraatında olan 7312 mülki işdən 5485 (75%) işə baxılması yekunlaşmış, 1827 (25%) iş isə qalıq kimi 2021-ci ilə keçmişdir. Yekunlaşmış 5485 işdən 5250 işə baxılmış, 235 iş baxılmadan geri qaytarılmış və ya baxışdan çıxarılıb geri göndərilmişdir.




**VI.** 2019-cu illə müqayisədə Mülki Kollegiyada baxılmış işlərin sayı 2735 (34,3%) iş azalmışdır. Belə ki, 2019-cu ildə 7985 işə baxılmış, 2020-ci ildə isə 5250 işə baxılmışdır.



**VII.** 2020-ci ildə baxılmış 5250 işdən 3999 (76,2%) iş üzrə qətnamə və ya qərardad dəyişdirilmədən saxlanılmış, 1122 (21,3%) iş üzrə qətnamə və ya qərardad ləğv edilmiş, 67 (1,3%) iş üzrə qətnamə və ya qərardad dəyişdirilmiş, 31 (0,6%) iş üzrə kassasiya icraatına xitam verilmiş, 31 (0,6%) iş aidiyyət mübahisəsi ilə bağlı olmuşdur.




**VIII.** Ləğv edilmiş 1122 işdən 980 iş (87,3%) təkrar baxışa göndərilmiş, 66 iş (5,9%) üzrə yeni qərar qəbul edilmiş, 2 iş (0,2%) baxılmamış saxlanılmış, 74 iş (6,6%) üzrə icraata xitam verilmişdir.



**IX.** 2019-cu ildə baxılmış 7985 işdən 1508 iş (18.8%) üzrə qərardad və ya qətnamə ləğv edilmiş, 2020-ci ildə isə 5250 işdən 1122 iş (21.3%) üzrə qərardad və ya qətnamə ləğv olunmuşdur. Göründüyü kimi, 2019-cu illə müqayisədə 2020-ci ildə ləğv edilmiş işlərin sayı 386 iş (25.6%) azalmış, bu illər üzrə baxılmış işlərlə məhkəmə aktı ləğv edilmiş işlərin faiz nisbətinin faiz göstəricisi 2.5% artmışdır.




**X.** 2020-ci ildə yekunlaşmış (baxılmadan geri qaytarılmış və ya baxışdan çıxarılıb geri göndərilən işlər, aidiyyət mübahisələri ilə bağlı olmuş işlər də daxil olmaqla cəmi baxılmış işlər) 5485 iş Kollegiyanın icraatında olan 7312 işin 75%-ni təşkil etmişdir. 2019-cu ildə yekunlaşmış 8152 iş Kollegiyanın icraatında olan 9403 işin 86.7%-ni təşkil etmişdir. Müqayisədə görünür ki, 2020-ci ildə yekunlaşmış işlərin sayı 2667 iş (32.7%), bu illər üzrə Kollegiyanın ümumi icraatında olan işlərlə yekunlaşmış işlərin faiz nisbətinin göstəricisi 11.7% azalmışdır.

2020-ci ildə baxılmış 5250 iş Kollegiyanın icraatında olan 7312 işin 71.8%-ni təşkil etmişdir. 2019-cu ildə baxılmış 7985 iş isə Kollegiyanın icraatında olan 9403 işin 84.9%-ni təşkil etmişdir. Göründüyü kimi, 2019-cu illə müqayisədə 2020-ci ildə baxılmış işlərin sayı 2735 iş (29%), bu illər üzrə Kollegiyanın icraatında olan işlərlə baxılmış işlərin faiz nisbətinin göstəricisi 13.1% azalmışdır.

2020-ci ildə baxılmadan geri qaytarılmış və ya baxışdan çıxarılıb geri göndərilən 235 iş Kollegiyanın icraatında olan 7312 işin 3.2%-ni təşkil etmişdir. 2019-cu ildə baxılmadan geri qaytarılmış və ya baxışdan çıxarılıb geri göndərilən 167 iş Kollegiyanın icraatında olan 9403 işin 1.8%-ni təşkil etmişdir. Göründüyü kimi, 2019-cu illə müqayisədə 2020-ci ildə baxılmadan geri qaytarılmış və ya baxışdan çıxarılıb geri göndərilən işlərin sayı 68 iş (40.7%), bu illər üzrə Kollegiyanın icraatında olan işlərlə baxılmadan geri qaytarılmış və ya baxışdan çıxarılıb geri göndərilən işlərin faiz nisbətinin göstəricisi isə 1.4% artmışdır.

2020-ci ildə növbəti ilə qalıq keçən 1827 iş Kollegiyanın icraatında olan 7312 işin 25%-ni təşkil etmişdir. 2019-cu ildə növbəti ilə qalıq keçən 1251 iş Kollegiyanın icraatında olan 9403 işin 13.3%-ni təşkil etmişdir. Müqayisədə görünür ki, növbəti ilə qalıq keçən işlər say etibarı ilə 576 iş (46%), 2020-ci ildə Kollegiyanın icraatında olan işlərlə növbəti ilə qalıq keçən işlərin faiz nisbətinin göstəricisi 12.7% artmışdır.




Növbəti ilə qalıq keçən işlərin sayındakı artım, Azərbaycan Respublikasında koronavirus (COVİD-19) infeksiyasının yayılması təhlükəsinin qarşısının alınması ilə bağlı Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 2020-ci il 23 aprel tarixli Qərarına əsasən məhkəmələrin icraatında olan işlərə baxılmasının müvəqqəti olaraq təxirə salınması ilə əlaqədar olmuşdur.

**XI.** 2020-ci ildə baxılmış 5250 işdən 31 iş aidiyyət mübahisələri ilə bağlı olmuşdur.

2020-ci ildə dəyişdirilmədən saxlanılan 3999 iş Kollegiyada baxılmış 5219 işin 76.6%-ni təşkil etmişdir. 2019-cu ildə dəyişdirilmədən saxlanılan 6386 iş Kollegiyada baxılmış 7985 işin 80%-ni təşkil etmişdir. Göründüyü kimi, 2019-cu illə müqayisədə 2020-ci ildə dəyişdirilmədən saxlanılan işlərin sayı 2387 iş (37.4%), bu illər üzrə baxılmış işlərlə dəyişdirilmədən saxlanılan işlərin faiz nisbətinin göstəricisi isə 3.4% azalmışdır.

2020-ci ildə ləğv edilən 1122 iş mahiyyəti üzrə baxılmış 5219 işin 21.3%-ni təşkil etmişdir. 2019-cu ildə ləğv edilən 1508 iş mahiyyəti üzrə baxılmış 7985 işin 18.8%-ni təşkil etmişdir. Göründüyü kimi, 2019-cu illə müqayisədə 2020-ci ildə məhkəmə aktı ləğv edilən işlərin sayı 386 iş (25.6%) azalsa da, bu illər üzrə baxılmış işlərlə ləğv edilən işlərin faiz nisbətinin göstəricisi isə 2.5% artmışdır.



2020-ci ildə məhkəmə aktı ləğv edilərək təkrar baxışa göndərilən 980 iş ləğv edilən 1122 işin 87.3%-ni təşkil etmişdir. 2019-cu ildə məhkəmə aktı ləğv edilərək təkrar baxışa göndərilən 1339 iş ləğv edilən 1508 işin 88.8%-ni təşkil etmişdir. Göründüyü kimi, 2019-cu illə müqayisədə 2020-ci ildə təkrar baxışa göndərilən işlərin sayı 359 iş (26.8%), bu illər üzrə ləğv edilən işlərlə təkrar baxışa göndərilən işlərin faiz nisbətinin göstəricisi isə 1.5% azalmışdır.

2020-ci ildə məhkəmə aktı ləğv edilərək yeni qərar çıxarılan 66 iş ləğv edilən 1122 işin 5.9%-ni təşkil etmişdir. 2019-cu ildə məhkəmə aktı ləğv edilib yeni qərar çıxarılan 83 iş ləğv edilən 1508 işin 5.5%-ni təşkil etmişdir. Göründüyü kimi, 2019-cu illə müqayisədə 2020-ci ildə yeni qərar çıxarılan işlərin sayı 17 iş (20.5%) azalsa da, bu illər üzrə ləğv edilən işlərlə yeni qərar çıxarılan işlərin faiz nisbətinin göstəricisi 0.4% artmışdır.

2020-ci ildə məhkəmə aktı ləğv edilərək iş üzrə icraata xitam verilən 74 iş ləğv edilən 1122 işin 6.6%-ni təşkil etmişdir. 2019-cu ildə məhkəmə aktı ləğv edilərək iş üzrə icraata xitam verilən 84 iş ləğv edilən 1508 işin 5.6%-ni təşkil etmişdir. Göründüyü kimi, 2019-cu illə müqayisədə 2020-ci ildə məhkəmə aktı ləğv edilərək iş üzrə icraata xitam verilən işlərin sayı 10 iş (11.9%) azalsa da, bu illər üzrə ləğv edilən işlərlə məhkəmə aktı ləğv edilib iş üzrə icraata xitam verilən işlərin faiz nisbətinin göstəricisi 1% artmışdır.

2020-ci ildə məhkəmə aktı ləğv edilib iddia (ərizə) baxılmamış saxlanılan 2 iş ləğv edilən 1122 işin 0.2%-ni təşkil etmişdir. 2019-cu ildə məhkəmə aktı ləğv edilib iddia (ərizə) baxılmamış saxlanılan 2 iş ləğv edilən 1508 işin 0.1%-ni təşkil etmişdir. Göründüyü kimi, məhkəmə aktı ləğv edilərək iddia baxılmamış saxlanılan işlərin sayı eyni olmuş, 2019-2020-ci illər üzrə ləğv edilən işlərlə məhkəmə aktı ləğv edilib iddia (ərizə) baxılmamış saxlanılan işlərin faiz nisbətinin göstəricisi isə 0.1% artmışdır.

2020-ci ildə kassasiya icraatına xitam verilən 31 iş baxılmış 5219 işin 0.6%-ni təşkil etmişdir. 2019-cu ildə kassasiya icraatına xitam verilən 30 iş baxılmış 7985 işin 0.4%-ni təşkil etmişdir. Göründüyü kimi, 2019-cu illə müqayisədə 2020-ci ildə kassasiya icraatına xitam verilən işlərin sayı 1 iş (3.3%), bu illər üzrə baxılmış işlərlə kassasiya icraatına xitam verilən işlərin faiz nisbətinin göstəricisi isə 0.2% artmışdır.

2020-ci ildə məhkəmə aktı dəyişdirilən 67 iş Kollegiyada baxılan 5219 işin 1.3%-ni təşkil etmişdir. 2019-cu ildə məhkəmə aktı dəyişdirilən 61 iş Kollegiyada baxılan 7985 işin 0.8%-ni təşkil etmişdir. Göründüyü kimi, 2019-cu illə müqayisədə 2020-ci ildə məhkəmə aktı dəyişdirilən işlərin sayı 6 iş (9.8%), bu illər üzrə baxılmış işlərlə məhkəmə aktı dəyişdirilən işlərin faiz nisbətinin göstəricisi isə 0.5% artmışdır.




Mülki Kollegiyanın icraatında olmuş işlərin sayının 2019-2020-ci illər üzrə müqayisəsi
3000
2500
2000
1500
1000
500
0
2091 22.2%
2667 32.7%
2387 37.4%
386 25.6%
6 9.8%
1 3.3%
68 40.7%
576 46%
Ümumi iş yükü (azalıb)
Yekunlaşmış işlər (azalıb)
Qüvvə (azalıb)
Ləğv (azalıb)
Dəyişdirmə (artıb)
Kassasiya icraatına xitam (artıb)
Baxılmadan geri qaytarılan və ya baxışdan çıxarılan işlər (artıb)
Növbəti ilə qalıq kimi keçən işlər (artıb)


Mülki Kollegiyanın icraatında olmuş işlərin göstəricilərinin faiz nisbətində 2019-2020-ci illər üzrə müqayisəsi
14,00%
12,00%
10,00%
8,00%
6,00%
4,00%
2,00%
0,00%
11,70%
3,40%
2,50%
0,50%
0,20%
1,40%
12,70%
Yekunlaşmış işlər (azalıb)
Qüvvə (azalıb)
Ləğv (artıb)
Dəyişdirmə (artıb)
Kassasiya icraatına xitam (artıb)
Baxılmadan geri qaytarılan və ya baxışdan çıxarılan işlər (artıb)
Növbəti ilə qalıq kimi keçən işlər (artıb)

## 2020-ci ildə Ali Məhkəmənin Mülki Kollegiyasında ümumilikdə baxılmış işlərin(5219) və baxılıb məhkəmə aktı ləğv edilən işlərin(1122) kateqoriyalar üzrə bölgüsü

| İndeks № | İddianın kateqoriyası | Baxılmış işlərin sayı | Faiz[1] | Ləğv olunmuş işlərin sayı | Faiz[2] |
|---|---|---|---|---|---|
| **1.** | Ailə münasibətləri üzrə mübahisələr | 660 | 12.6% | 94 | 14.2% |
| **2.** | Əmək mübahisələri | 184 | 3.5% | 46 | 25% |
| **3.** | Mənzil mübahisələri | 575 | 11% | 130 | 22.6% |
| **4.** | Mülkiyyət hüququ ilə əlaqədar mübahisələr | 220 | 4.3% | 48 | 21.8% |
| **6.** | Torpaq mübahisələri | 180 | 3.5% | 47 | 26.1% |
| **7-11.** | Müqavilənin bağlanması, dəyişdirilməsi, ləğv edilməsi, etibarsız hesab edilməsi və məcburi bağlanması | 288 | 5.5% | 67 | 23.3% |
| **16.** | Borc müqaviləsi üzrə mübahisələr | 347 | 6.7% | 59 | 17% |
| **17.** | Kredit müqaviləsi üzrə mübahisələr | 1061 | 20.3% | 204 | 19.2% |
| **12-15 18-27** | Digər müqavilələrdən əmələ gələn öhdəliklər üzrə mübahisələr | 596 | 11.4% | 124 | 20.8% |
| **28.** | Mülki hüquq pozuntularından (deliktlərdən) əmələ gələn öhdəliklər üzrə mübahisələr | 343 | 6.6% | 84 | 24.5% |
| **29.** | Vərəsəlik hüququ üzrə mübahisələr | 141 | 2.7% | 46 | 32.6% |
| **30.** | Xüsusi icraat işləri üzrə | 125 | 2.4% | 33 | 26.4% |
| **40.** | Şərəf və ləyaqətin müdafiəsi üzrə | 50 | 0.9% | 10 | 20% |
| **41.** | Sair mülki işlər | 449 | 8.6% | 130 | 29% |

[1] Hər kateqoriya üzrə baxılmış işlərin sayının Ali Məhkəmənin Mülki Kollegiyasında baxılan ümumi işlərə münasibətdə faizlə göstəricisi.
[2] Hər kateqoriya üzrə məhkəmə aktı ləğv edilmiş işlərin sayının həmin kateqoriya üzrə baxılmış işlərə münasibətdə faizlə göstəricisi.

## 2020-ci ildə Ali Məhkəmənin Mülki Kollegiyasında ümumilikdə baxılmış işlərin (5219) kateqoriyalar üzrə bölgüsü



**2020-ci ildə Ali Məhkəmənin Mülki Kollegiyasında məhkəmə aktı ləğv edilmiş işlərin (1122) kateqoriyalar üzrə bölgüsü**




*QEYD: Hər kateqoriya üzrə məhkəmə aktı ləğv edilmiş işlərin sayının həmin kateqoriya üzrə baxılmış işlərə münasibətdə faizlə göstəricisi.*

Qeyd edilən göstəricilər apellyasiya instansiyası məhkəmələri hakimlərinin tədris ehtiyaclarının müəyyən edilməsi baxımından əhəmiyyətli hesab edilir.


Apellyasiya instansiyası məhkəmələrinin
Ali Məhkəmənin Mülki Kollegiyasında ləğv edilmiş
qərarlarının maddi və prosessual əsasları üzrə
təhlili vəziyyəti
120%
100%
80%
60%
40%
20%
0%
100%
44,00%
15,10%
36,60%
4,30%
Məhkəmə aktı ləğv edilən qərarların ümumi sayı (1122)
Prosessual pozuntulara görə ləğv edilən qəraraların sayı (494)
Maddi hüquq normalarının tələblərinin pozulduğuna görə ləğv edilən qərarların ümumi sayı (169)
Həm maddi, həm də prosessual pozuntulara görə ləğv edilən qərarların sayı (411)
Digər (48)


2020-ci ildə məhkəmə aktı ləğv edilmiş işlər üzrə pozulmuş
maddi hüquq normalarının bölgüsü (bir işdə müxtəlif maddi
hüququ normalarının pozulması nəzərə alınmaqla)
450
400
350
300
250
200
150
100
50
0
385
59
33
33
13
49
156
Mülki Məcəllə
Ailə Məcəlləsi
Mənzil Məcəlləsi
Əmək Məcəlləsi
Torpaq Məcəlləsi
"İpoteka haqqında" Qanun
Digər

## 2020-ci ildə Ali Məhkəmənin Mülki Kollegiyasında məhkəmə aktı ləğv edilən mülki işlər üzrə məhkəmələr tərəfindən hüququn tətbiqində ən çox səhvə yol verilmiş və ya səhv təfsir edilmiş maddi hüquq normalarının siyahısı




2020-ci ildə məhkəmə aktı ləğv edilmiş işlər üzrə MPM-nin pozulmuş maddələrinə dair vəziyyət (bir işdə müxtəlif prosessual hüquq normalarının pozulması nəzərə alınmaqla)
600
500
400
300
200
100
0
517
117
63
39
31
18
16
14
11
Sübutların qiymətləndirilməsi MPM 88
Qətnamənin qanuniliyi və əsaslılığı MPM 217
Sübut etmə vəzifəsi MPM 77
Məhkəmə aktının əsaslandırılmaması MPM 392.2
Apellyasiya instansiyası məhkəməsində işə baxılmanın hədləri MPM 372
Məhkəmə aidiyyəti qaydalarının pozulması MPM 418.4.9
İştirak etməyə cəlb edilməmiş şəxsin huquqlarının pozulması MPM 418.4.6
Əsl olmayan cavabdehə qarşı iddia qaldırılması MPM 54
Məhkəmə iclasının keçirilməsi vaxtı və yeri barədə lazımi qaydada məlumat verilməməsi MPM 418.4.5

2020-ci ildə icraatda olan Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasının icraatında olan 7312 işdən 980 (13,4%) iş təkrar olmuşdur. 2019-cu ilin müvafiq dövrü ilə müqayisə etdikdə isə Kollegiyanın icraatında olan 9403 işdən 1875 (19,9%) iş təkrar olmuşdur. Göründüyü kimi, 2020-ci ildə Kollegiyanın icraatında təkrar olmuş işlərin sayı 2019-cu ilin göstəricisi ilə müqayisədə 895 iş (47.7%) azalmış, bu illər üzrə icraatda olan işlərlə təkrar olan işlərin faiz nisbətinin göstəricisi 6.5% azalmışdır.




2020-ci ildə Mülki Kollegiyanın təkrar icraatında olmuş 980 işdən 135 iş (13.8%) üzrə apellyasiya instansiyası məhkəməsinin qərardad və ya qətnaməsi yenidən ləğv edilmişdir.



**XII.** 2020-ci ildə Mülki Kollegiyanın icraatında xarici məhkəmələrin və arbitrajların qətnamələrinin icrası və tanınması ilə bağlı 142 iş olmuşdur. 2019-cu ildə isə Mülki Kollegiyanın icraatında xarici məhkəmələrin və arbitrajların qətnamələrinin icrası və tanınması ilə bağlı 195 iş olmuşdur.

Göründüyü kimi, 2019-cu illə müqayisədə 2020-ci ildə xarici məhkəmələrin və arbitrajların qətnamələrinin icrası və tanınması ilə bağlı icraatda olan işlərin sayı 53 iş (27.2%) azalmışdır.

2020-ci ildə baxılmış 105 iş Kollegiyanın icraatında olan 142 işin 73.9%-ni təşkil etmişdir. 2019-cu ildə baxılmış 169 iş Kollegiyanın icraatında olan 195 işin 86.7%-ni təşkil etmişdir. Göründüyü kimi, 2019-cu illə müqayisədə 2020-ci ildə xarici məhkəmələrin və arbitrajların qətnamələrinin icrası və tanınması ilə bağlı baxılan işlərin sayı 64 iş (37.9%) azalmışdır.

2020-ci ildə Kollegiyanın icraatında olan 37 iş növbəti ilə qalıq kimi keçmiş, 2019-cu ildə isə Kollegiyanın icraatında olan 26 iş növbəti ilə qalıq kimi keçmişdir. Müqayisədə görünür ki, növbəti ilə qalıq kimi keçən işlərin sayı 11 iş (42.3%) artmışdır.

2020-ci ildə baxılmış 105 işdən 96 iş üzrə xarici məhkəmələrin və arbitrajların qətnamələrinin icrası və tanınması barədə müraciətlər təmin edilmiş, 7 iş üzrə rədd edilmiş, 2 iş üzrə isə geri qaytarılmışdır. 2019-cu ildə baxılmış 169 işdən 161 iş üzrə xarici məhkəmələrin və arbitrajların qətnamələrinin icrası və tanınması barədə müraciətlər təmin edilmiş, 4 iş üzrə rədd edilmiş, 4 iş üzrə isə geri qaytarılmışdır.

2019-2020-ci illər üzrə müqayisədə görünür ki, təmin edilmiş müraciətlər üzrə işlərin sayı 65 iş (40.4%) azalmış, rədd edilmişlər üzrə işlərin sayı 3 iş (75%) artmış, geri qaytarılan işlərin sayı isə 2 iş (50%) azalmışdır.




Azərbaycan Respublikasında xarici məhkəmələrin və arbitrajların qətnamələrinin icrası və tanınması ilə bağlı baxılmış işlərin nəticələrinin müqayisəli təhlili
180
160
140
120
100
80
60
40
20
0
161 (95.2%)
4 (2.4%)
4 (2.4%)
96 (91.4%)
7 (6.7%)
2 (1.9%)
2019-cu il
2020-ci il
Təmin edilmiş
Rədd edilmiş
Geri qaytarılan


Mülki Kollegiyanın icraatındakı xarici məhkəmələrin və arbitrajların qətnamələrinin icrası və tanınması ilə bağlı işlərin 2019-2020-ci illər üzrə müqayisəli təhlili
70
60
50
40
30
20
10
0
53 27.2%
64 37.9%
65 40.4%
3 75%
2 50%
11 42.3%
İcraatda olan (azalıb)
Baxılmış (azalıb)
Təmin edilmiş (azalıb)
Rədd edilmiş (artıb)
Geri qaytarılan (azalıb)
Növbəti ilə qalıq kimi keçən işlər (artıb)

**XIII.** 2018-ci ildə mülki işlər üzrə 392, 2019-cu ildə mülki işlər üzrə 399, 2020-ci ildə mülki işlər üzrə 381 əlavə kassasiya qaydasında şikayət Azərbaycan Respublikası Ali Məhkəməsinə daxil olmuş, onlardan 2018-ci ildə mülki işlər üzrə 3, 2019-cu ildə mülki işlər üzrə 2, 2020-ci ildə mülki işlər üzrə 1 şikayət Ali Məhkəmə Plenumunun baxışına çıxarılmışdır.




Təhlil göstərir ki, əlavə kassasiya şikayətlərinin mütləq əksəriyyətində işə əlavə kassasiya qaydasında baxılması üçün Mülki Prosessual Məcəllənin 424-cü maddəsində nəzərdə tutulmuş məhdud əsaslara istinad edilmədiyindən, aidiyyəti olmayan formal, bəzən isə işin faktiki halları ilə bağlı dəlillərə toxunulduğundan Ali Məhkəmənin Plenumunun baxışına çıxarılmamışlar.

# Ali Məhkəmənin Mülki Kollegiyasında baxılmış mülki işlərin apellyasiya instansiyası məhkəmələri üzrə müqayisəli təhlili


2019-CU İLDƏ MÜLKI KOLLEGIYADA BAXILMIŞ İŞLƏRİN (7985 İŞ) APELLYASİYA MƏHKƏMƏLƏRİ ÜZRƏ BÖLGÜSÜ
Şəki Apellyasiya Məhkəməsi; 790 iş ; 9.9%
Naxçıvan MR Ali Məhkəməsi; 42 iş; 0.5%
Şirvan Apellyasiya Məhkəməsi; 831 iş; 10.4%
Bakı Apellyasiya Məhkəməsi; 4281 iş; 53.6%
Sumqayıt Apellyasiya Məhkəməsi; 998 iş; 12.5%
Gəncə Apellyasiya Məhkəməsi; 1043 iş; 13.1%


2020-CI İLDƏ MÜLKI KOLLEGIYADA BAXILMIŞ İŞLƏRİN (5219 İŞ) APELLYASİYA MƏHKƏMƏLƏRİ ÜZRƏ BÖLGÜSÜ
Şəki Apellyasiya Məhkəməsi; 503 iş ; 9.6%
Naxçıvan MR Ali Məhkəməsi; 22 iş; 0.4%
Şirvan Apellyasiya Məhkəməsi; 647 iş; 12.5%
Bakı Apellyasiya Məhkəməsi; 2689 iş; 51.5%
Sumqayıt Apellyasiya Məhkəməsi; 689 iş; 13.2%
Gəncə Apellyasiya Məhkəməsi; 669 iş; 12.8%




Diaqramlardan göründüyü kimi, 2020-ci ildə Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasında baxılmış 5219 işdən 2689 iş (51.5%) Bakı Apellyasiya Məhkəməsindən, 669 iş (12.8%) Gəncə Apellyasiya Məhkəməsindən, 689 iş (13.2%) Sumqayıt Apellyasiya Məhkəməsindən, 647 iş (12.5%) Şirvan Apellyasiya Məhkəməsindən, 503 iş (9.6%) Şəki Apellyasiya Məhkəməsindən, 22 iş (0.4%) isə Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsindən daxil olmuşdur.

2020-ci ildə Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasında məhkəmə aktı ləğv edilmiş 1122 işdən 592 iş (52.8%) Bakı Apellyasiya Məhkəməsindən, 141 iş (12.6%) Gəncə Apellyasiya Məhkəməsindən, 145 iş (12.9%) Sumqayıt Apellyasiya Məhkəməsindən, 126 iş (11.2%) Şirvan Apellyasiya Məhkəməsindən, 113 iş (10.1%) Şəki Apellyasiya Məhkəməsindən, 5 iş (0.4%) Naxçıvan MR Ali Məhkəməsindən daxil olmuşdur.

**Apellyasiya instansiyası məhkəmələrinin qətnamə və ya qərardadı ləğv edilən işlərin Ali Məhkəmənin Mülki Kollegiyasında baxılmış işlərə münasibətdə 2018-2020-ci illər üzrə faiz göstəriciləri**

| APELLYASİYA MƏHKƏMƏLƏRİ | 2018 | 2019 | 2020 |
|---|---|---|---|
| Bakı Apellyasiya Məhkəməsi | 17.4% | 19.7% | 22% |
| Gəncə Apellyasiya Məhkəməsi | 13.7% | 16.1% | 21.07% |
| Sumqayıt Apellyasiya Məhkəməsi | 16.7% | 20.1% | 21% |
| Şirvan Apellyasiya Məhkəməsi | 14.5% | 15.9% | 19.7% |
| Şəki Apellyasiya Məhkəməsi | 16.1% | 20.3% | 22.46% |
| Naxçıvan MR Ali Məhkəməsi | 24.9% | 11.9% | 22.7% |

**2018-2020-ci illər üzrə apellyasiya instansiyası məhkəmələrinin qətnamə və ya qərardadı ləğv edilən işlərin faiz göstəricilərinin müqayisəsi**



# BAKI APELLYASİYA MƏHKƏMƏSİ

2020-ci ildə Bakı Apellyasiya Məhkəməsindən Ali Məhkəmənin Mülki Kollegiyasına daxil olmuş işlərdən 2689 işə baxılmış, 2047 iş (76.1%) üzrə məhkəmə aktı dəyişdirilmədən saxlanılmış, 592 iş (22%) üzrə məhkəmə aktı ləğv edilmiş, 35 iş (1.3%) üzrə apellyasiya instansiyası məhkəməsinin qərardad və ya qətnaməsi dəyişdirilmiş, 15 iş (0.6%) üzrə kassasiya icraatına xitam verilmişdir.

2019-cu ildə Bakı Apellyasiya Məhkəməsindən Ali Məhkəmənin Mülki Kollegiyasına daxil olmuş işlərdən 4281 işə baxılmış, 3380 iş (78.9%) üzrə məhkəmə aktı dəyişdirilmədən saxlanılmış, 843 iş (19.7%) üzrə məhkəmə aktı ləğv edilmiş, 37 iş (0.9%) üzrə apellyasiya instansiyası məhkəməsinin qərardad və ya qətnaməsi dəyişdirilmiş, 21 iş (0.5%) üzrə kassasiya icraatına xitam verilmişdir.

Göründüyü kimi, 2019-cu illə müqayisədə 2020-ci ildə baxılmış işlərin sayı 1592 iş (37.2%) azalmış, məhkəmə aktı dəyişdirilmədən saxlanılmış işlərin sayı 1333 iş (39.4%) azalmış, məhkəmə aktı ləğv edilən işlərin sayı 251 iş (29.8%) azalmış, bu illər üzrə baxılmış işlərin cəmi ilə məhkəmə aktı dəyişdirilmədən saxlanılmış işlərin faiz nisbətinin göstəricisi 2.8% azalmış, baxılmış işlərin cəmi ilə məhkəmə aktı ləğv edilən işlərin faiz nisbətinin göstəricisi 2.3% artmışdır.

2019-cu illə müqayisədə 2020-ci ildə məhkəmə aktı dəyişdirilən işlərin sayı 2 iş (5.4%) azalmış, kassasiya icraatına xitam verilən işlərin sayı 6 iş (28.6%) azalmış, bu illər üzrə baxılmış işlərin cəmi ilə məhkəmə aktı dəyişdirilən işlərin faiz nisbətinin göstəricisi 0.4%, baxılmış işlərin cəmi ilə kassasiya icraatına xitam verilən işlərin faiz nisbətinin göstəricisi isə 0.1% artmışdır.









Diaqramlardan göründüyü kimi, Bakı Apellyasiya Məhkəməsinin mülki işlər üzrə Qərarlarının ləğv faizində 2018 - 2020-ci illər üzrə sabit artım müşahidə edilir.

Bakı Apellyasiya Məhkəməsindən daxil olmuş 2020-ci ildə məhkəmə aktı ləğv edilən 592 işdən 33 iş (5.6%) üzrə yeni qərar qəbul edilmiş, 521 iş (88%) üzrə məhkəmə aktı ləğv edilib, yenidən baxılması üçün apellyasiya instansiyası məhkəməsinə göndərilmiş, 1 iş (0.2%) üzrə ərizə baxılmamış saxlanılmış, 37 iş (6.2%) üzrə məhkəmə aktı ləğv edilərək, iş üzrə icraata xitam verilmişdir.

Bakı Apellyasiya Məhkəməsindən daxil olmuş 2019-cu ildə məhkəmə aktı ləğv edilən 843 işdən 43 iş (5.1%) üzrə yeni qərar qəbul edilmiş, 741 iş (87.9%) üzrə məhkəmə aktı ləğv edilib, yenidən baxılması üçün apellyasiya instansiyası məhkəməsinə göndərilmiş, 1 iş (0.1%) üzrə ərizə baxılmamış saxlanılmış, 58 iş (6.9%) üzrə məhkəmə aktı ləğv edilərək, iş üzrə icraata xitam verilmişdir.

Göründüyü kimi, 2019-cu illə müqayisədə 2020-ci ildə məhkəmə aktı ləğv edilib iş üzrə yeni qərar qəbul edilən işlərin sayı 10 iş (23.3%), məhkəmə aktı ləğv edilib, yenidən baxılması üçün apellyasiya instansiyası məhkəməsinə göndərilmiş işlərin sayı 220 iş (29.7%) azalmış, məhkəmə aktı ləğv edilərək, iş üzrə icraata xitam verilən işlərin sayı isə 21 iş (36.2) azalmışdır.






Diaqramdan göründüyü kimi, ləğv edilən qərarların 49.50%-ində prosessual pozuntulara, 15.20%-ində maddi hüquq normalarının pozuntularına, 31.90%-ində isə həm maddi, həm də prosessual pozuntulara yol verilməsi əsası ilə ləğv edilmişdir.

2020-ci ildə Ali Məhkəmənin Mülki Kollegiyasında baxılan Bakı Apellyasiya Məhkəməsindən daxil olmuş 173 iş üzrə Mülki Məcəllənin, 32 iş üzrə Ailə Məcəlləsinin, 16 iş üzrə Mənzil Məcəlləsinin, 17 iş üzrə Əmək Məcəlləsinin, 3 iş üzrə Torpaq Məcəlləsinin, 22 iş üzrə "İpoteka haqqında" Qanunun, 5 iş üzrə "Əmanətlərin Sığortalanması" və "Əmanətlərin tam sığortalanması" haqqında Qanunların və 73 iş üzrə digər maddi hüquq normalarının tətbiq edilməsində səhvə yol verilmiş, tətbiq edilməli olan qanun və ya digər normativ hüquqi akt tətbiq edilməmiş və ya qanun səhv təfsir edildiyindən məhkəmə aktları ləğv edilmişdir.



## GƏNCƏ APELLYASİYA MƏHKƏMƏSİ

2020-ci ildə Gəncə Apellyasiya Məhkəməsindən Ali Məhkəmənin Mülki Kollegiyasına daxil olmuş işlərdən 669 işə baxılmış, 517 iş (77.3%) üzrə məhkəmə aktı dəyişdirilmədən saxlanılmış, 141 iş (21,1%) üzrə məhkəmə aktı ləğv edilmiş, 7 iş (1%) üzrə apellyasiya instansiyası məhkəməsinin qətnamə və ya qərardadı dəyişdirilmiş, 4 iş (0.6%) üzrə kassasiya icraatına xitam verilmişdir.

2019-cu ildə Gəncə Apellyasiya Məhkəməsindən Ali Məhkəmənin Mülki Kollegiyasına daxil olmuş işlərdən 1043 işə baxılmış, 867 iş (83.1%) üzrə məhkəmə aktı dəyişdirilmədən saxlanılmış, 167 iş (16%) üzrə məhkəmə aktı ləğv edilmiş, 8 iş (0.8%) üzrə apellyasiya instansiyası məhkəməsinin qətnamə və ya qərardadı dəyişdirilmiş, 1 iş (0.1%) üzrə kassasiya icraatına xitam verilmişdir.

Göründüyü kimi, 2019-cu illə müqayisədə 2020-ci ildə baxılmış işlərin sayı 374 iş (35.9%) azalmış, məhkəmə aktı dəyişdirilmədən saxlanılmış işlərin sayı 350 iş (40.4%) azalmış, məhkəmə aktı ləğv edilən işlərin sayı 26 iş (15.6%), bu illər üzrə baxılmış işlərin cəmi ilə məhkəmə aktı dəyişdirilmədən saxlanılmış işlərin faiz nisbətinin göstəricisi 5.8% azalmış, baxılmış işlərin cəmi ilə məhkəmə aktı ləğv edilən işlərin faiz nisbətinin göstəricisi isə 5.1% artmışdır.

2019-cu illə müqayisədə 2020-ci ildə məhkəmə aktı dəyişdirilən işlərin sayı 1 iş (12.5%) azalmış, kassasiya icraatına xitam verilən işlərin sayı 3 iş (300%) artmışdır.









*Diaqramlardan göründüyü kimi, Gəncə Apellyasiya Məhkəməsinin mülki işlər üzrə qərarlarının ləğv faizində 2018 - 2020-ci illər üzrə artım müşahidə edilir.*

Gəncə Apellyasiya Məhkəməsindən daxil olmuş 2020-ci ildə məhkəmə aktı ləğv edilən 141 işdən 10 iş (7.1%) üzrə yeni qərar qəbul edilmiş, 121 iş (85.8%) üzrə məhkəmə aktı ləğv edilib, yenidən baxılması üçün apellyasiya instansiyası məhkəməsinə göndərilmiş, 10 iş (7.1%) üzrə məhkəmə aktı ləğv edilərək, iş üzrə icraata xitam verilmişdir.

Gəncə Apellyasiya Məhkəməsindən daxil olmuş 2019-cu ildə məhkəmə aktı ləğv edilən 167 işdən 9 iş (5.4%) üzrə yeni qərar qəbul edilmiş, 151 iş (90.4%) üzrə məhkəmə aktı ləğv edilib, yenidən baxılması üçün apellyasiya instansiyası məhkəməsinə göndərilmiş, 7 iş (4.2%) üzrə məhkəmə aktı ləğv edilərək, iş üzrə icraata xitam verilmişdir.

Göründüyü kimi, 2019-cu illə müqayisədə 2020-ci ildə məhkəmə aktı ləğv edilib, iş üzrə yeni qərar qəbul edilən işlərin sayı 1 iş (11.1%) artmış, məhkəmə aktı ləğv edilib, yenidən baxılmaq üçün apellyasiya instansiyası məhkəməsinə göndərilmiş işlərin sayı 30 iş (19.9%) azalmış, məhkəmə aktı ləğv edilərək, iş üzrə icraata xitam verilən işlərin sayı isə 3 iş (42.9%) artmışdır.






Diaqramdan göründüyü kimi, ləğv edilən qərarların 40.40%-ində prosessual pozuntular, 20.60%-ində maddi hüquq normalarının pozuntuları, 37.60%-ində isə həm maddi, həm də prosessual pozuntular aşkar edilərək, məhkəmə aktları ləğv edilmişdir.

2020-ci ildə Ali Məhkəmənin Mülki Kollegiyasında baxılan Gəncə Apellyasiya Məhkəməsindən daxil olmuş 57 iş üzrə Mülki Məcəllənin, 9 iş üzrə Ailə Məcəlləsinin, 4 iş üzrə Mənzil Məcəlləsinin, 2 iş üzrə Əmək Məcəlləsinin, 3 iş üzrə Torpaq Məcəlləsinin, 6 iş üzrə "İpoteka haqqında" Qanunun və 22 iş üzrə digər maddi hüquq normalarının tətbiq edilməsində səhvə yol verilmiş, tətbiq edilməli olan qanun və ya digər normativ hüquqi akt tətbiq edilməmiş və ya qanun səhv təfsir edildiyindən məhkəmə aktları ləğv edilmişdir.



# SUMQAYIT APELLYASİYA MƏHKƏMƏSİ

2020-ci ildə Sumqayıt Apellyasiya Məhkəməsindən Ali Məhkəmənin Mülki Kollegiyasına daxil olmuş işlərdən 689 işə baxılmış, 531 iş (77.3%) üzrə məhkəmə aktı dəyişdirilmədən saxlanılmış, 145 iş (21,0%) üzrə məhkəmə aktı ləğv edilmiş, 7 iş (1%) üzrə apellyasiya instansiyası məhkəməsinin qərardad və ya qətnaməsi dəyişdirilmiş, 5 iş (0.7%) üzrə kassasiya icraatına xitam verilmişdir.

2019-cu ildə Sumqayıt Apellyasiya Məhkəməsindən Ali Məhkəmənin Mülki Kollegiyasına daxil olmuş işlərdən 998 işə baxılmış, 788 iş (79%) üzrə məhkəmə aktı dəyişdirilmədən saxlanılmış, 201 iş (20.1%) üzrə məhkəmə aktı ləğv edilmiş, 5 iş (0.5%) üzrə məhkəmə aktı dəyişdirilmiş, 4 iş (0.4%) üzrə kassasiya icraatına xitam verilmişdir.

Göründüyü kimi, 2019-cu illə müqayisədə 2020-ci ildə 309 iş (31%) azalmış, məhkəmə aktı dəyişdirilmədən saxlanılmış işlərin sayı 257 iş (32.6%) azalmış, məhkəmə aktı ləğv edilən işlərin sayı 56 iş (27.9%) azalmış, bu illər üzrə baxılmış işlərin cəmi ilə məhkəmə aktı dəyişdirilmədən saxlanılmış işlərin faiz nisbətinin göstəricisi 1.7% azalmış, baxılmış işlərin cəmi ilə məhkəmə aktı ləğv edilən işlərin faiz nisbətinin göstəricisi 0.9% artmışdır.

2019-cu illə müqayisədə 2020-ci ildə məhkəmə aktı dəyişdirilən işlərin sayı 2 iş (40%), kassasiya icraatına xitam verilən işlərin sayı 1 iş (25%), bu illər üzrə baxılmış işlərin cəmi ilə məhkəmə aktı dəyişdirilən işlərin faiz nisbətinin göstəricisi 0.5%, baxılmış işlərin cəmi ilə kassasiya icraatına xitam verilən işlərin faiz nisbətinin göstəricisi 0.3% artmışdır.









Diaqramlardan göründüyü kimi, Sumqayıt Apellyasiya Məhkəməsinin mülki işlər üzrə qərarlarının ləğv faizində 2018 - 2020-ci illər üzrə artım müşahidə edilir.

Sumqayıt Apellyasiya Məhkəməsindən daxil olmuş 2020-ci ildə məhkəmə aktı ləğv edilən 145 işdən 5 iş (3.4%) üzrə yeni qərar qəbul edilmiş, 130 iş (89.7%) üzrə məhkəmə aktı ləğv edilib, yenidən baxılması üçün apellyasiya instansiyası məhkəməsinə göndərilmiş, 10 iş (6.9%) üzrə məhkəmə aktı ləğv edilərək, iş üzrə icraata xitam verilmişdir.

Sumqayıt Apellyasiya Məhkəməsindən daxil olmuş 2019-cu ildə məhkəmə aktı ləğv edilən 201 işdən 12 iş (6%) üzrə yeni qərar qəbul edilmiş, 177 iş (88%) üzrə məhkəmə aktı ləğv edilib, yenidən baxılması üçün apellyasiya instansiyası məhkəməsinə göndərilmiş, 12 iş (6%) üzrə məhkəmə aktı ləğv edilərək, iş üzrə icraata xitam verilmişdir.

Göründüyü kimi, 2019-cu illə müqayisədə 2020-ci ildə məhkəmə aktı ləğv edilib iş üzrə yeni qərar qəbul edilən işlərin sayı 7 iş (58.3%) azalmış, məhkəmə aktı ləğv edilib, yenidən baxılması üçün apellyasiya instansiyası məhkəməsinə göndərilmiş işlərin sayı 47 iş (26.6%) azalmış, məhkəmə aktı ləğv edilərək, iş üzrə icraata xitam verilən işlərin sayı 2 iş (16.7%) azalmışdır.






*Diaqramdan göründüyü kimi, ləğv edilən qərarların 40.70%-ində prosessual pozuntular, 15.10%-ində maddi hüquq normalarının pozuntuları, 41.40%-ində isə həm maddi, həm də prosessual pozuntular aşkar edilərək, məhkəmə aktları ləğv edilmişdir.*

2020-ci ildə Ali Məhkəmənin Mülki Kollegiyasında baxılan Sumqayıt Apellyasiya Məhkəməsindən daxil olmuş 57 iş üzrə Mülki Məcəllənin, 7 iş üzrə Ailə Məcəlləsinin, 6 iş üzrə Mənzil Məcəlləsinin, 4 iş üzrə Əmək Məcəlləsinin, 3 iş üzrə Torpaq Məcəlləsinin, 11 iş üzrə "İpoteka haqqında" Qanunun və 19 iş üzrə digər maddi hüquq normalarının tətbiq edilməsində səhvə yol verilmiş, tətbiq edilməli olan qanun və ya digər normativ hüquqi akt tətbiq edilməmiş və ya qanun səhv təfsir edildiyindən məhkəmə aktları ləğv edilmişdir.



# ŞİRVAN APELLYASİYA MƏHKƏMƏSİ

2020-ci ildə Şirvan Apellyasiya Məhkəməsindən Ali Məhkəmənin Mülki Kollegiyasına daxil olmuş işlərdən 647 işə baxılmış, 506 iş (78.2%) üzrə məhkəmə aktı dəyişdirilmədən saxlanılmış, 126 iş (19.7%) üzrə məhkəmə aktı ləğv edilmiş, 10 iş (1.5%) üzrə apellyasiya instansiyası məhkəməsinin qərardad və ya qətnaməsi dəyişdirilmiş, 5 iş (0.6%) üzrə kassasiya icraatına xitam verilmişdir.

2019-cu ildə Şirvan Apellyasiya Məhkəməsindən Ali Məhkəmənin Mülki Kollegiyasına daxil olmuş işlərdən 831 işə baxılmış, 692 iş (83.3%) üzrə məhkəmə aktı dəyişdirilmədən saxlanılmış, 132 iş (15.9%) üzrə məhkəmə aktı ləğv edilmiş, 6 iş (0.7%) üzrə məhkəmə aktı dəyişdirilmiş, 1 iş (0.1%) üzrə kassasiya icraatına xitam verilmişdir.

Göründüyü kimi, 2019-cu illə müqayisədə 2020-ci ildə 184 iş (22.1%) azalmış, məhkəmə aktı dəyişdirilmədən saxlanılmış işlərin sayı 186 iş (26.9%) azalmış, məhkəmə aktı ləğv edilən işlərin sayı 6 iş (4.5%) azalmış, bu illər üzrə baxılmış işlərin cəmi ilə məhkəmə aktı dəyişdirilmədən saxlanılmış işlərin faiz nisbətinin göstəricisi 5.1% azalmış, baxılmış işlərin cəmi ilə məhkəmə aktı ləğv edilən işlərin faiz nisbətinin göstəricisi 3.8% artmışdır.

2019-cu illə müqayisədə 2020-ci ildə məhkəmə aktı dəyişdirilən işlərin sayı 4 iş (66.7%), kassasiya icraatına xitam verilən işlərin sayı 4 iş (400%), bu illər üzrə baxılmış işlərin cəmi ilə məhkəmə aktı dəyişdirilən işlərin faiz nisbətinin göstəricisi 0.8% artmış, baxılmış işlərin cəmi ilə kassasiya icraatına xitam verilən işlərin faiz nisbətinin göstəricisi isə 0.5% azalmışdır.









*Diaqramlardan göründüyü kimi, Şirvan Apellyasiya Məhkəməsinin mülki işlər üzrə qərarlarının ləğv faizində 2018 - 2020-ci illər üzrə artım müşahidə edilir.*

Şirvan Apellyasiya Məhkəməsindən daxil olmuş 2020-ci ildə məhkəmə aktı ləğv edilən 126 işdən 9 iş (7.1%) üzrə yeni qərar qəbul edilmiş, 109 iş (86.5%) üzrə məhkəmə aktı ləğv edilib, yenidən baxılması üçün apellyasiya instansiyası məhkəməsinə göndərilmiş, 7 iş (5.6%) üzrə məhkəmə aktı ləğv edilərək, iş üzrə icraata xitam verilmiş, 1 iş (0.8%) üzrə məhkəmə aktı ləğv edilərək, ərizə baxılmamış saxlanılmışdır.

Şirvan Apellyasiya Məhkəməsindən daxil olmuş 2019-cu ildə məhkəmə aktı ləğv edilən 132 işdən 11 iş (8.3%) üzrə yeni qərar qəbul edilmiş, 117 iş (88.7%) üzrə məhkəmə aktı ləğv edilib, yenidən baxılması üçün apellyasiya instansiyası məhkəməsinə göndərilmiş, 4 iş (3%) üzrə məhkəmə aktı ləğv edilərək, iş üzrə icraata xitam verilmişdir.

Göründüyü kimi, 2019-cu illə müqayisədə 2020-ci ildə məhkəmə aktı ləğv edilib iş üzrə yeni qərar qəbul edilən işlərin sayı 2 iş (18.2%), məhkəmə aktı ləğv edilib, yenidən baxılması üçün apellyasiya instansiyası məhkəməsinə göndərilmiş işlərin sayı 8 iş (6.8%) azalmış, məhkəmə aktı ləğv edilərək, iş üzrə icraata xitam verilən işlərin sayı isə 3 iş (75%) artmışdır. 2019-cu ildə məhkəmə aktı ləğv edilib, iddia (ərizə) baxılmamış saxlanılan iş olmamışdır.






Diaqramdan göründüyü kimi, ləğv edilən qərarların 42.10%-ində prosessual pozuntulara, 10.30%-ində maddi hüquq normalarının pozuntularına, 44.40%-ində isə həm maddi, həm də prosessual pozuntulara yol verilməsi əsası ilə ləğv edilmişdir.

2020-ci ildə Ali Məhkəmənin Mülki Kollegiyasında baxılan Şirvan Apellyasiya Məhkəməsindən daxil olmuş 50 iş üzrə Mülki Məcəllənin, 6 iş üzrə Ailə Məcəlləsinin, 2 iş üzrə Mənzil Məcəlləsinin, 4 iş üzrə Əmək Məcəlləsinin, 4 iş üzrə Torpaq Məcəlləsinin, 3 iş üzrə "İpoteka haqqında" Qanunun və 20 iş üzrə digər maddi hüquq normalarının tətbiq edilməsində səhvə yol verilmiş, tətbiq edilməli olan qanun və ya digər normativ hüquqi akt tətbiq edilməmiş və ya qanun səhv təfsir edildiyindən məhkəmə aktları ləğv edilmişdir.



## ŞƏKİ APELLYASİYA MƏHKƏMƏSİ

2020-ci ildə Şəki Apellyasiya Məhkəməsindən Ali Məhkəmənin Mülki Kollegiyasına daxil olmuş işlərdən 503 işə baxılmış, 381 iş (75.7%) üzrə məhkəmə aktı dəyişdirilmədən saxlanılmış, 113 iş (22.5%) üzrə məhkəmə aktı ləğv edilmiş, 7 iş (1.4%) üzrə apellyasiya instansiyası məhkəməsinin qərardad və ya qətnaməsi dəyişdirilmiş, 2 iş (0.4%) üzrə kassasiya icraatına xitam verilmişdir.

2019-cu ildə Şəki Apellyasiya Məhkəməsindən Ali Məhkəmənin Mülki Kollegiyasına daxil olmuş işlərdən 790 işə baxılmış, 622 iş (78.7%) üzrə məhkəmə aktı dəyişdirilmədən saxlanılmış, 160 iş (20.3%) üzrə məhkəmə aktı ləğv edilmiş, 5 iş (0.6%) üzrə məhkəmə aktı dəyişdirilmiş, 3 iş (0.4%) üzrə kassasiya icraatına xitam verilmişdir.

Göründüyü kimi, 2019-cu illə müqayisədə 2020-ci ildə baxılmış işlərin sayı 287 iş (36.3%) azalmış, məhkəmə aktı dəyişdirilmədən saxlanılmış işlərin sayı 241 iş (38.8%) azalmış, məhkəmə aktı ləğv edilən işlərin sayı 47 iş (29.4%) azalmış, bu illər üzrə baxılmış işlərin cəmi ilə məhkəmə aktı dəyişdirilmədən saxlanılmış işlərin faiz nisbətinin göstəricisi 3% azalmış, baxılmış işlərin cəmi ilə məhkəmə aktı ləğv edilən işlərin faiz nisbətinin göstəricisi 2.2% artmışdır.

2019-cu illə müqayisədə 2020-ci ildə məhkəmə aktı dəyişdirilən işlərin sayı 2 iş (40%) artmış, kassasiya icraatına xitam verilən işlərin sayı 1 iş (33.3%) azalmış, bu illər üzrə baxılmış işlərin cəmi ilə məhkəmə aktı dəyişdirilən işlərin faiz nisbətinin göstəricisi 0.8% artmış, baxılmış işlərin cəmi ilə kassasiya icraatına xitam verilən işlərin faiz nisbətinin göstəricisində isə fərq yaranmamışdır.









*Diaqramlardan göründüyü kimi, Şəki Apellyasiya Məhkəməsinin mülki işlər üzrə qərarlarının ləğv faizində 2018 - 2020-ci illər üzrə artım müşahidə edilir.*

Şəki Apellyasiya Məhkəməsindən daxil olmuş 2020-ci ildə məhkəmə aktı ləğv edilən 113 işdən 9 iş (8%) üzrə yeni qərar qəbul edilmiş, 94 iş (83.2%) üzrə məhkəmə aktı ləğv edilib, yenidən baxılması üçün apellyasiya instansiyası məhkəməsinə göndərilmiş, 10 iş (8.9%) üzrə məhkəmə aktı ləğv edilərək, iş üzrə icraata xitam verilmişdir.

Şəki Apellyasiya Məhkəməsindən daxil olmuş 2019-cu ildə məhkəmə aktı ləğv edilən 160 işdən 8 iş (5%) üzrə yeni qərar qəbul edilmiş, 148 iş (92.5%) üzrə məhkəmə aktı ləğv edilib, yenidən baxılması üçün apellyasiya instansiyası məhkəməsinə göndərilmiş, 3 iş (1.9%) üzrə məhkəmə aktı ləğv edilərək, iş üzrə icraata xitam verilmiş, 1 iş (0.6%) üzrə məhkəmə aktı ləğv edilib, ərizə baxılmamış saxlanılmışdır.

Göründüyü kimi, 2019-cu illə müqayisədə 2020-ci ildə məhkəmə aktı ləğv edilib iş üzrə yeni qərar qəbul edilən işlərin sayı 1 iş (12.5%) artmış, məhkəmə aktı ləğv edilib, yenidən baxılması üçün apellyasiya instansiyası məhkəməsinə göndərilmiş işlərin sayı 54 iş (36.5%) azalmış, məhkəmə aktı ləğv edilərək, iş üzrə icraata xitam verilən işlərin sayı 7 iş (233.3%) artmışdır. 2020-ci ildə məhkəmə aktı ləğv edilib, iddia (ərizə) baxılmamış saxlanılan iş olmamışdır.






Diaqramdan göründüyü kimi, ləğv edilən qərarların 36.30%-ində prosessual pozuntulara, 13.30%-ində maddi hüquq normalarının pozuntularına, 44.20%-ində isə həm maddi, həm də prosessual pozuntulara yol verilməsi əsası ilə ləğv edilmişdir.

2020-ci ildə Ali Məhkəmənin Mülki Kollegiyasında baxılan Şəki Apellyasiya Məhkəməsindən daxil olmuş 47 iş üzrə Mülki Məcəllənin, 5 iş üzrə Ailə Məcəlləsinin, 5 iş üzrə Mənzil Məcəlləsinin, 5 iş üzrə Əmək Məcəlləsinin, 6 iş üzrə “İpoteka haqqında” Qanunun və 24 iş üzrə digər maddi hüquq normalarının tətbiq edilməsində səhvə yol verilmiş, tətbiq edilməli olan qanun və ya digər normativ hüquqi akt tətbiq edilməmiş və ya qanun səhv təfsir edildiyindən məhkəmə aktları ləğv edilmişdir.



## NAXÇIVAN MUXTAR RESPUBLİKASININ ALİ MƏHKƏMƏSİ

2020-ci ildə Naxçıvan MR Ali Məhkəməsindən Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasına daxil olmuş işlərdən 22 işə baxılmış, 17 iş (77.3%) üzrə məhkəmə aktı dəyişdirilmədən saxlanılmış, 5 iş (22.7%) üzrə məhkəmə aktı ləğv edilmişdir.

2019-cu ildə Naxçıvan MR Ali Məhkəməsindən Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasına daxil olmuş işlərdən 42 işə baxılmış, 37 iş (88.1%) üzrə məhkəmə aktı dəyişdirilmədən saxlanılmış, 5 iş (11.9%) üzrə məhkəmə aktı ləğv edilmişdir.

Göründüyü kimi, 2019-cu illə müqayisədə 2020-ci ildə baxılmış işlərin sayı 20 iş (47.6%), məhkəmə aktı dəyişdirilmədən saxlanılmış işlərin sayı isə 20 iş (54.1%) azalmış, məhkəmə aktı ləğv edilən işlərin sayı eyni olduğundan müqayisədə fərq yaranmamışdır.









Diaqramlardan göründüyü kimi, Naxçıvan MR Ali Məhkəməsinin mülki işlər üzrə qərarlarının ləğv faizində 2018 - 2019-cu illər üzrə kəskin azalma müşahidə edilsə də, 2019-2020-ci illər üzrə artım müşahidə edilir.

Naxçıvan MR Ali Məhkəməsindən daxil olmuş 2020-ci ildə məhkəmə aktı ləğv edilən 5 işin hamısı üzrə məhkəmə aktı ləğv edilib, yenidən baxılması üçün apellyasiya instansiyası məhkəməsinə göndərilmişdir. Naxçıvan MR Ali Məhkəməsindən daxil olmuş 2019-cu ildə məhkəmə aktı ləğv edilən 5 işin hamısı üzrə məhkəmə aktı ləğv edilib, yenidən baxılması üçün apellyasiya instansiyası məhkəməsinə göndərilmişdir.

Göründüyü kimi, məhkəmə aktı ləğv edilib iş üzrə məhkəmə aktı ləğv edilib, yenidən baxılması üçün apellyasiya instansiyası məhkəməsinə göndərilmiş işlərin sayı eyni olduğundan, 2019-2020-ci illər üzrə müqayisədə fərq yaranmamışdır.






Diaqramdan göründüyü kimi, ləğv edilən qərarların 80%-ində prosessual pozuntulara, 20%-ində isə həm maddi, həm də prosessual pozuntulara yol verilməsi əsası ilə ləğv edilmişdir.

# ƏLAVƏLƏR

**“Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun bəzi qərarlarının qüvvədən düşmüş hesab edilməsi və bəzi qərarlarına əlavə və dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun**

**Q Ə R A R I**

**“20” fevral 2020-ci il** **№** **Bakı şəhəri**

Azərbaycan Respublikası Prezidentinin “Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında” 03 aprel 2019-cu il tarixli 604 nömrəli Fərmanında bir sıra digər mühüm məsələlərlə yanaşı məhkəmələrin hüquqi məsələlərin həllinə yanaşmasının sabitliyini və normativ-hüquqi aktların tətbiqi ilə bağlı hüquqi mövqeyinin proqnozlaşdırılan olmasını təmin etmək məqsədilə məhkəmə təcrübəsinin öyrənilməsi və ümumiləşdirilməsi sahəsində fəaliyyətin gücləndirilməsi, vahid məhkəmə təcrübəsinin formalaşdırılması üçün ciddi tədbirlərin görülməsi, eləcə də ümumiləşdirmə nəticəsində sistemli xarakter daşıyan nöqsanların aradan qaldırılması üçün müvafiq mexanizmin yaradılması Azərbaycan Respublikasının Ali Məhkəməsinə tövsiyə edilmişdir.

Ötən dövr ərzində məhkəmə-hüquq sistemində islahatlarının yeni mərhələyə qədəm qoyması ilə əlaqədar “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikası Qanununa, Mülki-Prosessual, İnzibati-Prosessual, Cinayət-Prosessual məcəllələrə və digər bir sıra qanunlara əhəmiyyətli əlavə və dəyişikliklərin edilməsini nəzərdə tutan qanunlar qəbul edilmiş, eləcə də ölkə başçısı tərəfindən mühüm fərman və sərəncamlar verilmiş, praktik sahədə xeyli işlər görülmüşdür.

Qanunvericilikdə edilmiş dəyişikliklərlə Ali Məhkəmənin Plenumunun məhkəmə təcrübəsinə dair verdiyi izahla bağlı qərarlarının hüquqi əhəmiyyəti artırılmışdır. Ali Məhkəmənin vahid məhkəmə təcrübəsinin formalaşdırılması ilə bağlı rolunun daha səmərəli həyata keçirilməsini təmin etmək, eləcə də hüquq tətbiqetmə təcrübəsinin inkişaf etdirilməsi məqsədi məhkəmə təcrübəsinə dair Plenum qərarlarının təkmilləşdirilməsini daimi vəzifə kimi qarşıya qoyur. Bundan başqa, ötən dövr ərzində qanunvericilikdə və məhkəmə təcrübəsində baş vermiş dəyişikliklər eyni zamanda Ali Məhkəmənin Plenumunun qəbul etdiyi bir sıra qərarlardakı izahların öz praktiki əhəmiyyətini itirməsinə də səbəb olmuşdur. Ona görə də, Ali Məhkəmənin Plenumunun bəzi qərarları qüvvədən düşmüş hesab olunmalı, bır sıra qərarlara isə müvafiq əlavə və dəyişikliklər edilməlidir.

Qeyd olunanlara əsasən və “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikası Qanununun 79 və 80-ci maddələrini rəhbər tutaraq Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumu

**Q Ə R A R A  A L I R:**

**I.** Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun aşağıdakı qərarları qüvvədən düşmüş hesab edilsin:
1. “Vətəndaşların məhkəmə işləri üzrə ərizə və şikayətlərinə baxılmasının yaxşılaşdırılması tədbirləri haqqında” 12 noyabr 1991-ci il tarixli Qərar;

2. “Respublika məhkəmələri tərəfindən mənzil qanunvericiliyinin tətbiqi təcrübəsi haqqında” 16 oktyabr 1992-ci il tarixli Qərar;

3. “Əmək müqaviləsinin bağlanmasının dəyişdirilməsini və xitamını nizama salan əmək qanunvericiliyinin tətbiqinin məhkəmə təcrübəsi haqqında” 03 may 1993-cü il tarixli Qərar;

4. “Azərbaycan Respublikası hakimlərinin əxlaq kodeksinin təsdiq edilməsinə dair” 12 dekabr 2002-ci i tarixli Qərar;

5. “Torpaq qanunvericiliyinin məhkəmələr tərəfindən tətbiqi təcrübəsinin bəzi məsələləri haqqında” 2003-cü il 14 fevral tarixli 2 saylı Qərar;

6. “Sahibkarlıq fəaliyyəti ilə əlaqədar işlərə baxılarkən məhkəmələr tərəfindən qanunvericiliyin tətbiqi təcrübəsinin bəzi məsələləri haqqında” 2003-cü il 25 mart tarixli 3 saylı Qərar;

7. “Vergi qanunvericiliyinin iqtisad məhkəmələri tərəfindən tətbiqi təcrübəsinin bəzi məsələləri haqqında” 27 noyabr 2003-cü il tarixli Qərar.

**II.** "İcra vərəqəsinin verilməsi və icrası ilə əlaqədar məhkəmə təcrübəsinin bəzi məsələləri barədə" Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunun 2003-cü il 14 yanvar tarixli, 01 nömrəli qərarına aşağıdakı əlavə və dəyişikliklər edilsin:
1.Qərarın preambulasından 8-11-ci abzaslar çıxarılsın;

2. 1-ci bənddə üçüncü abzası çıxarılsın.

3. 1-ci bəndin 5-ci abzasından “Azərbaycan Respublikası MPM-nin 417.0.2-ci maddəsinə əsasən” sözləri çıxarılsın, həmin abzasda “dəyişdirdiyi” sözündən sonra “və ya yeni qərar qəbul etdiyi” sözləri əlavə edilsin;

4. 3-cü bənddə “dəyişdirilməsi” sözündən sonra “, icra üzrə icraatın dayandırılması və borclunun ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması” sözləri əlavə edilsin;

5. 4-cü bənd aşağıdakı redaksiyada verilsin:

“Məhkəmələrə izah edilsin ki, dərhal icra edilməli olan qətnamələrin dairəsi MPM-nin 234.2-ci maddəsində dəqiq müəyyən edilmişdir, həmin maddənin geniş təfsirinə və tətbiqinə yol verilmir.”

**III.** «Hakimə (məhkəmə tərkibinə) etiraz etmə barədə qanunvericiliyin tətbiqi təcrübəsi haqqında» Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 24 noyabr 2005-ci il tarixli, 3 nömrəli qərarına aşağıdakı əlavə və dəyişikliklər edilsin:
1. 1-ci bənddə “mülki” sözündən sonra “, kommersiya, inzibati” sözü əlavə edilsin.

2. 2.1-ci bənddə “MPM-də” sözündən sonra “, İPM-də” sözü əlavə edilsin.

3. 2.3-cü bənd aşağıdakı redaksiyada verilsin:

“Qanunvericilikdə nəzərdə tutulmuş, hakim tərəfindən işə baxılmasına yol verilməyən halların mövcud olması ona etiraz edilməsi və ya hakimin özü-özünə etiraz etməsi üçün əsasdır.”.

4. 2.4-cü bənddə “iştirakçısı” sözündən sonra “, habelə Azərbaycan Respublikası İPM-in 27-ci maddəsində dairəsi müəyyən edilmiş inzibati məhkəmə icraatının iştirakçıları” sözləri əlavə edilsin.

5. 3.1-ci bənddə “işdə iştirak edən şəxslərin” sözlərindən sonra “, inzibati məhkəmə icraatının iştirakçılarının” sözləri əlavə olunsun.

6. 4.1-ci bənddə “işdə iştirak edən şəxs” sözlərindən sonra “, inzibati məhkəmə icraatının iştirakçısı” sözləri əlavə edilsin, “MPM-nin 19-cu” sözlərindən sonra “, İPM-in 18-19-cu” sözləri əlavə edilsin.

7. 5.4-cü bənddən “müşavirə otağında” sözləri çıxarılsın.

8. 8-ci bəndə aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

“İnzibati məhkəmə icraatında qohumluq əlaqələrinin mövcudluğuna istinadla hakimin işin baxılmasında iştirakını istisna edən hallar İPM-nin 18-ci maddəsinə əsasən həll edilməlidir”.

9. 9.1-ci bəndə aşağıdakı məzmunda ikinci və üçüncü cümlələr əlavə edilsin:

“İnzibati məhkəmə icraatında İPM-nin 19.2 və 19.3-cü maddələrinə uyğun olaraq etiraz haqqında vəsatət yazılı formada, məhkəmə iclasının gedişində isə şifahi formada verilə bilər və vəsatətdə etiraza səbəb olan əsaslar göstərilməlidir. Bundan başqa, etiraz haqqında vəsatət, etiraz etmək üçün əsasın proses iştirakçısına məlum olduğu andan dərhal, üzrlü səbəbdən bunun dərhal mümkün olmadığı hallarda isə 3 gün müddətində verilə bilər.”

10. 9.2-ci bəndin ikinci cümləsində “cinayət məhkəmə icraatında şərti maliyyə vahidinin 200 misli, mülki məhkəmə icraatında isə şərti maliyyə vahidinin 100 mislinədək miqdarda cərimə edilə bilər” sözləri “müvafiq qanunvericilikdə nəzərdə tutulmuş məbləğdə cərimə edilə bilər” sözləri ilə əvəz edilsin.

11. 10-cu və 13-cü bəndlər çıxarılsın.

**IV.** "Məhkəmə qətnaməsi haqqında" Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunun 2005-ci il 24 noyabr tarixli, 04 nömrəli qərarına aşağıdakı əlavə və dəyişikliklər edilsin:
1-ci bənddə “iqtisadi mübahisələr” sözləri “kommersiya mübahisələri” sözləri ilə əvəz edilsin;

2. 4-cü bəndin birinci cümləsi aşağıdakı redaksiyada verilsin:

“Azərbaycan Respublikası MPM-in 82.4-cü maddəsinə əsasən məhkəmənin qanuni qüvvəyə minmiş hökmü, habelə cinayət təqibi üzrə qüvvəyə minmiş digər qərarı mülki işə və kommersiya mübahisəsinə baxılarkən məhkəmə üçün hadisənin olub-olmaması və şəxsin həmin hadisəyə aidiyyəti hissəsində məcburidir.”

3. 6.13-cü bənd aşağıdakı redaksiyada verilsin:

“Məhkəmə qətnaməsi MPM-nin 227-ci maddəsində nəzərdə tutulmuş qaydada və müddətdə tərtib edilməli, işdə iştirak edən şəxslərə rəsmi qaydada verilməli və elektron kabinetdə yerləşdirilməlidir.”

4. 11.2-ci bənddə “MPM-nin 235-ci maddəsi” sözləri “MPM-nin 234.2-ci maddəsi” sözləri ilə əvəz edilsin, həmin bəndin ikinci cümləsi çıxarılsın;

5. 11.3-cü bənddə “Azərbaycan Respublikası MPM-nin 235.3-cü maddəsinə müvafiq olaraq hakim qətnamənin icrasının dönüşü məsələsini həll edə bilər” sözləri “məhkəmə bunun üçün zərurət yaranırsa qətnamənin icrasının dönüşü məsələsini həll etməlidir” sözləri ilə əvəz edilsin;

6. Aşağıdakı məzmunda 16.3-cü bənd əlavə edilsin:

“Məhkəmələr həmçinin preyudisiya məsələləri ilə əlaqədar Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun “Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 82.3-cü maddəsinin şərh edilməsinə dair” 23 fevral 2016-cı il tarixli və “Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 142-ci maddəsinin şərh edilməsinə dair” 08 yanvar 2020-ci il tarixli Qərarlarında verilmiş şərhləri nəzərə almalıdırlar.”

**V.** “Ədalət mühakiməsinin həyata keçirilməsi zamanı «İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında» Avropa Konvensiyası müddəalarının və İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedentlərinin tətbiqi haqqında” Ali Məhkəmənin Plenumunun 30 mart 2006-cı il tarixli, 05 saylı Qərarına aşağıdakı əlavə və dəyişikliklər edilsin:
1. 6-cı bənddə 2-ci və 4-cü abzaslarında “mülki” sözündən sonra “və ya inzibati” sözləri əlavə edilsin.

2. 10-cu bənddə “MPM-nin 82-ci” sözlərindən sonra “və İPM-nin 78-ci” sözləri əlavə edilsin.

3. 10-cu bəndin sonuna aşağıdakı məzmunda yeni cümlə əlavə edilsin:

“Məhkəmələr həmçinin preyudisiya məsələləri ilə əlaqədar Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun “Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 82.3-cü maddəsinin şərh edilməsinə dair” 23 fevral 2016-cı il tarixli və “Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 142-ci maddəsinin şərh edilməsinə dair” 08 yanvar 2020-ci il tarixli Qərarlarında verilmiş şərhləri nəzərə almalıdırlar”.

4. 23-cü bənddən “və ya ictimai ehtiyaclar” sözləri çıxarılsın.

**VI.** "Mənəvi zərərin ödənilməsi barədə qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsi haqqında " Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunun 2008-ci il 03 noyabr tarixli, 07 nömrəli qərarına aşağıdakı əlavə və dəyişikliklər edilsin:
1. 12-ci bənddə “mülki işlər üzrə mənəvi zərərin ödənilməsi tələbi əmlak xarakteri daşıdığına görə bu” sözləri “mənəvi zərərin ödənilməsi” sözləri ilə əvəz edilsin.

2. 13-cü bəndin ikinci cümləsi çıxarılsın.

**VII.** "Ərizənin baxılmamış saxlanılması barədə qanunvericiliyin məhkəmələr tərəfindən tətbiq edilməsi təcrübəsi haqqında" Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunun 2011-ci il 31 mart tarixli, 03 nömrəli qərarına aşağıdakı əlavə və dəyişikliklər edilsin:
1. 1.3-cü bənddə “, xüsusi iddia icraatı” sözləri çıxarılsın.

2. 4.1-ci bənddə “Azərbaycan Respublikası MPM-nin 308-ci maddəsinə əsasən məhkəmə hüquqi əhəmiyyəti olan faktları o zaman müəyyən edə bilər ki, ərizəçi həmin faktları təsdiq edən lazımı sənədləri başqa qaydada ala bilməsin, yaxud itirilmiş sənədlərin bərpası mümkün olmasın;” sözləri çıxarılsın, “iqtisadi mübahisələr” sözləri “kommersiya mübahisələri” sözləri ilə “iqtisad” sözü ”kommersiya” sözü ilə əvəz edilsin.

3. 5.1-ci bəndə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

“Nəzərə alınmalıdır ki, Azərbaycan Respublikası MPM-nin 49-cu maddəsinə əsasən yetkinlik yaşına çatmayanların, habelə məhdud fəaliyyət qabiliyyətli və ya fəaliyyət qabiliyyəti olmayan hesab edilən şəxslərin hüquq, azadlıq və qanunla qorunan mənafelərini məhkəmədə onların qanuni nümayəndələri qoruyurlar.”.

4. 6.2-ci bəndin birinci cümləsində “etibarnamə” sözündən sonra “, nümayəndənin işdə iştirak edən fiziki şəxsin yaxın qohumu, hüquqi şəxsin işçisi olduğunu təsdiq edən sənəd və ya vəkil orderi” sözləri əlavə edilsin.

5. 6.3-cü bənddə “müdafiə etməsi” sözləri, “yazılı müdafiə etməsi halında” sözləri ilə, “etmir” sözü “edir” sözü ilə əvəz edilsin.

6. 7.2-ci bənd çıxarılsın.

7. 9.1-ci bəndin üçüncü cümləsində “protokoluna imza etməklə” sözləri “protokolunda bu barədə müvafiq qeydiyyat aparılmaqla” sözləri ilə əvəz edilsin.

8. 10-cu bənddə “qəbulundan imtina olunması” sözləri “geri qaytarılması” sözləri ilə əvəz edilsin.

9. 11-ci bənddə “əsaslarla” sözü çıxarılsın.

10. 12-ci bənd çıxarılsın.

11. 14-cü bənd aşağıdakı redaksiyada verilsin:

“Ərizə baxılmamış saxlanıldıqda məhkəmə baxışı qərardad qəbul edilməklə başa çatdırılır. Ərizənin qətnamə ilə baxılmamış saxlanılması yol verilməzdir. Qərardadda yalnız mövcud vəziyyətdə işə mahiyyəti üzrə baxmağın mümkün olmaması qanunun konkret normalarına istinad edilməklə əsaslandırılmalıdır.”.

12. 18-ci bənd çıxarılsın.

13. 19-cu bənd aşağıdakı redaksiyada verilsin:

“Dövlət rüsumu haqqında” Azərbaycan Respublikası Qanununun 9.1.17-ci maddəsinə müvafiq olaraq məhkəmə qərardadlarından verilən şikayətlər üzrə işdə iştirak edən şəxslər dövlət rüsumu ödəməkdən azad olunduqları üçün həmin şəxslərin iddianın baxılmamış saxlanılması barədə qərardadlardan verdiyi şikayətlər üçün dövlət rüsumu tələb oluna və şikayətlər bu əsasla geri qaytarıla bilməz.”.

14. 20-ci bənd müvafiq olaraq 21-ci bənd hesab edilsin, aşağıdakı məzmunda yeni 20-ci bənd əlavə edilsin:

“Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 391-ci maddəsinə əsasən bu Məcəllənin 19-cu və 20-ci fəsillərində göstərilən əsaslar olduqda işin icraatına xitam verilməklə və ya ərizə baxılmamış saxlanılmaqla məhkəmənin qətnaməsi ləğv edilməlidir. Apellyasiya instansiyası məhkəməsində işlərə baxılarkən nəzərə alınmalıdır ki, MPM-nin 259-cu maddəsində sadalanan bütün əsaslar həmin mərhələdə qətnamənin ləğvi və ərizənin baxılmamış saxlanılması üçün əsas ola bilməz. Apelyasiya icraatı zamanı birinci instansiya məhkəməsinin elə qətnamələri MPM-nin 259-cu maddədə sadalanan əsaslarla ləğv oluna bilər ki, həmin maddədə sadalanan halların mövcudluğuna baxmayaraq birinci instansiya məhkəməsi tərəfindən iddia ərizəsi icraata qəbul edilməklə və ya işə baxılmaqla prosessual hüquq normalarının pozuntusuna yol verilmiş olsun. Bu baxımdan apellyasiya icraatı qaydasında işə baxan məhkəmələr tərəfindən yalnız MPM-nin 259.0.1-259.0.4-cü və 259.0.8.-259.0.10-cu maddələrində sadalanan əsaslar olduqda məhkəmənin qətnaməsi tam və ya qismən ləğv edilməklə ərizə tam və ya qismən baxılmamış saxlanıla bilər. MPM-nin 259-cu maddəsində sadalanan digər əsaslar apellyasiya instansiyası məhkəməsi tərəfindən ərizəni baxılmamış saxlamaqla məhkəmənin qətnaməsini ləğv etmək üçün əsas ola bilməz.”

**VIII.** “Valideynlərin və digər qohumların uşaqla ünsiyyətdə olmaq hüquqları ilə əlaqədar qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsi haqqında” Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 2011-ci il 28 oktyabr, 6/2011 nömrəli qərarına aşağıdakı dəyişikliklər edilsin:

1. 1-ci və 4-cü bəndlərin birinci abzaslarına və 10-cu bəndin ikinci abzasına aşağıdakı məzmunda yeni cümlə əlavə edilsin:

“Məhkəmə qərar qəbul edərkən həmçinin 7 yaşına çatmış uşağın fikrini öyrənə və nəzərə ala bilər.”

2. 2-ci bəndə aşağıdakı məzmunda yeni abzas əlavə edilsin:

“Məhkəmələrə izah edilsin ki, uşaqla ünsiyyətə dair iddialara baxılıb yekun qərarın qəbul edilməsinədək keçən müddət ərzində, ünsiyyətə dair iddia tələbini irəli sürmüş valideynlə uşaq arasında münasibətlərin gələcəkdə qətnamənin icrasını mümkünsüz edəcək dərəcədə soyumasının, ünsiyyət bağlarının kəsilməsinin qarşısını almaq məqsədilə Mülki Prosessual Məcəllənin 158.1.2 və 158.1.3-cü maddəsi ilə nəzərdə tutulmuş iddianın təmin tədbirinin görülməsi mümkündür. Mübahisənin həllinədək müvəqqəti olaraq cavabdehə iddiaçının uşaqla məhkəmənin müəyyən etdiyi minimal həddə ünsiyyətinə edilən maneələrin qadağan edilməsindən ibarət iddianın təmin tədbirinin görülməsinə dair vəsatətə baxılarkən əsasən ünsiyyət hüququnun təmin edilməsini tələb edən valideynə aid və uşağın mənafeyinə zidd ola biləcək açıq-aydın halların olub-olmamasına qiymət verilməlidir”.

3. 4-cü bəndin sonuncu cümləsi aşağıdakı redaksiyada verilsin:

”Uşaqla ünsiyyət hüququnun həyata keçirilməsi barədə baba, nənə, qardaş, bacı və digər qohumların müraciətinə müvafiq icra hakimiyyəti orqanı (yerli icra hakimiyyətlərinin qəyyumluq və himayə orqanları) tərəfindən qanunla müəyyən edilmiş müddətdə baxılmaması və ya bu müraciətin təmin edilməsindən imtina edilməsi həmin orqanın qərarından, hərəkət və ya hərəkətsizliyindən şikayət verilməsinə deyil, uşaqla ünsiyyət qaydasının müəyyən edilməsi məqsədilə məhkəməyə iddia vermək üçün əsasdır”.

**IX.** “İnzibati və mülki hüquq münasibətlərindən irəli gələn mübahisələrin məhkəmə aidiyyətinə dair” Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 2015-ci il 10 aprel tarixli, 04 nömrəli Qərarına aşağıdakı əlavə və dəyişikliklər edilsin:

1. Qərarın preambulasının 9-cu abzasında “inzibati-iqtisadi məhkəmələr və inzibati-iqtisadi kollegiyalar” sözləri “inzibati məhkəmələr və inzibati kollegiyalar” sözləri ilə əvəz edilsin.

2. 1-ci bənddə “XV, XVI, XVII və XVIII” rəqəmləri “XV-XIX” rəqəmləri ilə əvəz edilsin.

3. 7.2-ci bənd aşağıdakı redaksiyada verilsin:

“7.2. Nəzərə alınmalıdır ki, «İnzibati icraat haqqında» Qanunun 3.2, 3.2.1 və 3.2.2-ci maddələrinə əsasən həmin Qanun inzibati orqanların cinayət təqibi üzrə cinayət-prosessual fəaliyyətinə və inzibati xətalara dair işlər üzrə fəaliyyətinə şamil olunmur. Ona görə də, inzibati xətalara dair iş üzrə icraatın aparılması ilə bağlı, eləcə də təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri ilə vurulmuş zərərin əvəzinin ödənilməsi tələbinə dair iddialara mülki məhkəmə icraatı qaydasında baxılır. Çünki, sözügedən hallarda tərəflər arasında ziyan vurulması ilə nəticələnmiş münasibətlər inzibati icraatın həyata keçirilməsi nəticəsində yaranmır. Belə işlərdə məhkəmə aidiyyətini müəyyən edən həlledici meyar güman olunan ziyanın məhz hansı hüquq münasibətləri çərçivəsində vurulmasıdır. Azərbaycan Respublikası İnzibati Prosessual Məcəlləsinin 1.1-ci maddəsinə əsasən isə inzibati məhkəmə icraatı qaydasında inzibati hüquq münasibətlərindən yaranan mübahisələrə baxıla bilər. Müvafiq olaraq maraqlı şəxslərin vurulmuş ziyana görə inzibati orqanlara qarşı qaldırdığı iddialara o halda inzibati məhkəmə icraatı qaydasında baxıla bilər ki, həmin ziyan məhz inzibati orqanların inzibati hüquq sahəsindəki fəaliyyəti nəticəsində vurulmuş olsun.”

4. 11 və 12-ci bəndlərdən “məhkəmə icraatı qaydasında inzibati-iqtisadi” sözləri çıxarılsın.

5. 13-cü bənddə “inzibati-iqtisadi məhkəmələr” sözləri “kommersiya məhkəmələri” sözləri ilə əvəz edilsin.

6. 14-cü bənddə “inzibati icraat” sözləri “inzibati məhkəmə icraatı” sözləri ilə əvəz edilsin, “inzibati-iqtisadi məhkəmələr tərəfindən” sözləri çıxarılsın.

7. 15.2-ci bənddə “inzibati-iqtisadi” sözü “inzibati” sözü ilə əvəz edilsin.

8. 15.4-cü bəndin ikinci cümləsində “ümumi məhkəməyə” sözləri “ümumi və ya kommersiya məhkəməsinə” sözləri ilə, “ümumi məhkəmədə” sözləri hər iki halda “ümumi və ya kommersiya məhkəməsində” sözləri ilə və “ümumi məhkəmənin” sözləri “ümumi və ya kommersiya məhkəməsinin” sözləri ilə əvəz edilsin.

9. 16.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

“16.1. İnzibati mübahisələr hüquqi təbiətinə görə mülki mübahisələrdən (kommersiya mübahisələrindən) fərqli olduğundan mülki tələblər (kommersiya mübahisələri üzrə tələblər) inzibati məhkəmə icraatı qaydasında qaldırılan iddialarla, inzibati iddia tələbləri isə mülki məhkəmə icraatı qaydasında qaldırılan iddialarla birləşdirilə və onlara birgə baxıla bilməz.”

10. 16.2-ci bənddə “İnzibati-iqtisadi” sözləri “İnzibati” sözü ilə əvəz edilsin, “inzibati məhkəmə icraatı qaydasında” sözləri çıxarılsın.

11. 16.3-cü bənddə “Ümumi və ya inzibati-iqtisadi məhkəməyə mülki məhkəmə icraatı qaydasında” sözləri “Ümumi məhkəməyə və ya kommersiya məhkəməsinə” sözləri ilə əvəz edilsin.

12. 16.4-cü bənddə “iqtisadi” sözü “kommersiya mübahisələri üzrə” sözləri ilə əvəz edilsin.

13. 17-ci bənd aşağıdakı redaksiyada verilsin:

“Daşınmaz əmlakın dövlət reyestrində aparılmış qeydiyyatla bağlı münasibətlərdən irəli gələn mübahisələrin məhkəmə aidiyyəti müəyyən edilərkən ilk növbədə nəzərə alınmalıdır ki, daşınmaz əmlakın dövlət reyestrindən çıxarış reyestrdəki qeydiyyatı əks etdirən sənəddir və inzibati akt kimi qiymətləndirilə bilməz. Bu qəbildən olan mübahisələrin məhkəmə aidiyyəti məsələsinin həlli qaldırılmış iddianın hüquqi təbiətindən, onun mülki-hüquqi və ya inzibati-hüquqi tələb olmasından asılıdır. İddia tələblərinin hüquqi təbiətini müəyyənləşdirərkən isə mübahisənin mahiyyəti təhlil edilərək daşınmaz əmlakın dövlət reyestrində qeydiyyatın aparılmasına əsas təşkil etmiş hüquq müəyyənedici sənədlərə və (və ya) inzibati orqanın hərəkətlərinə qiymət verilməlidir.

Əgər qeydiyyat mülki-hüquqi əqdlərin (alqı-satqı, bağışlama, vərəsəlik şəhadətnaməsi və s.) əsasında aparılmışdırsa, bu halda, daşınmaz əmlakın dövlət reyestrindəki qeydiyyat onun aparılmasına əsas təşkil etmiş hüquq müəyyənedici sənədlər mübahisələndirilməklə həyata keçirilməli və belə işlərə mülki məhkəmə icraatı qaydasında baxılmalıdır.

Reyestrdəki qeydiyyat inzibati akt əsasında aparıldıqda və iddianın faktiki əsasını bu aktın qanunsuzluğu təşkil etdikdə iddiaçı əvvəlcə özünün hüquqi marağına uyğun olaraq müvafiq aktı qəbul etmiş orqana qarşı iddia qaldırmaqla inzibati məhkəmə icraatı qaydasında həmin inzibati aktı mübahisələndirməlidir. Belə iddia uğurlu olarsa, daha sonra qeydiyyatı aparmış orqana müraciət edilməklə reyestrdəki qeydin dəyişdirilməsi tələb oluna və müvafiq olaraq qeydiyyat orqanının hərəkətindən narazı qalınan halda isə inzibati məhkəməyə müraciət edilə bilər.

Konkret mübahisənin hallarından asılı olaraq bəzən inzibati aktın və mülki-hüquqi əqdin hər ikisi reyestrdəki qeydiyyatın aparılması üçün birgə hüquqi əsas təşkil edirlər. Bu kimi hallarda iddiaçının hüquqi marağı və iddia tələblərinin hüquqi təbiəti nəzərə alınmaqla inzibati aktın mübahisələndirilməsinə inzibati məhkəmə icraatı qaydasında, mülki-hüquqi əqdin mübahisələndirilməsinə isə mülki məhkəmə icraatı qaydasında baxılmalıdır.

Reyestrdəki qeydiyyat hər hansı mülki-hüquqi əqdə və ya inzibati akta əsaslanmadan aparılmışdırsa, bu hal, inzibati orqanın ümumi (publik) hüquqdan irəli gələn səlahiyyətlərinin icrası çərçivəsində həyata keçirilən faktiki xarakterli fəaliyyətin nəticəsidir. Bu qaydada aparılmış qeydiyyatın mübahisələndirilməsi zamanı inzibati orqanın publik hüquqdan irəli gələn vəzifə və səlahiyyətlərinin qanuni və əsaslı olaraq həyata keçirilib-keçirilmədiyinə qiymət verilməli olduğu üçün həmin mübahisələrə inzibati məhkəmə icraatı qaydasında baxılmalıdır.

Daşınmaz əmlakın dövlət reyestrində aparılmış qeydiyyat mülki-hüquqi əqdə və yaxud inzibati akta əsaslansa da, iddiaçı həmin hüquq müəyyənedici sənədləri deyil, onlardan irəli gələn qeydiyyatın özünün inzibati orqan tərəfindən düzgün aparılmadığını mübahisələndirdiyi hallarda da işə inzibati məhkəmələrdə baxılmalıdır.”.

**X.** “Nikahın pozulması, boşanmadan sonra yetkinlik yaşına çatmayan uşaqların valideynlərdən hansının yanında qalması və uşaqlar üçün valideynlərdən aliment tutulması tələbinə dair işlərə baxılarkən qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsi haqqında” Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 2016-cı il 28 mart tarixli, 8-2/2016 №-li qərarına aşağıdakı əlavə və dəyişikliklər edilsin:

1. 7.1-ci bəndə aşağıdakı məzmunda yeni abzas əlavə edilsin:

“Məhkəmələrə izah edilsin ki, yetkinlik yaşına çatmayan uşağın valideynlərdən hansının yanında qalması ilə bağlı iddialara baxılıb yekun qərarın qəbul edilməsinədək keçən müddət ərzində, yanında uşaq olmayan tərəfin vəsatətinə əsasən onunla uşaq arasında münasibətlərin gələcəkdə qətnamənin icrasını mümkünsüz edəcək dərəcədə soyumasının, ünsiyyət bağlarının kəsilməsinin qarşısını almaq məqsədilə Mülki Prosessual Məcəllənin 158.1.2 və 158.1.3-cü maddəsi ilə nəzərdə tutulmuş iddianın təmin tədbirinin görülməsi mümkündür. Mübahisənin həllinədək müvəqqəti olaraq uşaq yanında olan tərəfə digər tərəfin uşağı (uşaqları) ilə məhkəmənin müəyyən etdiyi minimal həddə ünsiyyətinə edilən maneələrin qadağan

edilməsindən ibarət iddianın təmin tədbirinin görülməsinə dair vəsatətə baxılarkən uşağı tələb edən valideynə aid və uşağın mənafeyinə zidd ola biləcək açıq-aydın halların olub-olmamasına qiymət verilməlidir".

2. 7.4-cü bəndin sonuna aşağıdakı məzmunda cümlə əlavə edilsin:
"Məhkəmə qərar qəbul edərkən həmçinin 7 yaşına çatmış uşağın fikrini öyrənə və nəzərə ala bilər."

3. 7.5-ci bənd aşağıdakı məzmunda verilsin:

"Məhkəmələrə izah edilsin ki, valideynlərdən hansının yanında qalması ilə bağlı uşağın fikri dinlənilərkən Azərbaycan Respublikası Ailə Məcəlləsinin 52-ci maddəsində qeyd edilən "10 yaşına çatmış uşağın fikri mütləq nəzərə alınmalıdır" yaxud "qərar qəbul edilərkən 7 yaşına çatmış uşağın fikri öyrənilə və nəzərə alına bilər" ifadələri uşağın bir valideyndən digərinə alınıb verilməsi üçün yeganə əsas deyildir. Məhkəmə hər bir halda uşağın fikrini digər hallarla yanaşı məcmu halında qiymətləndirməli və uşağın üstün maraqlarını nəzərə almaqla mübahisəni həll etməlidir."

4. 7.6-cı bəndə aşağıdakı məzmunda yeni abzas əlavə edilsin:

"Məhkəmələrə izah edilsin ki, məhkəmə qətnaməsinin nəticə hissəsində uşağın kimin yanında qalması məsələsi həll edilərkən uşağın həmin valideynin yanında olmadığı hallarda onun digər valideyndən alınıb yanında qalması müəyyən edilən valideynə verilməsi məsələsini həll etməklə yanaşı, həmin valideynlə uşaq arasında uzun müddət ərzində ünsiyyətin olmaması nəticəsində yaranan və buna görə də, gələcəkdə qətnamənin icrasını çətinləşdirə biləcək dərəcədə bağlılığın zəyiflədiyini, münasibətlərin soyuduğunu müəyyən etdiyi halda uşağın mənafeyi baxımından Mülki Prosessual Məcəllənin 220.6-cı maddəsinə uyğun olaraq qətnamənin nəticə hissəsində icra qaydası və müddətini göstərməlidir".

5. 8.11-ci bəndə aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

"Məhkəmələrə izah edilsin ki, aliment tutulması barədə qətnamələr Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 234.2.1-ci maddəsinin tələbinə müvafiq olaraq dərhal icra edilməlidir. Yuxarı instansiya məhkəmələri tərəfindən aliment tutulması barədə qətnamənin ləğv olunması, aliment tələbinin rədd edilməsi, yaxud tutulan alimentin miqdarının azaldılması həmin dəyişikliyi nəzərdə tutan məhkəmə aktı qanuni qüvvəyə minənədək ödənilmiş aliment məbləğinin qaytarılmasına əsas vermir (səbəb olmur)."

6. 11.3-cü bəndin üçüncü cümləsindən "nikahın pozulması barədə qətnamənin ləğvindən sonra" sözləri çıxarılsın.

**Ali Məhkəmənin sədri** **Ramiz Rzayev**

**“İşlərin ümumi və yaxud kommersiya məhkəmələrinə aidiyyətinin müəyyən edilməsi, məhkəmə aidiyyəti ilə bağlı mübahisələrə və məhkəmələr arasında yaranan fikir ayrılıqlarına baxılmasının xüsusiyyətlərinə dair”**

**Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun**

**Q Ə R A R I**

**N 10**

**18 Sentyabr 2020-ci il** **Bakı şəhəri**

Azərbaycan Respublikasında həyata keçirilən məhkəmə-hüquq islahatları çərçivəsində son dövrdə qanunvericiliyə məhkəmə icraatının aparılması qaydalarının daha da təkmilləşdirilməsinə yönəlmiş geniş həcmli əlavə və dəyişikliklər edilmişdir.

Qanunvericiliyə edilmiş dəyişikliklər əsasında inzibati-iqtisadi məhkəmələrin əvəzinə ayrıca inzibati və kommersiya məhkəmələri yaradılmış, habelə işlərin məhkəmə aidiyyətinin, yəni ümumi və yaxud kommersiya məhkəmələrinə aidiyyətinin müəyyən edilməsi, məhkəmə aidiyyəti ilə bağlı mübahisələrə, eləcə də məhkəmələr arasında yaranan fikir ayrılıqlarına baxılmasının yeni qaydaları müəyyən edilmişdir.

Bu sahədə hüquqi müəyyənliyin təmin edilməsi məqsədi ilə vahid məhkəmə təcrübəsinin yaradılmasının vacibliyi məhkəmələrə Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinə (*bundan sonra - “MPM”*) 2019-cu il 9 iyul tarixli 1633-VQD nömrəli Qanunla (*bundan sonra 2019-cu il 9 iyul tarixli Qanun*) edilmiş dəyişikliklərin tətbiqi üzrə əsaslandırılmış izahın verilməsi zərurətini üzə çıxarmışdır.

Hüquqi müəyyənlik prinsipi hüququn aliliyinin əsas xüsusiyyətlərindən biri kimi çıxış edir. Hər bir qanunun və ya onun hər hansı bir müddəasının hüquqi müəyyənlik prinsipinə cavab verməsi olduqca vacibdir. Bunun təmin edilməsi üçün həm hüquq normaları birmənalı və aydın olmalıdır, həm də xüsusilə məhkəmə təcrübəsində vahid qaydada tətbiq edilməlidir. Bu isə öz növbəsində hər kəsə onun hüquq və azadlıqlarının müdafiə olunacağına, hüquq tətbiq edənin hərəkətlərinin isə proqnozlaşdırıla bilən olacağına əminlik verməlidir (*Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumunun N.Əbilovun şikayəti üzrə 2008-ci il 13 iyun tarixli; “Azərbaycan Respublikası Mülki Məcəlləsinin 373.2 və 384.0.4-cü maddələrinin şərh edilməsinə dair” 2013-cü il 3 iyun tarixli; “Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında” Azərbaycan Respublikası Qanununun bəzi müddəalarının şərh olunmasına dair” 2014-cü il 28 yanvar tarixli qərarları*).

Bununla belə, məhkəmə təcrübəsinin inkişafı özlüyündə ədalət mühakiməsinin lazımi qaydada həyata keçirilməsinə zidd deyildir. Belə ki, dinamik və təkmilləşdirici yanaşmanın olmaması istənilən islahatların və irəliləyişlərin qarşısını alır (*İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin Nejdet Şahin və Perihan Şahin Türkiyəyə qarşı işi üzrə qərarı [BP], § 58; Atanasovski Keçmiş Yuqoslaviya Respublikası Makedoniyaya qarşı işi üzrə qərarı, § 38*).

Bu baxımdan, hazırkı vəziyyətdə məhkəmə aidiyyətinin müəyyən edilməsi ilə bağlı hüquqi müəyyənliyin təmin edilməsi məqsədi ilə MPM-in 2020-ci il yanvarın 1-dən qüvvəyə minmiş dəyişikliklərinin tətbiqi üzrə ilkin hüquqi yanaşmanın təqdim edilməsi, gələcəkdə məhkəmə təcrübəsinin inkişafı kontekstində bu yanaşmaya və qaydalara müəyyən korreksiyaların edilməsi imkanını aradan qaldırmır.

Beləliklə, işlərin ümumi və ya kommersiya məhkəmələrinə aidiyyətinin müəyyən edilməsi, məhkəmə aidiyyəti ilə bağlı mübahisələrə və məhkəmələr arasında yaranan fikir ayrılıqlarına baxılmasının xüsusiyyətlərinə dair vahid məhkəmə təcrübəsinin formalaşdırılması məqsədilə Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumu Azərbaycan Respublikası Konstitusiyasının 131-ci maddəsini və "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 79 və 80-ci maddələrini rəhbər tutaraq

*QƏRARA ALIR :*

*Məhkəmə aidiyyəti ilə bağli mübahisələrə və məhkəmələr arasında yaranan fikir ayrılıqlarına baxılmasının yeni qaydasına dair*

1. Məhkəmələrin nəzərinə çatdırılır ki, MPM-ə edilmiş əlavə və dəyişikliklərə əsasən 2020-ci il yanvarın 1-dən məhkəmə aidiyyəti ilə bağlı birinci instansiya məhkəmələrinin qərardadlarından verilmiş şikayətlərə, habelə məhkəmələr arasında yaranan fikir ayrılıqlarına apelyasiya instansiyası məhkəməsi deyil, birbaşa olaraq kassasiya instansiyası məhkəməsi tərəfindən baxılması nəzərdə tutulmuşdur.

2. Qanunvericiliyin yeni müddəalarının tətbiqi ilə bağlı məhkəmələrə ilk növbədə izah edilir ki, aidiyyətlə bağlı mübahisələrə baxılmasının yeni qaydası yalnız mülki və kommersiya mübahisələri üzrə məhkəmə aidiyyətinə dair fikir ayrılıqlarının olduğu hallara aiddir. Buna görə, mülki və ya kommersiya məhkəməsinə verilmiş iddia ərizəsinin inzibati məhkəməyə aid olması qənaətinə gəldikdə, məhkəmələr həmin işləri aidiyyətin müəyyənləşdirilməsi üçün Ali Məhkəməyə göndərməməli, MPM-in 153.2.1-ci və ya 261.0.1-ci maddələrində nəzərdə tutulmuş qərardadlardan birini qəbul etməlidirlər. Eyni ilə, inzibati məhkəmələr də onların icraatına daxil olmuş işlər üzrə işin mülki və ya kommersiya məhkəməsinə aid olduğu nəticəsinə gəldikdə, yenə də işləri aidiyyətin müəyyənləşdirilməsi üçün Ali Məhkəməyə göndərməməli, iddianı mümkün saymamalıdırlar. Bu qaydalar apelyasiya icraatına da şamil edilir. (*Ali Məhkəmənin Plenumunun "İnzibati və mülki hüquq münasibətlərindən irəli gələn mübahisələrin məhkəmə aidiyyətinə dair" 2015-ci il 10 aprel tarixli Qərarı*)

3. Məhkəmələr nəzərə almalıdır ki, iddia ərizəsinin məhkəmə aidiyyəti üzrə (*ümumi və ya kommersiya məhkəməsi üzrə*) düzgün verilməməsi əsası, ərazi aidiyyətindən fərqli olaraq iddia ərizəsinin geri qaytarılması üçün əsas ola bilməz. Belə ki, MPM-in 152.1.3-cü maddəsinə əsasən əgər iş məhz ərazi aidiyyəti üzrə həmin məhkəmədə baxılmalı deyildirsə, hakim iddia ərizəsini və ona əlavə edilmiş sənədləri geri qaytarır. Həmin Məcəllənin 32.4-cü maddəsinə əsasən aidiyyət haqqında məsələ qalxdıqda, hakim işin aidiyyəti üzrə göndərilməsi barədə əsaslandırılmış qərardad çıxarır. Qeyd olunan prosessual hüquq normalarının tələblərinə uyğun olaraq məhkəmələrə izah edilir ki, iddia ərizəsinin məhkəmə aidiyyəti üzrə düzgün verilməməsi zamanı iddia ərizəsinin geri qaytarılması deyil, onun məhkəmə aidiyyəti üzrə göndərilməsi barədə qərardad qəbul edilməlidir. Bununla yanaşı nəzərə alınmalıdır ki, MPM-in 32.7-ci maddəsi ilə bir məhkəmədən digərinə göndərilmiş işin onun göndərildiyi məhkəmə tərəfindən baxılmağa qəbul edilməli olması ilə bağlı müddəa, məhkəmənin həmin işin aidiyyəti üzrə göndərilməsinə dair qərardadla razılaşmayaraq, işin göndərən məhkəməyə geri qaytarılmasını qadağan edən norma kimi qəbul edilməlidir. Yəni, bu norma heç də aidiyyəti üzrə göndərilmiş işin onu qəbul edən məhkəmə tərəfindən iddia ərizəsinin MPM-in 149, 150-ci maddələrinin tələblərinə cavab verməməsi əsası ilə MPM-in 152-ci maddəsinə istinad etməklə tərəfə geri qaytarılmasının qarşısını almır. Məhkəmələr tərəfindən işlərin aidiyyəti üzrə göndərilməsi zamanı MPM-in 10-1-ci maddəsinin tələblərinə riayət edilməsi baxımından kağız daşıyıcılarında olan iş materiallarının elektron sənədə çevrilməsi ilə bağlı "Elektron məhkəmə" informasiya sisteminin imkanlarından istifadənin zəruriliyi də diqqətdən kənarda qalmamalıdır.

4. Apelyasiya instansiyası məhkəmələrinə izah edilir ki, iddia ərizələrinin məhz məhkəmə aidiyyəti əsası ilə geri qaytarılmasına dair qərardadlardan verilən şikayətlərə baxılması zamanı da qeyd edilən məsələlər nəzərə alınmalıdır. Belə ki, MPM-lə iddia ərizəsinin geri qaytarılmasına dair qərardadlardan kassasiya şikayətinin verilməsi nəzərdə tutulmadığından, iddia ərizəsinin məhkəmə aidiyyəti əsası ilə geri qaytarılmasına dair birinci instansiya məhkəməsinin qərardadlarının apelyasiya instansiyası məhkəməsində dəyişdirilmədən saxlanılması faktiki

olaraq məhkəmə aidiyyəti ilə bağlı məsələlər üzrə yekun qərarın apelyasiya instansiyası məhkəməsi tərəfindən verilməsi ilə nəticələnmiş olacaqdır. Bu isə qanunvericiliyə edilmiş son dəyişikliklərin məqsədinə zidd olmaqla yanaşı, məhkəmə aidiyyəti ilə bağlı məhkəmə təcrübəsinin vahidliyinin təmin olunmasına da maneə yaradacaqdır. Odur ki, belə hallarda apelyasiya instansiyası məhkəməsi şikayətə baxarkən məhkəmə aidiyyətinin müəyyənləşdirilməsi məsələsinə mahiyyəti üzrə toxunmadan, sadəcə bu əsasla iddia ərizəsinin geri qaytarılmasının qanunsuzluğuna istinad etməklə həmin qərardadın ləğv edilərək birinci instansiya məhkəməsinə qaytarılması barədə qərardad qəbul etməlidir.

5. Məhkəmələr nəzərə almalıdır ki, MPM-in 31.2-ci maddəsinin tələbləri baxımından 2020-ci il yanvarın 1-dək qüvvədə olan prosessual qanunvericiliyə əsasən aidiyyət qaydalarına riayət edilməklə məhkəmənin öz icraatına qəbul etdiyi iş istinad edilən dəyişikliklərin qüvvəyə minməsindən sonra məhkəmə aidiyyətini dəyişmiş olsa da, mahiyyəti üzrə həmin, yəni işi icraatına qəbul etmiş məhkəmədə həll edilməlidir. Eyni qayda, apelyasiya və kassasiya instansiyası məhkəmələrinə də aiddir.

6. Digər tərəfdən, məhkəmə aidiyyəti ilə bağlı mübahisələrə dair birinci instansiya məhkəmələrinin qərardadlarının 2020-ci ilin 1 yanvar tarixindən əvvəlki dövrdə qəbul edilməsindən asılı olmayaraq, onlardan verilmiş şikayətlərə MPM–in 3.1-ci maddəsinin tələblərindən irəli gələrək apelyasiya instansiyası məhkəmələrinin hazırda baxma səlahiyyəti olmadığından şikayətlər aidiyyəti üzrə baxılması üçün Ali Məhkəməyə göndərilməlidir.

7. Məhkəmələr arasında fikir ayrılığına dair qərardadlardan fərqli olaraq, məhkəmə aidiyyəti ilə bağlı apelyasiya instansiyası məhkəmələri tərəfindən 2020-ci il yanvarın 1-dək qəbul edilmiş qərardadlardan həmin qərarın qəbulu zamanı kassasiya şikayətinin verilməsi imkanı nəzərdə tutulduğundan, tərəflərin kassasiya şikayəti vermə hüququ məhdudlaşdırılmamalıdır.

8. Nəzərə alınmalıdır ki, MPM-in 418.4.9 və 418.5-ci maddələri ilə işin məhkəmə aidiyyəti üzrə düzgün baxılmaması kobud prosessual pozuntu kimi apelyasiya instansiyası məhkəməsinin qətnaməsinin ləğvi əsası kimi nəzərdə tutulduğundan, apelyasiya instansiyası məhkəməsi tərəfindən işə baxılarkən MPM-in 384 və 387-ci maddəsində məhkəmə aidiyyətinin pozulması əsası ilə qətnamənin ləğv edilərək aidiyyəti üzrə göndərilməsi ilə bağlı konkret müddəaların nəzərdə tutulmadığına istinad etməklə, məhkəmə aidiyyəti məsələsinə qiymətin verilməməsi mümkünsüzdür. Bununla bağlı apelyasiya instansiyası məhkəmələrinə izah edilir ki, işin birinci instansiyası məhkəməsi tərəfindən məhkəmə aidiyyəti üzrə səhvən baxıldığının müəyyən edildiyi halda, apelyasiya məhkəməsi MPM-in 387.2.1-ci maddəsinə istinad etməklə qətnaməni ləğv etməli və MPM-in 365-ci maddəsindən çıxış etməklə MPM-in 32.4-cü maddəsini rəhbər tutub işin məhkəmə aidiyyəti üzrə göndərilməsi barədə qərardad qəbul etməlidir. MPM-in 32.5-ci maddəsinə əsasən həmin qərardadlardan şikayətin verilməsi nəzərdə tutulduğundan, apelyasiya instansiyası məhkəmələri işin məhkəmə aidiyyəti üzrə göndərilməsi barədə qəbul etdikləri qərardadlardan tərəflərin kassasiya instansiyası məhkəməsinə şikayəti vermək hüquqlarının olduğunu da nəzərdən qaçırmamalıdırlar.

9. Birinci instansiya məhkəmələri nəzərə almalıdırlar ki, MPM-ə əlavə edilmiş 403-1-ci maddənin tətbiqi kassasiya instansiyası ilə yanaşı birinci instansiya məhkəmələrinin üzərinə də müəyyən prosessual vəzifələr qoymaqla, onlar tərəfindən məhkəmə aidiyyəti ilə bağlı yaranan fikir ayrılıqlarına dair qərardadların qəbulundan fərqli olaraq, işin məhkəmə aidiyyəti üzrə göndərilməsi və ya məhkəmə aidiyyəti haqqında ərizənin rədd edilməsi barədə qərardadlardan işdə iştirak edən şəxslər tərəfindən şikayətin verilməsi zamanı bir sıra zəruri prosessual hərəkətlərin yerinə yetirilməsini tələb edir. Belə ki, ilk növbədə qeyd edilməlidir ki, bu qərardadlardan verilən şikayətlərin birinci instansiya məhkəməsinə verilməsinə baxmayaraq, şikayətlər hər bir halda vəkil tərəfindən tərtib edilməli, habelə müvafiq order əlavə edilməlidir. Məhkəmə aidiyyətinə dair mübahisələr üzrə bu şikayətlər vəkil tərəfindən tərtib edilmədikdə və ona vəkilin orderi əlavə olunmadıqda, MPM-in 403-1.4-cü maddəsindən çıxış edilməklə, həmin Məcəllənin apelyasiya instansiyası məhkəməsinin səlahiyyətlərinə aid edilmiş 408.1.3-cü maddəsinin müddəaları tətbiq edilib, şikayət geri qaytarılmalıdır. Nəzərə alınmalıdır ki, MPM-in 403-1.4-cü maddəsinə əsasən şikayətin birinci instansiya məhkəməsi tərəfindən qaytarılmasına dair bu qərardaddan kassasiya instansiyası məhkəməsinə şikayət verilə bilər. Bununla yanaşı, digər qərardadlardan fərqli olaraq qanunvericiliyə edilən sözügedən dəyişikliklərə uyğun olaraq birinci instansiya məhkəməsi MPM-in 269-cu maddəsi əsasında şikayətə baxarkən öz

qərardadının ləğv edilməməsi barədə qənaətə gəldikdən sonrakı 7 gün ərzində MPM-in 403-1.5-ci maddəsində nəzərdə tutulmuş qaydada şikayəti xəbərnaməli bildirişlə işdə iştirak edən şəxslərə göndərməli, habelə hər birinə şikayəti aldıqdan sonra 5 gün müddətində kassasiya instansiyası məhkəməsinə etiraz və yaxud izahatlarını göndərmək hüquqlarını izah etməlidir. Yalnız bundan sonra iş kassasiya instansiyası məhkəməsinə göndərilməlidir ki, sonuncunun işə məhkəmə iclası keçirmədən qısaldılmış 10 günlük müddətdə baxma imkanı olsun.

*İşlərin məhkəmə aidiyyətinin (ümumi və yaxud kommersiya) müəyyən edilməsinin yeni qaydasına dair*

10. 2019-cu il 9 iyul tarixli Qanunla edilmiş dəyişikliklərlə məhkəmə aidiyyətinin müəyyən edilməsi meyarları dəyişməz qalsa da, onların tətbiqi mexanizmində köklü dəyişiklik edilmişdir. Belə ki, MPM-in 24.2-ci maddəsinin qüvvədən düşmüş redaksiyasında tərəflərin subyekt tərkibi, mübahisənin predmeti və hüquq münasibətlərinin xarakterindən ibarət sadalanan üç qiymətləndirici meyarın hər biri müstəqil şəkildə mübahisənin ümumi məhkəməyə və ya inzibati-iqtisadi məhkəməyə aidiyyətini müəyyən etməyə imkan verirdisə, yeni redaksiyada məhkəmə aidiyyətinin müəyyən edilməsində bu meyarların hər üçünün qarşılıqlı bağlılığı tələb olunur.

11. O da nəzərə alınmalıdır ki, MPM-in 1-ci maddəsinin qeyd hissəsində kommersiya mübahisələrinə anlayış verilərkən onların məhz sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə əlaqədar olan mübahisələrə aid olduğu göstərilmişdir. MPM-in istinad olunan 1-ci, habelə 25 və 26-cı maddələrinin tələblərinə uyğun olaraq mübahisə üzrə tərəflərin hüquq münasibətlərinin xarakterinin sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə bağlı olması işin ümumi və ya kommersiya məhkəmələrinə aidiyyətinin müəyyənləşdirilməsi baxımından həlledici meyardır. Göründüyü kimi, qanunverici məhkəmə aidiyyətini yeni qaydada müəyyən edən zaman, həm mübahisənin subyekt tərkibinin, həm də predmetinin məhz sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə bağlı olmasını tələb edir. Həmin meyar üzrə qiymətləndirmənin həyata keçirilməsi zamanı mübahisənin predmetini təşkil edən tələbin tərəflərdən yalnız birinin sahibkarlıq fəaliyyətindən irəli gəlməsi və ya onun sahibkarlıq fəaliyyəti ilə bağlı olması işin kommersiya məhkəməsində baxılması üçün yetərli deyildir. Belə ki, məsələn: verilmiş istehlak krediti üzrə fərdi sahibkar statusuna malik olan fiziki şəxsə qarşı borc tələbinə dair iddianın bankın sahibkarlıq fəaliyyətinin həyata keçirilməsindən irəli gəlməsinə, habelə mübahisənin hər iki tərəfinin sahibkarlıq subyekti olmasına baxmayaraq, kreditin sahibkarlıq fəaliyyətində istifadə üçün deyil, şəxsi istehlak məqsədləri ilə verilməsi səbəbindən işə ümumi məhkəmədə baxılmalıdır.

12. Bu baxımdan məhkəmə aidiyyətinin müəyyən edilməsi zamanı işin kommersiya məhkəməsində baxılması üçün hüquq münasibətlərinin xarakterinə qiymət verilərkən əsas tələb (*və yaxud birlikdə baxılması mümkün olan əsas tələblərdən ən azı biri*) üzrə mübahisənin tərəflərdən yalnız birinin deyil, ən azı iki qarşı tərəfin ayrı-ayrılıqda və ya birgə həyata keçirilən sahibkarlıq fəaliyyətindən, yaxud da tərəflərin (*sahibkarlıq subyekti olub-olmamasından asılı olmayaraq*) bağlı olduqları bir sahibkarlıq subyektinin özünün fəaliyyətinin həyata keçirilməsindən irəli gəlməli olması nəzərə alınmalıdır.

13. Əsas tələb (*yaxud birlikdə baxılması mümkün olan əsas tələblərdən ən azı biri*) üzrə mübahisənin ən azı iki qarşı tərəfin birgə həyata keçirilən sahibkarlıq fəaliyyətindən irəli gəldiyi mübahisələrə müqavilə münasibətlərindən yaranan tələblər aiddir. İş üzrə ən azı iki qarşı tərəfin sahibkarlıq fəaliyyətinin birgə və yaxud ayrı-ayrılıqda həyata keçirdiyi zaman yarana bilən mübahisələrə əşya-hüquqi münasibətlərdən irəli gələn istifadə, sahiblik və mülkiyyət hüquqlarının müdafiəsi, habelə deliktdən irəli gələn tələblər aiddir. Tərəflərin bağlı olduqları bir sahibkarlıq subyektinin özünün fəaliyyətinin həyata keçirilməsindən meydana gələn mübahisələrə isə kommersiya hüquqi şəxsi ilə bağlı korporativ mübahisələr aiddir.

14. Əşya hüquqi münasibətlərdən və deliktdən irəli gələn mübahisələrdə mütləq şərt kimi mübahisənin hər iki tərəfin məhz sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə bağlı olmasına diqqət yetirilməlidir. Hər iki tərəfin kommersiya hüquqi şəxs olduğu halda, onların sahibkarlıq fəaliyyətindən kənar fəaliyyətinin olmaması baxımından bu kateqoriya işlərə kommersiya məhkəmələrində baxılması şübhə doğurmasa da, digər subyektlərə münasibətdə mübahisənin hər iki tərəfin məhz sahibkarlıq fəaliyyətinin həyata keçirilməsindən irəli gəlməsinə diqqət

yetirilməlidir. Belə ki, tərəflərdən birinin fərdi sahibkar statusuna malik olmasından asılı olmayaraq mübahisə həmin şəxsin sahibklarlıq fəaliyyətindən irəli gəlmirsə, işə aidiyyəti üzrə ümumi məhkəmədə baxılacaqdır.

15. Məhkəmələrə həmçinin izah edilir ki, kommersiya mübahisələrinin subyektlərinin, habelə baxış predmetinin mümkün dairəsi də məhz mübahisə üzrə hüquq münasibətinin xarakterinin sahibkarlıq fəaliyyəti ilə bağlı olmasına dair bu Qərarın 13-cü bəndində əks olunmuş yanaşma baxımından müəyyənləşdirilməlidir.

16. İşin məhkəmə aidiyyətinin müəyyən edilməsi zamanı kommersiya məhkəməsində baxılmalı olan işlərin mümkün subyekt tərkibi və predmeti ilə bağlı qiymətləndirmənin həyata keçirilməsi zamanı MPM-in 30-cu maddəsinin tələblərinin nəzərə alınmalı olması da diqqətdən kənarda qalmamalıdır. Belə ki, həmin maddənin əvvəlki redaksiyasından fərqli olaraq hazırda qüvvədə olan redaksiyaya əsasən bir-biri ilə əlaqədar olan bir neçə tələbin birləşdirilməsi zamanı onlardan bir qisminin ümumi məhkəməyə, digərlərinin isə kommersiya məhkəməsinə aid olduğu halda, tələblərə artıq ümumi deyil, kommersiya məhkəməsində baxılmalıdır.

17. MPM-in 30-cu maddəsinin tətbiqi ilə bağlı əlavə olaraq nəzərə alınmalıdır ki, maddənin məzmunu baxımından məhkəmənin baxış predmetini ilk növbədə məhz bir-biri ilə əlaqədar olan və birlikdə baxılması mümkün olan (*MPM-in 149.3, 152.1.7-ci maddələrinin tələblərinə uyğun olaraq*) tələblər təşkil etməlidir, digər tərəfdən isə həmin tələblərdən ən azı biri və yaxud əsas tələb üzrə mübahisənin hüquq münasibətinin xarakteri sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə bağlı olmalıdır *(bu Qərarın 13-cü bəndi).* Tələblər bu şərtlərə cavab verdiyi halda subyekt tərkibinin istənilən kompozisiyası mümkündür.

18. Məhkəmələrə izah edilir ki, işlərin məhkəmə aidiyyətinin müəyyənləşdirilməsi zamanı konkret kateqoriya işlər üzrə mübahisə predmetinə əsasən müstəsna məhkəmə aidiyyətinin müəyyən edilməsinin mümkünlüyü də nəzərə alınmalıdır. Belə ki, bir sıra kateqoriya işlərin xüsusiyyətləri hüquq münasibətinin xarakteri baxımından bu və ya digər formada işin ümumi və yaxud kommersiya məhkəməsinə aidiyyətini birbaşa olaraq müəyyənləşdirməyə imkan verir. Məsələn, ailə-nikah, mənzil, əmək, vərəsəlik, renta, istehlak münasibətlərindən, habelə müəllifliklə bağlı qeyri-əmlak hüquqlarının həyata keçirilməsi, oyun və mərclərin keçirilməsindən irəli gələn mübahisələrin xüsusiyyəti tərəflərin sahibkarlıq fəaliyyətindən irəli gəlməsini istisna etməklə, onları müstəsna qaydada ümumi məhkəməyə aid edir.

19. Eyni zamanda məhkəmələrə izah edilir ki, MPM-in 26.2-ci maddəsində kommersiya məhkəmələrinin müstəsna baxış predmetinə aid edilmiş həmin Məcəllənin 40-5-ci fəslində nəzərdə tutulmuş “Bankın öhdəliklərinin könüllü restrukturizasiyası haqqında” işlərin xarakteri özü-özlüyündə yalnız sahibkarlıq fəaliyyətinin həyata keçirilməsindən irəli gəlməsini diktə edir. Eyni yanaşma müflisləşmə, sənaye mülkiyyəti obyektlərinin (*əmtəə nişanı, çoğrafi göstərici, ixtira, faydalı model və sənaye nümunəsi*) istifadəsi və müdafiəsi ilə bağlı (*şəxsi hüquqların müdafiəsinə dair tələblər istisna olmaqla*), habelə kommersiya hüquqi şəxsləri ilə bağlı korporativ tələblər üzrə işlərə də aid edilməlidir.

20. Məhkəmə aidiyyətinin müəyyənləşdirilməsində tərəflərin subyekt tərkibi ilə bağlı meyarın qiymətləndirilməsi baxımından məhkəmələr nəzərə almalıdır ki, mübahisənin xarakteri ilə bağlı müəyyən halların *(bu Qərarın 13-cü bəndi)* mövcudluğu şərti ilə kommersiya məhkəmələrinin baxış predmetini təşkil edən işlər üzrə tərəflər qismində mülki hüquqi mübahisənin bütün mümkün subyektləri (*hüquqi şəxslər, fərdi sahibkarlar, dövlət orqanları, bələdiyyələr, fərdi sahibkar statusuna malik olmayan fiziki şəxslər*) iştirak edə bilərlər.

21. Subyekt tərkibi ilə bağlı meyarın qiymətləndirilməsi zamanı məhkəmələr əlavə olaraq nəzərə almalıdır ki, qeyri-hökumət təşkilatlarının və publik hüquqi şəxslərin fəaliyyətini tənzimləyən qanunlarla (*“Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında” və “Publik hüquqi şəxslər haqqında” Qanunlar*) onların ikili, yəni həm qeyri-sahibkarlıq, həm də sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq imkanları nəzərdə tutulmuşdur. Məhz bu fərqləndirici xüsusiyyət mübahisələrin məhkəmə aidiyyətinin müəyyən edilməsi zamanı qeyri-hökumət təşkilatları və publik hüquqi şəxslərə münasibətdə fərqli yanaşmanın sərgilənməsini tələb edir.

22. Bu baxımdan məhkəmələrə izah edilir ki, qeyri-kommersiya qurumlarının, publik hüquqi şəxslərin və fərdi sahibkarların kommersiya mübahisəsinin subyekti olması imkanı mübahisənin onların qanunla qadağan edilməyən sahibkarlıq fəaliyyətindən irəli gəldiyi hallarda mümkün olacaqdır. Onların sahibkarlıq fəaliyyətindən irəli gəlməyən mülki mübahisələrinin kommersiya məhkəmələrinin baxış predmetini təşkil etməsinə isə, yalnız MPM-in 30-cu maddəsinə əsasən digər kommersiya mübahisəsi ilə birgə baxıldığı halda yol verilməlidir.

23. Mübahisə tərəflərindən birinin dövlət orqanı və bələdiyyə olduğu halla bağlı isə məhkəmələrə izah edilməlidir ki, qanunvericiliyin tələbinə görə dövlət və bələdiyyə orqanları hakimiyyət səlahiyyətlərini icra etməkdən başqa mülki dövriyyənin bərabər hüquqlu subyektləri qismində malların (*işlərin və xidmətlərin və s.*) dövlət və bələdiyyə vəsaiti hesabına alınmasında, sahibkarlıq subyektləri ilə mülki hüquqi əqdlərin bağlanmasında, həmçinin investisiya fəaliyyətinin həyata keçirilməsində eyni ilə digər hüquqi şəxslər kimi iştirak edə bilərlər. Bu zaman sahibkarlıq subyektləri tərəfindən dövlət orqanlarına və bələdiyyələrə qarşı və ya sonuncuların sahibkarlıq subyektlərinə qarşı tələbləri mahiyyət etibarı ilə iqtisadi məzmunlu olduğundan, habelə bu tələblərdən irəli gələn mübahisələrə tətbiq edilən maddi hüquq normalarının sahibkarlıq fəaliyyətini tənzimləyən normalara aid olduğundan həmin mübahisələrə kommersiya məhkəmələrində baxılmalıdır. Həmçinin, nəzərə alınmalıdır ki, Mülki Prosessual Məcəllənin 26.2-ci maddəsində müvafiq icra hakimiyyəti orqanının (*Vergilər Nazirliyinin*) vergi ödəyicisi olan fiziki şəxslərin və ya hüquqi şəxslərin icra orqanının rəhbərinin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması barədə ərizələrinə kommersiya işi kimi kommersiya məhkəmələrində baxılmasının mümkünlüyü nəzərdə tutulmaqla dövlət orqanının kommersiya mübahisəsində tərəf olması istisna edilməmişdir.

24. Nəzərə alınmalıdır ki, fiziki şəxslərdən fərqli olaraq sahibkarlıq subyektlərinin, qeyri-hökumət təşkilatlarının, publik hüquqi şəxslərin, bələdiyyələrin və dövlət orqanlarının su, qaz və elektrik enerjisindən istifadə etmələri (*fərdi sahibkar statusuna malik olan fiziki şəxsin şəxsi istehlakı istisna olmaqla*) onların şəxsi tələbatını ödəmək məqsədi daşımadığından "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun 1-ci maddəsinə əsasən bu münasibətlər istehlak münasibətləri hesab edilmir. İstinad edilənlər, habelə hüquq münasibətlərinin xarakteri ilə bağlı bu Qərarın 13-cü bəndində qeyd edilənlər baxımından təbii inhisar subyektləri olmaqla fəaliyyətləri həm də sahibkarlıq elementlərini ehtiva edən "Azəriqaz" İB, "Azərişıq" ASC, "Azərsu" ASC kimi enerji və su təchizatı qurumları ilə digər sahibkarlıq subyektləri arasında öz fəaliyyətlərinin həyata keçirilməsi üçün qaz, su və elektrik enerjisindən istifadədən irəli gələn mübahisələrə kommersiya məhkəmələrində baxılmalıdır. Bu mübahisələrin bir tərəfi qismində qeyri-hökumət təşkilatları və publik hüquqi şəxslər çıxış etdikdə isə, həmin işin kommersiya məhkəməsində baxılması imkanı sərfiyyatın onların sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə bağlı fəaliyyətindən irəli gəldiyi halla məhdudlaşmış olacaqdır. Dövlət orqanları və bələdiyyələrlə adıçəkilən enerji və su təchizatı qurumları arasında olan mübahisələrə isə bu Qərarın 23-cü bəndinə əsasən kommersiya məhkəmələrində baxılacaqdır.

25. Qeyri-kommersiya qurumlarının, publik hüquqi şəxslərin və fərdi sahibkarların əşya hüquqi münasibətlərdən və deliktdən irəli gələn tələblərinə kommersiya məhkəməsində baxılması üçün mübahisənin onların qanunla qadağan edilməyən sahibkarlıq fəaliyyətindən irəli gəldiyi hallarda mümkün olacaqdır. Mübahisə qeyri-kommersiya qurumlarının, publik hüquqi şəxslərin və fərdi sahibkarların sahibkarlıq fəaliyyətlərindən irəli gəlmədikdə isə, işə kommersiya məhkəmələrində baxılması imkanı, yalnız MPM-in 30-cu maddəsinə əsasən digər kommersiya mübahisəsi ilə birgə baxıldığı halda mümkün olacaqdır. Beləliklə, məhkəmələr nəzərə almalıdır ki, əşya-hüquqi münasibətlərdən irəli gələn istifadə, sahiblik və mülkiyyət hüquqlarının müdafiəsi üzrə tələblərdə və ya deliktdən irəli gələn tələblərdə mübahisənin məhz hər iki tərəfin birgə və yaxud ayrı-ayrılıqda həyata keçirdikləri sahibkarlıq fəaliyyətinin həyata keçirilməsindən irəli gəlməsi məhkəmə aidiyyətini müəyyən edən həlledici meyardır. Dövlət və bələdiyyə orqanlarına münasibətdə isə qeyd edilməlidir ki, müqavilədən irəli gələn öhdəlik hüquqi münasibətlərdən fərqli olaraq, əşya hüquqi münasibətlərdən və deliktdən irəli gələn mübahisələrdə onların sahibkarlıq subyektləri ilə olan münasibətlərinin xarakteri mahiyyət etibarilə iqtisadi xarakterli olmadığından bu mübahisələrə ümumi məhkəmələrdə baxılmalıdır.

26. Nəzərə alınmalıdır ki, fərdi sahibkar statusuna malik olmayan fiziki şəxslərin iştirakı ilə olan işlərin kommersiya məhkəməsində baxılması imkanını qanunvericilik iki halla məhdudlaşdırmışdır. Birinci hala, mübahisənin xarakterinin sahibkarlıq subyektinin özünün fəaliyyətinin həyata keçirilməsindən irəli gəldiyi (*bu Qərarın 13-cü bəndi*) kommersiya hüquqi şəxslərinin korporativ mübahisələrini, ikinci hala isə MPM-in 30-cu maddəsinin tələbləri baxımından onların iştirakı ilə olan mülki mübahisənin digər kommersiya mübahisəsi ilə birgə baxıldığı halı aid etmək olar.

27. Fərdi sahibkar statusuna malik olmayan fiziki şəxslərin iştirakı ilə olan, onların qanunsuz sahibkarlıq fəaliyyətindən irəli gələn mübahisələrin məhkəmə aidiyyətinin müəyyən edilməsi ilə bağlı məhkəmələr nəzərə almalıdır ki, Azərbaycan Respublikası Mülki Məcəlləsinin 13-cü maddəsinə əsasən həyata keçirilən fəaliyyətin sahibkarlıq fəaliyyəti hesab olunması üçün üç şərtin mövcudluğu tələb edilir: müstəqillik, mənfəət götürmək məqsədi və fəaliyyətin iqtisadi xarakterli olması. Mülki Məcəllənin istinad edilən maddəsində qanunilik şərti nəzərdə tutulmasa da, “Sahibkarlıq fəaliyyəti haqqında” Qanunun 10-cu maddəsi sahibkarlıq fəaliyyətinin dövlət qeydiyyatının məcburiliyini müəyyən edir. Eyni zamanda, həmin Qanunun 12.1-ci maddəsinə əsasən mülkiyyət və təşkilati-hüquqi formalarından asılı olmayaraq öz fəaliyyətini Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun surətdə həyata keçirən sahibkarın hüquqlarının və qanuni mənafelərinin müdafiəsini dövlət təmin edir. Digər tərəfdən, qanunsuz sahibkarlıq fəaliyyətinin həyata keçirilməsinə görə İnzibati Xətalar Məcəlləsinin 398-ci maddəsi ilə inzibati, habelə Cinayət Məcəlləsinin 192-ci maddəsi ilə cinayət məsuliyyəti nəzərdə tutulmuşdur. Odur ki, fərdi sahibkar statusuna malik olmayan fiziki şəxslərin həyata keçirdiyi qanunsuz sahibkarlıq fəaliyyəti aidiyyəti üzrə inzibati və cinayət məsuliyyəti yaratdığından, habelə həmin fəaliyyətdən irəli gələn hüquq və qanuni mənafelərin müdafiəsinə dövlət təminat vermədiyindən bu fəaliyyətindən irəli gələn mübahisələrə onların sahibkarlıq xarakteri nəzərə alınmadan, ümumi məhkəmələrdə baxılmalıdır. Beləliklə, fərdi sahibkar statusuna malik olmayan fiziki şəxslərin iştirakı ilə olan mübahisələrin kommersiya məhkəmələrində baxılması imkanı yalnız bu Qərarın 26-cı bəndində qeyd edilən iki halla məhdudlaşacaqdır.

***Ramiz Rzayev***

***Azərbaycan Respublikası***
***Ali Məhkəməsinin sədri***

**“İşlərin ümumi və yaxud kommersiya məhkəmələrinə aidiyyətinin müəyyən edilməsi, məhkəmə aidiyyəti ilə bağlı mübahisələrə və məhkəmələr arasında yaranan fikir ayrılıqlarına baxılmasının xüsusiyyətlərinə dair” Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 18 sentyabr 2020-ci il tarixli Qərarının icrası üzrə məhkəmə aidiyyətinin müəyyən edilməsi meyarları və onların xüsusiyyətlərini, habelə bu meyarlar üzrə yoxlanılma ardıcıllığını əks etdirən CƏDVƏL**

## SUBYEKT

**Kommersiya mübahisəsinin subyektlərinin dairəsi**
*(müəyyən şərtlər çərçivəsində mülki hüquq münasibətlərinin bütün tərəfləri kommersiya mübahisəsinin subyekti ola bilərlər):*

- Kommersiya hüquqi şəxsləri (*xarici kommersiya hüquqi şəxslərin nümayəndəlik və filialları daxil olmaqla*)
- Fərdi sahibkarlar;
- Qeyri-kommersiya hüquqi şəxsləri (*sahibkarlıq fəaliyyətinin həyata keçirilməsindən irəli gələn tələblər üzrə);*
- Publik hüquqi şəxslər *(sahibkarlıq fəaliyyətinin həyata keçirilməsindən irəli gələn tələblər üzrə);*
- Dövlət orqanları və bələdiyyələr *(mülki dövriyyənin bərabər hüquqlu subyektləri qismində malların (*işlərin və xidmətlərin və s.*) dövlət və bələdiyyə vəsaiti hesabına alınmasında sahibkarlıq subyektləri iləbağlanmış mülki hüquqi əqdlərdən irəli gələn tələblər üzrə***);**
- Fərdi sahibkar statusuna malik olmayan fiziki şəxslər (*əcnəbilər və vətəndaşlığı olmayan şəxslər daxil olmaqla, kommersiya hüquqi şəxsləri ilə bağlı korporativ tələblər, investisiya qiymətli kağızları (istiqraz və səhm), veksel, depozitar qəbz, investisiya fond payı üzrə çağırış icraatı işlərində*).
- ***Qeyd:*** *kommersiya məhkəməsində baxılmalı olan işlərin mümkün subyekt tərkibi ilə bağlı qiymətləndirmənin həyata keçirilməsi zamanı Mülki Prosessual Məcəllənin 30-cu maddəsinin tələbləri nəzərə alınmalıdır.*

## PREDMET

**Mübahisə tərəflərinin subyekt tərkibindən asılı olmayaraq aşağıdakı tələblərə ümumi məhkəmələr baxır:**

- Ailə-nikah münasibətlərindən irəli gələn tələblər;
- Əmək münasibətlərindən irəli gələn tələblər;
- Mənzil münasibətlərindən irəli gələn tələblər;
- Xüsusi icraat qaydasında baxılan işlər (*MPM-in 26.2-ci maddəsində qeyd edilənlər istisna olunmaqla*)
- Renta münasibətlərindən irəli gələn tələblər;
- Vərəsəlik münasibətlərindən irəli gələn tələblər;
- İstehlak münasibətlərindən irəli gələn tələblər;
- Müəlliflik̇lə bağlı qeyri-əmlak hüquqlarının həyata keçirilməsi üzrə tələblər (*müəllif, addan, şöhrətdən istifadə etmək hüququ*);
- Xüsusi notarius və vəkillərin peşə fəaliyyətinin həyata keçirilməsindən irəli gələn publik hüquqa aid olmayan mübahisələr;
- Oyun və mərclərin keçirilməsindən irəli gələn tələblər;

- Xüsusi mükafatlandırmanın açıq elan edilməsi, müsabiqənin keçirilməsindən irəli gələn tələblər;
- Qeyri-kommersiya hüquqi şəxsləri ilə bağlı korporativ tələblər (*təsisçiləri, üzvləri, idarəetmə orqanının nümayəndələri arasında və onlarla hüquqi şəxs arasında olan hüquqi şəxsin fəaliyyətindən irəli gələn tələblər*);

**Mübahisə tərəflərinin subyekt tərkibindən asılı olmayaraq aşağıdakı tələblərə kommersiya məhkəmələri baxır:**

- Müflisləşmə ilə bağlı *(banklar istisna olmaqla)* tələblər;
- Kommersiya hüquqi şəxsləri ilə bağlı korporativ tələblər (*təsisçiləri, üzvləri, iştirakçıları, idarəetmə orqanının nümayəndələri arasında və onlarla hüquqi şəxs arasında olan hüquqi şəxsin fəaliyyətindən irəli gələn tələblər*);
- Bankın öhdəliklərinin könüllü restrukturizasiyası ilə bağlı işlər;
- Sənaye mülkiyyəti obyektlərinin (*əmtəə nişanı, çoğrafi göstərici, ixtira, faydalı model və sənaye nümunəsi*) istifadəsi və müdafiəsi ilə bağlı tələblər (*şəxsi hüquqların müdafiəsinə dair tələblər istisna olmaqla*)
- ***Qeyd:*** *kommersiya məhkəməsində baxılmalı olan işlərin mümkün predmeit ilə bağlı qiymətləndirmənin həyata keçirilməsi zamanı Mülki Prosessual Məcəllənin 30-cu maddəsinin tələbləri nəzərə alınmalıdır.*

## HÜQUQ MÜNASİBƏTİNİN XARAKTERİ

### Mübahisə üzrə hüquq münasibətinin xarakterinə dair tələblər:

İddia icraatı qaydasında baxılan işlərdə mübahisə tərəflərinin subyekt tərkibindən asılı olmayaraq tələb (*və ya birlikdə baxılması mümkün olan əsas tələblərdən ən azı biri*) üzrə mübahisənin tərəflərdən yalnız birinin deyil, ən azı iki qarşı tərəfin ayrı-ayrılıqda və ya birgə həyata keçirilən sahibkarlıq fəaliyyətindən, yaxud tərəflərin onların bağlı olduqları bir sahibkarlıq subyektinin özünün fəaliyyətinin həyata keçirilməsindən irəli gəldikdə işə kommersiya məhkəmələri baxır.

İş üzrə tərəflərin subyekt tərkibindən asılı olmayaraq xüsusi icraat qaydasında baxılan işlərdən aşağıdakılarına sahibkarlıq fəaliyyətinin həyata keçirilməsindən irəli gəldiyi halda kommersiya məhkəmələri baxır:
- Vergi ödəyicisi olan fiziki şəxslərin və ya hüquqi şəxslərin icra orqanının rəhbərinin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması haqqında işlər üzrə tələblər;
- İtirilmiş sənədlər üzrə onları təqdim edən şəxsin hüquqlarının bərpa edilməsi (çağırış icraatı) tələbləri.

**İSTİSNA:**
Hüquq münasibətlərinin xarakterinin sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə əlaqədar olmasına baxmayaraq, fərdi sahibkar statusuna malik olmayan, yəni vergi uçotuna alınmamış fiziki şəxsin qanunsuz sahibkarlıq fəaliyyətindən irəli gələn mübahisələrə, iddianın həmin şəxs və yaxud ona qarşı (*iddianı qaldıran digər şəxsin fəaliyyəti qanuni olsa da*) qaldırılmasından asılı olmayaraq ümumi məhkəmələr baxır.


ƏSAS TƏLƏBLƏRDƏN BİRİ AŞAĞIDAKILARDAN BİRİNƏ AİDDİRMİ ?
- Müflisləşmə ilə bağlı tələblər;
- Kommersiya hüquqi şəxsləri ilə bağlı korporativ tələblər;
- Bankın öhdəliklərinin könüllü restrukturizasiyası ilə bağlı.
- Sənaye mülkiyyəti obyektlərinin (əmtəə nişanı, çoğrafi göstərici, ixtira, faydalı model və sənaye nümunəsi) istifadəsi və müdafiəsi ilə bağlı tələblər (şəxsi hüquqların müdafiəsinə dair tələblər istisna olmaqla)
ƏSAS TƏLƏBLƏRDƏN BİRİ AŞAĞIDAKILARDAN BİRİNƏ AİDDİRMİ ?
- Ailə-nikah münasibətlərindən irəli gələn tələblər;
- Əmək münasibətlərindən irəli gələn tələblər;
- Mənzil münasibətlərindən irəli gələn tələblər;
- Xüsusi icraat qaydasında baxılan işlər (MPM 26.2-ci maddəsində qeyd edilənlər istisna olmaqla)
- Renta münasibətlərindən irəli gələn tələblər;
- Vərəsəlik münasibətlərindən irəli gələn tələblər;
- İstehlak münasibətlərindən irəli gələn tələblər;
- Müəlliflikla bağlı qeyri-əmlak hüquqlarının həyata keçirilməsi ilə üzrə tələblər (müəllif, ad, şöhrətdən istifadə etmək hüququ);
- Xüsusi notarius və vəkillərin peşəfəaliyyətinin həyata keçirilməsindən irəli gələn mübahisələr;
- Oyun və mərclərin keçirilməsindən irəli gələn tələblər;
- Xüsusi mükafatlandırmanın açıq elan edilməsi, müsabiqədən irəli gələn tələblər;
- Qeyri-kommersiya hüquqi şəxsləri ilə bağlı korporativ tələblər.
BƏLİ
BƏLİ
YOX
YOX
TƏLƏB, YAXUD BİRİ-BİRİ İLƏ BAĞLI OLAN ƏSAS TƏLƏBLƏRDƏN ƏN AZI BİRİ, ƏN AZI İKİ QARŞI TƏRƏFİN AYRI-AYRILIQDA VƏ YAXUD BİRGƏ HƏYATA KEÇİRİLƏN SAHİBKARLIQ FƏALİYYƏTİNDƏN İRƏLİ GƏLİR ?
(Dövlət və bələdiyyə orqanına münasibətdə mübahisənin mahiyyəti iqtisadi xarakterlidirmi?)
YOX
BƏLİ
İDDİA İCRAATI QAYDASINDA BAXILAN İŞDİR ?
BƏLİ
YOX
TƏLƏB FƏRDİ SAHİBKAR STATUSUNA MALİK OLMAYAN FİZİKİ ŞƏXSİN QANUNSUZ SAHİBKARLIQ FƏALİYYƏTİNDƏN İRƏLİ GƏLİR ?
BƏLİ
YOX
XÜSUSİ İCRAAT QAYDASINDA BAXILAN AŞAĞIDAKI TƏLƏBLƏRDƏN BİRİNƏ AİDDİR ?
- Vergi ödəyicisi olan fiziki şəxslərin və ya hüquqi şəxslərin icra orqanının rəhbərinin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması üzrə tələblər;
- İtirilmiş sənədlər üzrə onları təqdim edən şəxsin hüquqlarının bərpa edilməsi (çağırış icraatı) tələbləri.
YOX
BƏLİ
KOMMERSİYA MƏHKƏMƏSİ
ÜMUMİ MƏHKƏMƏ

**AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN**

**Azərbaycan Respublikası**

**Ali Məhkəməsinin Mülki və Kommersiya kollegiyalarının**

**Q Ə R A R D A D I**

**№ 01**

**"İpoteka haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi üzrə**

**ipoteka predmeti olan əmlakın ilkin satış qiymətinin müəyyən edilməsi məsələsinə dair**

**20 iyul 2020-ci il**

**Bakı şəhəri**

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki və Kommersiya kollegiyaları,

Mülki Kollegiyanın sədri Hacıyev Sənan Firudin oğlunun sədrliyi və hakimləri Əhmədova Mehparə Tofiq qızı, Əliyev Ələsgər Əliabbas oğlu, Xəlilov İsmayıl Kamil oğlu, Dəmirov İlqar Kamal oğlu, Əhmədov Əhməd Abbas oğlu, Nurməmmədov Əhməd Güləhməd oğlu, Vəliyeva Elşanə Rafiq qızı, Xələfov İlqar Rəhim oğlu, Quliyev Gündüz Ağababa oğlu, Əliyev Zaur Əli oğlu, Həsənov Vüqar Təvəkgül oğlu, Hüseynov Abiddin Qabil oğlu, Şamayev Elşad Yaquboviç, Abbasov Aqil Əzizağa oğlu,

Kommersiya Kollegiyasının sədri Abiyeva Kəmalə Nəbi qızı və hakimləri Məmmədli Bəhram Məmməd oğlu və Qəribov Bəhman Fərhad oğlundan ibarət tərkibdə,

Əkbərli Əkbər Eldar oğlunun katibliyi ilə,

Azərbaycan Respublikası Ali Məhkəməsi Mülki Kollegiyasının Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin (bundan sonra mətn üzrə - Mülki Prosessual Məcəlləsi) 418-1-ci maddəsinin tələblərinə müvafiq qaydada verdiyi 16 iyun 2020-ci il tarixli təqdimatı əsasında ipoteka predmetinin ilkin satış qiymətinin müəyyən edilməsi ilə bağlı mübahisəli hüquqi məsələyə hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsi məqsədi ilə baxaraq aşağıdakıları müəyyən etdi.

1. İşə kassasiya qaydasında baxılarkən Ali Məhkəmənin ayrı-ayrı məhkəmə tərkibləri arasında kredit müqaviləsi üzrə tutmanın ipoteka predmetinə yönəldilməsi və ipoteka ilə yüklü edilmiş əmlakın açıq hərracdan satılmasına dair mülki işlərdə ipoteka predmetinin ilkin satış qiymətinin müəyyən edilməsinə münasibətdə fərqli hüquqi yanaşmaların mövcud olduğu müəyyən olunmuşdur.

2. Ali Məhkəmədə bu tələblər üzrə əvvəllər baxılmış bir sıra işlərdə ipoteka predmetinin ilkin satış qiyməti əmlakın bazar qiyməti ilə müəyyən edilmişdir. Eyni zamanda, mübahisəli hüquqi məsələyə dair kassasiya instansiyası məhkəməsi bir neçə qərarında ipoteka predmetinin ilkin satış qiymətinin likvid qiymətlə müəyyən edilməsinə dair də hüquqi mövqe bildirmişdir.

3. Bu baxımdan ipoteka predmetinin ilkin satış qiymətinin müəyyən edilməsi (əmlakın bazar qiyməti və yaxud likvid qiyməti əsasında) ilə bağlı “İpoteka haqqında” Azərbaycan Respublikası Qanununun (bundan sonra mətn üzrə - “İpoteka haqqında” Qanun) tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsi məqsədi ilə Ali Məhkəmənin mübahisəli hüquqi məsələyə dair vahid hüquqi mövqeyini təsbit edən qərardadın qəbul edilməsi zərurəti yaranmışdır.

4. Mülki Prosessual Məcəllənin 2020-ci il martın 1-dən qüvvəyə minmiş 418-1-ci maddəsinə müvafiq olaraq, Ali Məhkəmənin məhkəmə tərkibi işə kassasiya qaydasında baxarkən Ali Məhkəmənin digər məhkəmə tərkibinin əvvəllər qəbul etdiyi qərarda müəyyən edilmiş hüquqi mövqedən fərqli yanaşmanın tətbiq edilməsini zəruri hesab etdikdə, həmin mübahisəli hüquqi məsələyə hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsi məqsədilə Ali Məhkəmənin mülki və kommersiya kollegiyalarına daxil olan bütün hakimlərdən ibarət tərkibdə baxılır.

5. Beləliklə, ayrı-ayrı məhkəmə tərkibləri arasında fərqli yanaşmaların mövcudluğu nəzərə alınaraq mübahisəli hüquqi məsələyə dair hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsi üçün Mülki Prosessual Məcəllənin 418-1-ci maddəsində nəzərdə tutulmuş hüquqi mexanizmdən istifadə olunmuşdur.

6. Bununla əlaqədar olaraq mübahisəli hüquqi məsələ hüquq ictimaiyyətinin diqqətinə çatdırılmış, bir çox maraqlı şəxslər, o cümlədən hüquqşünaslar və təşkilatlar yazılı formada əsaslandırılmış rəylərini (*amicus curiae* rəyi) Ali Məhkəməyə təqdim etmişlər.

7. Ali Məhkəmənin Mülki və Kommersiya kollegiyalarının hakimlərindən ibarət məhkəmə tərkibi qeyd edir ki, mübahisəli məsələyə qiymət vermək üçün ilk növbədə “İpoteka haqqında” Qanunun müvafiq müddəaları təhlil edilməlidir.

8. Belə ki, “İpoteka haqqında” Qanunun 39.3.3-cü maddəsinə əsasən məhkəmə ipoteka predmetinə tutmanın yönəldilməsi haqqında qərar qəbul edərkən qərarda ipoteka predmetinin ilkin satış qiymətini göstərməlidir.

9. Həmin Qanunun 1.0.9-cu maddəsinə əsasən ilkin satış qiyməti – qanunun tələbinə uyğun olaraq ipoteka predmetinin bazar dəyərinin müəyyənləşdirilməsi üçün müvafiq marketinq keçirilməsi vaxtının məhdudluğu şəraitində ipoteka predmetinin satış (likvid) qiymətidir.

10. Qanunun 1.0.9-cu maddəsindən göründüyü kimi, sözügedən normada ipoteka predmetinin ilkin satış qiymətinin anlayışı aydın şəkildə həmin əmlakın məhz likvid qiymətini ehtiva etməsi kimi verilmişdir.

11. İlk öncə likvid dəyərlə bağlı qeyd edilməlidir ki, "likvidlik" özü iqtisadi termin olaraq biznesdə, yaxud investisiya proseslərində aktivlərin bazarda əhəmiyyətli qiymət fərqi olmadan və dəyər itkisi yaratmadan tez reallaşdırıla (satıla) bilməsi qabiliyyətidir. Likvid dəyər bazar dəyərinin müəyyənləşdirilməsi üçün adekvat marketinqin keçirilməsi üçün vaxt məhdudluğu şəraitində mülkiyyətin satılmasından real əldə oluna biləcək pulun məbləğidir. Bu baxımdan aydın olur ki, əmlakın likvid qiyməti onun bazar qiymətinin açıq bazar şəraitində daha asan və tez satılma imkanı verən həddini ehtiva edir.

12. Məlumdur ki, "Kredit müqavilələri üzrə borcun tutulması, tutmanın ipoteka predmetinə yönəldilməsi, ipoteka predmetinin açıq hərracda satılması" tələblərinə dair işlərdə borcun vaxtında geri qaytarılmasından ibarət öhdəliyin icra edilməməsi özü-özlüyündə borcverənin birbaşa zərərə məruz qalması ilə nəticələnməklə yanaşı, sahibkarlara münasibətdə qaytarılmalı borcun dövriyyədə istifadə edilməməsi səbəbi ilə onların sahibkarlıq fəaliyyətinə də zərər vurmuş olur. Eyni zamanda, məhkəmə mübahisələrinin kifayət qədər uzun müddət davam etməsi, habelə bununla bağlı borc alan və ya ipoteka qoyanlar tərəfindən yol verilən sui-istifadə halları da öz növbəsində zərər məbləğinin artmasının digər səbəblərindəndir. Bu vəziyyətdə borcun təminat vasitəsi olan ipoteka predmetinin satışına uzun müddətin sərf edilməsinin qarşısının alınması üçün qanunverici əmlakın real bazar dəyəri ilə deyil, onun daha tez realizə olunmasına imkan verən real bazar dəyərindən nisbətən aşağı, lakin əhəmiyyətli qiymət fərqi olmadan və dəyər itkisi yaratmayan likvid qiymətlə hərraca çıxarılmasını nəzərdə tutmuşdur. Təsadüfi deyil ki, "İpoteka haqqında" Qanuna edilmiş son dəyişikliklərlə ipoteka predmetinə tutmanın yönəldilməsi prosedurunun sadələşdirilməsi də məhz bu məqsədlərə xidmət edir.

13. O da qeyd edilməlidir ki, ipoteka predmetinin likvid qiymətlə satılması borc alanın və ipoteka qoyanın da qanuni maraqlarına zidd deyil. Belə ki, ipoteka predmetinin realizasiyasının likvid qiymət əsasında daha tez həyata keçirilməsi borcun vaxtında ödənilməməsinə görə Azərbaycan Respublikası Mülki Məcəlləsinin müvafiq maddələri ilə nəzərdə tutulmuş əlavə ödənişlərin tutulmasının qarşısını da almaqla borcluları əlavə zərərdən qorumuş olacaqdır. Digər tərəfdən, likvid qiymət real bazar dəyərindən nisbətən aşağı olsa da, əhəmiyyətli qiymət fərqi olmadan dəyər itkisi yaratmayan həddə olduğundan və yalnız məcburi qaydada satışa tətbiq edildiyindən ipoteka qoyanın maraqlarına da zidd kimi qiymətləndirilməməlidir. Belə ki, Qanun ədalətli yanaşma müəyyən edərək, ipotekaqoyana ipoteka predmetini hərrac yekunlaşana qədər borcu ödəməklə ipotekadan azad etmək, habelə ipotekasaxlayanla qarşılıqlı razılıq əsasında ipoteka predmetini könüllü olaraq satmaq imkanı vermişdir. Bundan əlavə, "İpoteka haqqında" Qanunun 39.3.3-cü maddəsində ipoteka predmetinin ilkin satış qiymətinin ipoteka qoyanla ipoteka saxlayanın razılaşması əsasında müəyyən edilməsi imkanı nəzərdə tutulmuşdur. Həmçinin, qeyd edilməlidir ki, ipoteka predmeti olan əmlakın likvid qiymətlə açıq hərraca çıxarılması ipoteka predmetinin ilkin hərracda daha tez realizə edilərək, hərrac qaydalarına əsasən növbəti hərracdan mülkiyyətiçinin mənafeyinə zidd şəkildə ucuz qiymətə satılmasının qarşısını almaqla, iş üzrə qəbul edilmiş məhkəmə aktlarının da vaxtında icra olunmasına yardım etmiş olacaqdır.

14. Qanunvericiliyin təhlili göstərir ki, borc üzrə tutmanın yönəldilməsi zamanı ipoteka predmeti olan torpaq sahələrinin ilkin satış qiyməti də likvid qiymətlə müəyyən edilməlidir.

15. Azərbaycan Respublikası Torpaq Məcəlləsinin 94-cü maddəsinin 2-ci bəndinə əsasən torpaqların qiymətləndirilməsində torpağın normativ qiymətindən və bazar

qiymətindən istifadə olunur. Həmin Məcəllənin 96-cı maddəsinin 10-cu hissəsinə əsasən ipoteka predmeti olan torpaq sahəsinə tutma yönəldilərkən onun ilkin satış qiyməti ipoteka haqqında qanunvericiliyə uyğun olaraq bazar qiyməti nəzərə alınmaqla müəyyən edilir.

16. “Torpaq bazarı haqqında» Azərbaycan Respublikası Qanununun 15-ci maddəsinə əsasən Torpaq sahələrinin (ipoteka predmeti olan torpaq sahələri istisna olmaqla) hərraca (müsabiqəyə) çıxarılan ilkin qiyməti torpağın normativ qiymətindən az olmayaraq mövcud bazar məzənnəsinə uyğun müəyyən edilir.

17. Göründüyü kimi, torpaq qanunvericiliyində torpağın normativ və bazar qiymətindən istifadə edilməklə, ümumi qayda olaraq torpaq sahələrinin hərraca çıxarılan ilkin satış qiymətinin torpağın normativ qiymətindən az olmayaraq mövcud bazar qiyməti ilə müəyyən edilməsi şərtləndirilsə də, ipoteka predmeti olan torpaq sahələri ilə bağlı məsələ istisna edilərək, “İpoteka haqqında” Qanunun tənzimlənmə predmetinə aid edilmişdir.

18. “İpoteka haqqında” Qanunun 54-cü maddəsinə əsasən bu Qanuna müvafiq olaraq ipoteka predmeti olan torpaq sahəsinə tutma yönəldilərkən onun ilkin satış qiyməti bazar qiyməti nəzərə alınmaqla müəyyən edilir.

19. “İpoteka haqqında” Qanunun 54-cü maddəsinin və Torpaq Məcəlləsinin 96-cı maddəsinin 10-cu hissəsindəki ipoteka predmeti olan torpaq sahəsinə tutma yönəldilərkən torpaq sahəsinin ilkin satış qiymətinin bazar qiyməti nəzərə alınmaqla müəyyən edilməsindən ibarət ifadə ilə bağlı qeyd edilməlidir ki bu sadəcə olaraq ilkin satış qiymətinin müəyyənləşdirilməsi üsulunu göstərməklə, onun “İpoteka haqqında” Qanunun 1.0.9-cu maddəsinə uyğun olaraq likvid qiymətlə müəyyən edilməsini istisna etmir.

20. Beləliklə, Ali Məhkəmənin Mülki və Kommersiya kollegiyalarının hakimlərindən ibarət məhkəmə tərkibi mübahisəli məsələ ilə bağlı təqdimat vermiş məhkəmə tərkibi ilə razılaşaraq hesab edir ki, “İpoteka haqqında” Qanunun tələbi baxımından ipoteka predmetlərinin ilkin satış qiyməti məhz likvid qiymətlə müəyyən edilməlidir.

21. O da qeyd edilməlidir ki, kredit müqaviləsi üzrə borcun tutulması, tutmanın ipoteka predmetinə yönəldilməsi, ipoteka predmetinin açıq hərracda satılması barədə tələblər üzrə işlərə baxılarkən “İpoteka haqqında” Qanunun tələblərinə riayət etmək üçün ilkin satış qiymətinin müəyyən edilməsi ilə bağlı aparılan məhkəmə araşdırmasında qanunla müəyyən edilmiş ardıcıllığa riayət edilməlidir. Belə ki, ilk növbədə ipotekaqoyanla ipotekasaxlayanın ipoteka predmetinin ilkin satış qiymətinin ipoteka müqaviləsində, Qanunun 10.5-ci maddəsinin tələbinə uyğun olaraq qeyd edilmiş qiymətlə müəyyən edilməsinə münasibəti öyrənilməlidir. Bununla bağlı razılıq olmadıqda isə, Qanunun 39.3.3-cü maddəsinə uyğun olaraq müqavilədə nəzərdə tutulduğundan fərqli həddə ilkin satış qiyməti ilə bağlı istinad edilən tərəflərin razılaşmasının olub-olmaması aydınlaşdırmalıdır. Məhkəməyə təqdim olunan razılaşma Mülki Prosessual Məcəllənin 106.3 və 191.1-ci maddələrinin tələbləri baxımından yazılı şəkildə tərtib edilməli, ya məhkəmə iclas protokoluna imza edilməklə təsdiq olunmalı, ya da tərəflərin razılığı bu hərəkətlərin nəticəsi aydın surətdə şərh olunan, məhkəməyə göndərilən yazılı ərizələrdə ifadə olunmalıdır. Bu halda məhkəmə tərəflərin razılaşması ilə müəyyən edilmiş qiymətlə, onun əmlakın likvid və ya real bazar qiymətini təşkil edib-etməməsindən asılı olmayaraq bağlıdır. Buna baxmayaraq, məhkəmə Mülki Prosessual Məcəllənin 52.5 və 106.4-cü maddələrində sadalanan halların mövcudluğunu aşkar etdikdə həmin razılaşmanı nəzərə almaya bilər. Belə razılaşmanın əldə edilmədiyi, yaxud məhkəmə tərəfindən nəzərə alınmadığı hallarda isə ipoteka predmetinin ilkin satış qiyməti müstəqil qiymətləndiricinin rəyi (mütəxəssis rəyi) əsasında müəyyən edilməlidir. Nəzərə alınmalıdır ki, mütəxəssis rəyinin mübahisə tərəflərinin təqdim etməsindən, yaxud məhkəmə qərardadı ilə təyin edilmiş əmlakın qiymətləndirilməsi ilə bağlı qərardadla alınmasından asılı olmayaraq, rəydə ipoteka predmetinin yalnız likvid qiyməti deyil, həmçinin likvid qiymətin ağlabatanlığının dəyərləndirməsi baxımından əhəmiyyətli olan real bazar qiyməti də əks olunmalıdır. Bu yanaşma “İpoteka haqqında” Qanunun 54-cü maddəsinin torpaq sahəsinin ilkin satış qiymətinin müəyyən edilməsi ilə bağlı tələbindən də irəli gəlir.

22. Yuxarıda göstərilənlərə əsasən Ali Məhkəmənin Mülki və Kommersiya kollegiyalarının hakimlərindən ibarət məhkəmə tərkibi kassasiya instansiyası məhkəməsində icraat zamanı “İpoteka haqqında” Qanunun tətbiqi baxımından ipoteka predmetinin ilkin satış qiymətinin müəyyən edilməsi ilə bağlı mübahisəli hüquqi məsələyə dair belə qənaətə gəlir ki, ipoteka predmetinin ilkin satış qiyməti onların real bazar qiyməti nəzərə alınmaqla müəyyən edilən likvid qiymətidir.

23. Ali Məhkəmənin Mülki və Kommersiya kollegiyalarına daxil olan bütün hakimlərdən ibarət məhkəmə tərkibi Mülki Prosessual Məcəllənin 418-1.1-ci maddəsini rəhbər tutaraq

**Q Ə R A R A  A L D I:**

“İpoteka haqqında” Azərbaycan Respublikası Qanununun 39.3.3-cü maddəsinə əsasən məhkəmə qətnaməsində göstərilən ilkin satış qiyməti ipoteka predmeti olan əmlakın likvid qiyməti ilə müəyyən edilməlidir.

Qərardad dərc edildiyi gündən qüvvəyə minir.

**Sədrlik edən** **Sənan Hacıyev**

**AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN**

**Azərbaycan Respublikası**

**Ali Məhkəməsinin Mülki və Kommersiya kollegiyaları**

**Apelyasiya və kassasiya şikayətlərinin mümkünlüyü və şikayətlərə baxılmasının hədləri ilə bağlı Mülki Prosessual Məcəllənin tətbiqi məsələlərinə dair**

# Q Ə R A R D A D

**№ 04/2020**

**14 oktyabr 2020-ci il**
**Bakı şəhəri**

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki və Kommersiya kollegiyaları,

Mülki Kollegiyanın sədri Hacıyev Sənan Firudin oğlunun sədrliyi və hakimləri Dəmirov İlqar Kamal oğlu, Əhmədov Əhməd Abbas oğlu, Nurməmmədov Əhməd Güləhməd oğlu, Vəliyeva Elşanə Rafiq qızı, Xələfov İlqar Rəhim oğlu, Quliyev Gündüz Ağababa oğlu, Həsənov Vüqar Təvəkgül oğlu, Hüseynov Abiddin Qabil oğlu, Şamayev Elşad Yaquboviç, Abbasov Aqil Əzizağa oğlu, Əliyev Zaur Əli oğlu,

Kommersiya Kollegiyasının sədri Abiyeva Kəmalə Nəbi qızı və hakimləri Dadaşov İlqar Ağababaş oğlu, Hüseynov Azər Soltanhəmid oğlu, Qəribov Bəhman Fərhad oğlu və Məmmədli Bəhram Məmməd oğlundan ibarət tərkibdə,

Əkbərli Əkbər Eldar oğlunun katibliyi ilə,

Azərbaycan Respublikası Ali Məhkəməsi Mülki Kollegiyasının Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin (bundan sonra - MPM) 418-1-ci maddəsinin tələblərinə müvafiq qaydada verdiyi 2020-ci il 27 avqust tarixli təqdimatı əsasında mübahisəli hüquqi məsələyə hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsi məqsədi ilə baxaraq aşağıdakıları müəyyən etdi.

Mübahisəli hüquqi məsələnin məzmunu

1. Ali Məhkəmənin Mülki Kollegiyasının icraatında olan “kredit müqaviləsi üzrə borcun ödənilməsi, ipoteka predmetinə tutmanın yönəldilməsi və ipoteka predmeti olan əmlakın açıq hərracdan satılması” tələblərinə dair mülki iş üzrə cavabdehlərdən birinin (kredit müqaviləsi üzrə borcu götürən şəxs) kassasiya şikayəti üzrə əvvəlki kassasiya icraatında apelyasiya instansiyası məhkəməsinin qətnaməsi iddianın təmin edilmiş hissəsində tam şəkildə yoxlanılaraq, qətnamənin kassatora münasibətdə dəyişdirilmədən saxlanıldığı qərara alınmışdır. Daha sonra digər cavabdeh (ipoteka qoyan) kassasiya şikayəti ilə məhkəməyə müraciət edərək apelyasiya instansiyası məhkəməsinin qətnaməsinin ipoteka predmeti olan mənzilin ilkin satış qiymətinin müəyyən edilməsinə dair hissəsini mübahisələndirmişdir. Ali Məhkəmənin Mülki Kollegiyasının müvafiq qərardadı ilə yeni verilmiş kassasiya şikayəti MPM-in tələblərinə (MPM-in 404-1, 405, 406, 407-ci maddələri) cavab verməsi və onun geri qaytarılması üçün əsasların (MPM-in 408-ci maddəsi) olmaması baxımından icraata qəbul edilərək, məhkəmə baxışına təyin edilmişdir.

2. İşə kassasiya qaydasında baxılarkən oxşar məsələ ilə bağlı fərqli hüquqi yanaşmanın mövcud olduğu müəyyən olunmuşdur. Belə ki, Ali Məhkəmədə baxılmış analoji mülki iş üzrə cavabdehin kassasiya şikayəti digər cavabdehin daha əvvəl verdiyi şikayət əsasında kassasiya qaydasında yoxlanılmış hissə ilə bağlı olduğundan onun icraata qəbulundan imtina edilmişdir. Kassasiya şikayətinin qeyri-mümkünlüyünə dair qərardadında məhkəmənin hüquqi mövqeyi ondan ibarət olmuşdur ki, Ali Məhkəmənin Mülki Kollegiyası tərəfindən cavabdehlərdən birinin kassasiya şikayəti əsasında apelyasiya instansiyası məhkəməsinin qətnaməsinin qanuniliyi və əsaslılığı bütövlükdə yoxlanılaraq, yekun qərarla bir dəfə artıq hüquqi qiymət verildiyindən həmin qətnamənin digər cavabdeh tərəfindən verilmiş kassasiya şikayəti üzrə təkrarən yoxlanılması yolverilməzdir. Məhkəmə qərardadındakı gəlinən nəticənin hüquqi əsası kimi M.İbrahimovun şikayəti üzrə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumunun 2017-ci il 8 iyun tarixli Qərarında nümayiş etdirilmiş hüquqi mövqeyə istinad edilmişdir. Belə ki, Konstitusiya Məhkəməsinin Plenumu həmin qərarında vurğulamışdır ki, məhkəmə müdafiəsi prosedurunun və konkret formasının seçilməsi məhkəmə qərarının qanuni qüvvəsini təmin edən, müxtəlif məhkəmə aktlarının kolliziyasının istisna edilməsinə yönələn məhkəmə

qərarlarının stabilliyi prinsipi nəzərə alınmaqla həyata keçirilməlidir. Belə ki, bu prinsip məhkəmə aktlarının bir-birinə zidd olmamasının, eləcə də hüquqi müəyyənlik prinsipinin təmin edilməsinə yönəlir.

3. Hazırda icraatda olan mülki işə baxan məhkəmə tərkibi həmin məsələyə dair fərqli hüquqi yanaşma sərgiləyərək qeyd edir ki, əvvəl baxılmış oxşar iş üzrə kassasiya şikayətinin geri qaytarılmasından ibarət hüquqi mövqe mülki prosessual qanunvericiliyin, tərəflərin məhkəmə aktlarından qanunla müəyyən edilmiş qaydada şikayət vermək hüququnu təmin edən müddəaları ilə (MPM-in 357.1 və 403.1-ci maddələri) ziddiyyət təşkil edir. Bu baxımdan məhkəmə tərkibinin qənaətinə görə tərəfin kassasiya şikayəti mülki prosessual qanunvericiliyin tələblərinə (MPM-in 404-1, 405, 406, 407-ci maddələri) uyğun olaraq verildiyindən və onun geri qaytarılması üçün prosessual əsaslar (MPM-in 408-ci maddəsi) olmadığından hazırkı halda digər cavabdehin şikayət vermə hüququnun məhdudlaşdırılması yolverilməzdir və ona görə də həmin kassasiya şikayəti icraata qəbul edilərək, kassasiya icraatı qaydasında baxılmalı və iş üzrə onun şikayətinə münasibətdə qərar qəbul edilməlidir.

4. Göründüyü kimi, qeyd edilən hüquqi məsələyə dair MPM-in tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsi zərurəti yaranmışdır.

5. MPM-in 2020-ci il martın 1-dən qüvvəyə minmiş 418-1-ci maddəsinə müvafiq olaraq, Ali Məhkəmənin məhkəmə tərkibi işə kassasiya qaydasında baxarkən Ali Məhkəmənin digər məhkəmə tərkibinin əvvəllər qəbul etdiyi qərarda müəyyən edilmiş hüquqi mövqedən fərqli yanaşmanın tətbiq edilməsini zəruri hesab etdikdə, həmin mübahisəli hüquqi məsələyə hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsi məqsədilə Ali Məhkəmənin mülki və kommersiya kollegiyalarına daxil olan bütün hakimlərdən ibarət tərkibdə baxılır.

6. Bu məqsədlə Ali Məhkəmənin sədri tərəfindən hazırda işə baxan Mülki Kollegiyanın məhkəmə tərkibinin təqdimatı təmin edilərək, hüququn tətbiqi üzrə qeyd edilən mübahisəli hüquqi məsələ Mülki və Kommersiya kollegiyalarına daxil olan bütün hakimlərin müzakirəsinə çıxarılmışdır.

7. Mübahisəli hüquqi məsələ hüquq ictimaiyyətinin diqqətinə çatdırılmış, yazılı formada əsaslandırılmış rəylər (amicus curiae rəyi) Ali Məhkəməyə təqdim edilmişdir.

I. Apelyasiya və kassasiya instansiyası məhkəmələrinin işə baxma hədləri

8. Ali Məhkəmənin Mülki və Kommersiya kollegiyalarının hakimlərindən ibarət məhkəmə tərkibi qeyd edir ki, məsələyə aydınlığın gətirilməsi və bu sahədə yanaşmanın müəyyənləşdirilməsi üçün ilk növbədə apelyasiya və kassasiya instansiyası məhkəmələrinin işə baxılma hədləri ilə bağlı qanunvericiliyin müddəaları, Konstitusiya Məhkəməsi Plenumunun məsələyə dair hüquqi mövqeyi, habelə bu müddəaların tətbiqi üzrə mövcud məhkəmə təcrübəsi nəzərdən keçirilməlidir.

9. Bu sahədə formalaşmış məhkəmə təcrübəsinin təhlili göstərir ki, çoxtərəfli mülki və kommersiya mübahisələrində həm apelyasiya, həm də kassasiya instansiyası məhkəmələri bir qayda olaraq bir iş üzrə qəbul edilmiş aidiyyəti məhkəmə qətnaməsini bütövlükdə və yaxud eyni hissədə iş üzrə tərəflərin ayrı-ayrılıqda verilmiş şikayətləri əsasında dəfələrlə yoxlanılmasını həyata keçirirlər. Qəbul edilən bu məhkəmə qərarları arasında kolliziyanın həlli yolu kimi isə qərarın şikayət verən şəxsə münasibətdə və ya şikayətə münasibətdə yoxlanılması kimi rəsmiləşdirilməsindən istifadə edilir.

10. MPM-in:

372.6-cı maddəsinə əsasən apelyasiya instansiyası məhkəməsi birinci instansiya məhkəməsinin qətnaməsinin əsaslılığını onun barəsində açıq və ya dolayısı ilə mübahisə edilən hissəsi üzrə, şikayət qərarın ləğv edilməsinə yönəldikdə və ya apelyasiya şikayətində və ona etirazlarda ifadə olunmuş dəlillərə əsasən mübahisənin predmeti bölünməz olduqda isə tam yoxlayır;

372.7-ci maddəsinə əsasən apelyasiya instansiyası məhkəməsi şikayətin dəlillərindən asılı olmayaraq, məhkəmənin maddi və prosessual hüquq normalarına riayət etməsini yoxlayır;

416-cı maddəsinə əsasən kassasiya instansiyası məhkəməsi apelyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməsini yoxlayır. 4

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hüquqi mövqeyi

11. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun Azərbaycan Respublikası MPM-in 372-ci maddəsinin apelyasiya baxışının hədləri barədə müddəalarının həmin Məcəllənin 372.1 və 372.7-ci maddələri baxımından şərh edilməsinə dair 2011-ci il 20 may tarixli qərarında qeyd edilir ki, hədlərə qiymət verməmişdən öncə ilk növbədə apelyasiya qaydasında verilən şikayətin obyekti və predmeti aydınlaşdırılmalıdır.

12. Konstitusiya Məhkəməsinin Plenumu həmin qərarında qeyd etmişdir ki, apelyasiya instansiyası məhkəməsində icraata dair MPM-in 41-ci fəslinin, o cümlədən 372-ci maddəsinin təhlili göstərir ki, apelyasiya şikayətinin obyekti birinci instansiya məhkəməsinin qətnaməsi və yaxud onun bir hissəsidir və obyekt apelyasiya tələbləri ilə məhdudlaşa bilər. Şikayətin dəlilləri tərəfin qətnaməni mübahisələndirdiyi hissəsi ilə bağlı dəlillərdə özünü büruzə verir. Qətnamə tamamilə mübahisələndirildiyi halda şikayətin dəlilləri onun bütün hissələrinin əsassızlığı ilə bağlı, hissəvi mübahisələndirildikdə isə məhz həmin hissənin əsassızlığı ilə bağlı olmalıdır. Məhz bu dəlillər şikayətin obyektini müəyyən edir. O da qeyd edilməlidir ki, çəkişmə və dispozitivlik kimi mülki prosesin fundamental prinsiplərinin təmin edilməsi baxımından apelyasiya instansiyası məhkəməsi birinci instansiya məhkəməsinin qətnaməsini yalnız mübahisələndirilən hissədə yoxlamalı, mübahisələndirilməyən hissəsinə toxunmamalıdır.

13. Göründüyü kimi, qərarda qətnamənin tərəflərin mübahisələndirmədiyi və beləliklə də onun əsaslılığı şübhə altına alınmayan hissədə ləğv edilməsi, dəyişdirilməsi və ya qüvvədə saxlanılması dispozitivlik və çəkişmə prinsipinin pozulması kimi qiymətləndirilmişdir.

14. Bununla yanaşı, Konstitusiya Məhkəməsi eyni qərarında MPM-in 372.6-cı maddəsinin tələbləri baxımından apelyasiya instansiyası məhkəməsi tərəfindən birinci instansiya məhkəməsinin qətnaməsinin əsaslılığının tam yoxlanılmasını yalnız apelyasiya şikayəti ilə deyil, həmçinin mübahisənin predmeti bölünməz olduqda ona qarşı verilmiş etirazla da əlaqələndirmişdir. Mübahisənin predmetinin bölünməz olması məsələsi isə tərəflərin şikayət və etirazlarda irəli sürdükləri dəlillər nəzərə alınmaqla hər bir halda məhkəmə tərəfindən müəyyən olunmalıdır.

15. Şikayətin predmeti dedikdə məhkəmənin verilmiş tələblərə baxılması və onların həlli zamanı yol verdiyi pozuntuların dairəsi başa düşülməlidir. Şikayətin predmeti birinci instansiya məhkəməsinin qətnaməsinin ləğvi və ya dəyişdirilməsi üçün əsas ola biləcək dəlillərlə məhdudlaşa bilər.

16. Şikayətin obyektinə dair olduğu kimi şikayətin predmetinə dair də apelyasiya instansiyası məhkəməsinin yoxlama səlahiyyətlərinin hədləri apelyasiya şikayətində müəyyənləşdirilir. Buna baxmayaraq, apelyasiya instansiyası məhkəməsi qanunçuluğun maraqlarına uyğun olaraq şikayətin dəlillərindən kənara çıxa bilər. Qanunçuluğun maraqları dedikdə baxılan iş üzrə maddi və prosessual hüquq normalarının düzgün tətbiq olunması başa düşülməlidir. Doğrudur, apelyasiya instansiyası məhkəməsi öz təşəbbüsü ilə birinci instansiya məhkəməsinin mübahisəyə dair verdiyi hüquqi qiymətləndirməni yoxlamaq hüququna malik deyil, lakin apelyasiyanın əsasını birinci instansiya məhkəməsi tərəfindən düzgün olmayan maddi hüquq normasının tətbiq olunması, onun düzgün şərh olunmaması və ya mübahisənin yanlış hüquqi qiymətləndirilməsi təşkil etdikdə, apelyasiya instansiyası məhkəməsi mübahisənin hüquqi qiymətləndirilməsini yenidən keçirməlidir. Eyni zamanda, Konstitusiya Məhkəməsi bu məsələyə qiymət verərkən qeyd etmişdir ki, apelyasiya instansiyası məhkəməsi maddi hüquq normalarına riayət edilməsini yalnız birinci instansiya məhkəməsinin qətnaməsinin əsaslılığının mübahisələndirilən hissəsində yoxlamaq hüququna malikdir. Əks halda MPM-in 327.6-cı maddəsi öz əhəmiyyətini itirmiş olardı.

17. Maddi hüquq normalarından fərqli olaraq prosessual hüquq normalarına riayət olunub-olunmamasını apelyasiya instansiyası məhkəməsi apelyasiya şikayətinin obyektindən və predmetindən asılı olmayaraq yoxlayır. Konstitusiya Məhkəməsinin Plenumunun qərarında həmçinin qeyd edilmişdir ki, MPM-in həmin maddəsində nəzərdə tutulmuş prosessual pozuntuları iki qrupa bölmək olar. Birinci qrupa birinci instansiya məhkəməsinin qətnaməsinin hər bir halda ləğv olunmasına əsas olmuş prosessual pozuntular aiddir. Belə pozuntular kobud pozuntular adlandırılır. Həmin pozuntular MPM-in 387.2.1-387.2.7-ci maddələrində göstərilmişdir və bu pozuntular şikayətin dəlillərindən asılı olmayaraq birinci instansiya məhkəməsinin qətnaməsinin ləğv edilməsinə şərtsiz əsasdır. İkinci qrupa elə prosessual pozuntuları aid etmək olar ki, onlar birinci instansiya məhkəməsinin qətnaməsinin ləğv edilməsi üçün əsas olmaya da bilər. Belə pozuntuları şərtli pozuntular da adlandırmaq olar. MPM-in 387.1-ci maddəsinə əsasən prosessual hüquq normalarının pozulması və ya düzgün tətbiq edilməməsi qətnamənin ləğv edilməsinə yalnız o halda əsas olur ki, bu düzgün olmayan qətnamənin qəbul edilməsinə səbəb olsun. Bu və ya digər prosessual pozuntunun birinci instansiya məhkəməsinin qətnaməsinin ləğv edilməsinə əsas olub-olmamasını işin konkret hallarından asılı olaraq apelyasiya instansiya məhkəməsi həll edir. Birinci instansiya məhkəməsi tərəfindən işə baxılarkən yol verilmiş böyük əhəmiyyət kəsb etməyən prosessual pozuntular məhkəmənin yekun nəticəsinə təsir göstərməmişdirsə və ya göstərə bilməmişdirsə onlar qətnamənin ləğvi üçün əsas deyildir.

18. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun MPM-in 420-ci maddəsinin şərh edilməsinə dair 2012-ci il 28 fevral tarixli qərarında kassasiyanın səlahiyyət hədləri ilə bağlı məsələyə dair qeyd edilmişdir ki, 2000-ci ilin sentyabrın 1-dək qüvvədə olmuş mülki prosessual qanunvericiliyə görə kassasiya icraatı aşağı məhkəmələrin fəaliyyəti üzərində nəzarətin, məhkəmələr tərəfindən buraxılmış səhvlərin daha tez aradan qaldırılmasına və məhkəmələr tərəfindən qanunun birmənalı və dəqiq tətbiqinin təmin olunmasına imkan verən prosesin xüsusi növü kimi qəbul olunurdu. İşə kassasiya qaydasında baxılarkən məhkəmə işdə olan və əlavə materiallar əsasında qərarın qanuniliyini və əsaslılığını, yəni iş üzrə icraatın prosessual qaydasına riayət olunmasını və

işin mahiyyəti üzrə həll olunmasını yoxlayırdı. Bu zaman kassasiya məhkəməsinin səlahiyyət hədləri yalnız şikayətdəki dəlillərlə məhdudlaşmırdı və iş tam həcmdə yoxlanılırdı.

19. Həmin qərarda qeyd edilmişdir ki, MPM-in 412.2-ci maddəsinə görə işdə iştirak edən şəxslər kassasiya şikayətinə dair etirazlarını və yaxud izahatlarını məhkəməyə göndərməyə haqlıdırlar. Etirazlarla bağlı, həmçinin nəzərə almaq lazımdır ki, etirazlar kassasiya şikayətində qaldırılan hüquqi dəlillərə qarşı tərəfin münasibətini ifadə etdiyindən, kassasiya şikayətinin dəlillərinə aid olmadığı və ya məhkəmə aktının kassasiya şikayətində mübahisələndirilməyən hissəsindən verildiyi halda, kassasiya məhkəməsi həmin etirazlara baxmamalıdır. Həmin tələblər kassasiya icraatının müvafiq şikayətin dəlilləri çərçivəsində həyata keçirilməsini şərtləndirən amillərdən olmaqla kassasiya icraatının mahiyyətindən irəli gəlir.

20. Qərarda habelə qeyd edilmişdir ki, kassasiya məhkəməsinin səyləri ərizəçinin kassasiya şikayətində göstərdiyi hüququn və qanuni maraqların pozulmasının aradan qaldırılmasına yönəlməlidir. Kassasiya şikayətində irəli sürülmüş dəlil hər hansı digər (mübahisələndirilməyən) hüquqi məsələ ilə qaçılmaz olaraq əlaqəli və ya ona münasibət bildirməkdən asılı olduqda isə, kassasiya məhkəməsi Konstitusiyanın 127-ci maddəsinin VII hissəsində nəzərdə tutulmuş çəkişmə prinsipinə müvafiq olaraq bu məsələni tərəflərin müzakirəsinə vermək şərtilə, müstəsna olaraq, ona münasibət bildirə bilər. Eyni zamanda, kassasiya şikayətində irəli sürülmüş hüquqi dəlili araşdırarkən kassasiya məhkəməsi şikayətçi tərəfindən bu dəlilə verilmiş hüquqi qiymətdən asılı deyil və Konstitusiya Məhkəməsi Plenumunun MPM-in 372.6-cı maddəsi ilə bağlı yuxarıda qeyd olunan 2011-ci il 20 may tarixli Qərarında ətraflı şərh verilmiş iura novit curia – məhkəmə hüququ bilir hüquqi prinsipinə əsasən kassasiya şikayətinin hədlərində qaldırılmış məsələnin yenidən hüquqi qiymətləndirilməsinə əsaslanaraq da maddi və ya prosessual hüquq normalarına uyğun olmadığı üçün apelyasiya məhkəməsinin qərarını ləğv edə və ya dəyişdirə bilər.

İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin mövqeyi

21. İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin Fimar Hacıyevanın Azərbaycana qarşı şikayəti ilə bağlı 2005-ci il 22 sentyabr tarixli qərardadında Avropa Məhkəməsinin ərizəçinin şikayətini qeyri-məqbul hesab edərkən göstərdiklərinə diqqət çəkmişdir. Belə ki, həmin qərardadda ərizəçi tərəfindən Ali Məhkəməyə verdiyi kassasiya şikayətinin əsaslandırılmayaraq, yalnız apelyasiya məhkəməsi tərəfindən prosessual pozuntulara yol verildiyi iddia edildiyindən, Avropa Məhkəməsi müvafiq dəlili irəli sürməyi şikayətçinin borcu kimi qiymətləndirərək kassasiya məhkəməsinin şikayətçinin dəlillərindən kənar araşdırma aparmaq vəzifəsinin olmaması qənaətinə gəldiyi qeyd edilmişdir.

Məhkəmə tərkibinin mövqeyi

22. İlk növbədə qeyd edilməlidir ki, apelyasiya baxışının obyekt və predmetini müəyyən edən MPM-in 372.6 və 372.7-ci maddəsinə əsasən apelyasiya instansiyası məhkəməsi birinci instansiya məhkəməsinin qətnaməsinin əsaslılığını onun barəsində açıq və ya dolayısı ilə mübahisə edilən hissəsi üzrə, şikayət qərarın ləğv edilməsinə yönəldikdə və ya apelyasiya şikayətində və ona etirazlarda ifadə olunmuş dəlillərə əsasən mübahisənin predmeti bölünməz olduqda isə tam yoxlayır, həmçinin şikayətin dəlillərindən asılı olmayaraq, məhkəmənin maddi və prosessual hüquq normalarına riayət etməsini yoxlayır. Məhkəmə tərkibi istinad edilən prosessual normalar və bununla bağlı Konstitusiya Məhkəməsinin hüquqi mövqeyi baxımından hesab edir ki, mübahisə predmetinin bölünməz olduğu hallar istisna olmaqla, apelyasiya instansiyası məhkəməsinin yoxlaması şikayətin

obyekti ilə, yəni qətnamənin mübahisələndirilən hissəsi ilə məhdudlaşsa da, məhkəmə həmin hissədə şikayətin predmetini təşkil edən maddi hüquq normasının pozuntusu ilə bağlı irəli sürülmüş dəlillərlə bağlı olmayıb, ondan kənara çıxma hüququna malik olmaqla mübahisələndirilən hissənin tam şəkildə təkrar hüquqi qiymətləndirilməsini keçirməlidir. Şikayətin predmetinə daxil olan prosessual normalara riayət edilib-edilməməsi məsələsinə gəldikdə isə məhkəmə bu halda qətnamənin hansı hissəsinin mübahisələndirilməsindən və verilmiş şikayətin prosessual pozuntularla bağlı irəli sürülmüş dəlillərindən asılı olmayaraq, qətnaməni bütövlükdə və şikayətin dəlillərindən kənara çıxmaqla yoxlamalıdır. Həmçinin, yoxlama zamanı nəzərə alınmalıdır ki, MPM-in 382.2.1 - 387.2.7-ci maddələrində nəzərdə tutulmuş və kobud prosessual pozuntular adlanan halların aşkar edilməsi qətnamənin ləğv edilməsinə şərtsiz əsasdır. Eyni zamanda, digər prosessual pozuntuların qətnamənin ləğv edilməsinə əsas olub-olmamasını işin konkret hallarından asılı olaraq yuxarı instansiya məhkəməsi həll edir. Bu halda nəzərə alınmalıdır ki, qətnamənin mübahisələndirilməyən hissəsində yoxlanılması tərəflərin məhkəmə aktlarından şikayət vermək və əsaslandırılmış dəlillərini irəli sürmək kimi fundamental hüquqlarını məhdudlaşdırdığından qətnamənin ləğvinə əsas verən əhəmiyyətli prosessual pozuntudur.

23. Kassasiya baxışının hədlərinə gəldikdə isə, ilk növbədə MPM-in 416-cı maddəsinin məzmununa diqqət yetirilməlidir. Belə ki, həmin maddəyə əsasən kassasiya instansiyası məhkəməsi apelyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməsini yoxlayır. Göründüyü kimi, apelyasiyanın hədlərini müəyyən edən MPM-in 372.7-ci maddəsindən fərqli olaraq, qanunverici kassasiyanın hədlərini müəyyən edərkən "şikayətin dəlillərindən asılı olmayaraq" ifadəsindən istifadə etməmişdir. Digər tərəfdən qeyd edilməlidir ki, MPM-in 418.4-cü maddəsində apelyasiya instansiyası məhkəməsinin qətnaməsi və ya qərardadının şikayətin dəlillərindən asılı olmayaraq ləğv edilməli olduğu prosessual əsaslar nəzərdə tutulmuşdur.

24. Qanunvericiliyin bu tələbləri, həmçinin Konstitusiya Məhkəməsi Plenumunun MPM-in 420-ci maddəsinin şərh edilməsinə dair qərarında əks olunmuş hüquqi mövqeyi baxımından məhkəmə tərkibi bildirir ki, kassasiya icraatı qaydasında məhkəmə aktının yoxlanılması apelyasiya icraatında olduğu kimi şikayətin obyekti həddində olsa da, predmetinə münasibətdə fərqlidir. Belə ki, apelyasiya icraatından fərqli olaraq kassasiya icraatı qaydasında məhkəmənin yoxlaması, prosessual normalara riayət edilməsi istisna olmaqla, şikayətdə irəli sürülmüş dəlillərin həddi ilə məhdudlaşır. Eyni zamanda qeyd edilməlidir ki, kassasiya şikayətində irəli sürülmüş hüquqi dəlili araşdırarkən kassasiya məhkəməsi şikayətçi tərəfindən bu dəlilə verilmiş hüquqi qiymətdən asılı olmamaqla "iura novit curia" – "məhkəmə hüququ bilir" hüquqi prinsipinə əsasən kassasiya şikayətinin yuxarıda qeyd edilən hədlərində qaldırılmış məsələnin yenidən hüquqi qiymətləndirilməsinə əsaslanaraq maddi və ya prosessual hüquq normalarına uyğun olmadığı üçün apelyasiya məhkəməsinin qərarını ləğv edə və ya dəyişdirə bilər. Şikayətin predmetinə daxil olan prosessual normalara riayət edilib-edilməməsi məsələsində isə qətnamənin hansı hissəsinin mübahisələndirilməsindən və verilmiş şikayətin prosessual pozuntularla bağlı irəli sürülmüş dəlillərindən asılı olmayaraq, kassasiya məhkəməsi qətnaməni bütövlükdə və şikayətin dəlillərinə bağlı olmadan yoxlamalıdır. Həmçinin, yoxlama zamanı nəzərə alınmalıdır ki, MPM-in 418.4.1-418.4.3-cü və 418.4.6-418.4.9-cu maddələrində nəzərdə tutulmuş və kobud prosessual pozuntular adlanan halların aşkar edilməsi qətnamənin ləğv edilməsinə şərtsiz əsasdır. Eyni zamanda, apelyasiya icraatında olduğu kimi, kassasiya icraatında da digər prosessual pozuntuların qətnamənin ləğv edilməsinə əsas olub-olmamasını işin konkret hallarından asılı olaraq yuxarı instansiya məhkəməsi həll edir. Bu halda nəzərə

alınmalıdır ki, qətnamənin apelyasiya icraatı qaydasında mübahisələndirilməyən hissəsində yoxlanılması, tərəflərin məhkəmə aktlarından şikayət vermək və əsaslandırılmış dəlillərini irəli sürmək kimi fundamental hüquqlarını məhdudlaşdırdığından, qətnamənin ləğvinə əsas verən əhəmiyyətli prosessual pozuntudur. Həmçinin, apelyasiya məhkəməsi tərəfindən işə baxılarkən yol verilmiş böyük əhəmiyyət kəsb etməyən prosessual pozuntular məhkəmənin yekun nəticəsinə təsir göstərməmişdirsə və ya göstərə bilməmişdirsə, onlar qərarın ləğvi üçün əsas ola bilməz.

25. Apelyasiya və kassasiyanın hədlərini tənzimləyən yuxarıda istinad edilən mülki prosessual hüquq normalarından və Konstitusiya Məhkəməsi Plenumunun apelyasiyanın və kassasiyanın hədləri ilə bağlı müəyyən etdiyi hüquqi mövqelərdən göründüyü kimi, prosessual doktrina məhkəmələrin qətnamənin yoxlanılmasını şikayəti verən şəxsə (in personum) münasibətdə deyil, mübahisələndirilən hissədə (in rem) həyata keçirilməsini müəyyən etmişdir.

26. Beləliklə, məhkəmə tərkibi həm prosessual qanunvericiliyin tələblərini, həm də həmin tələblərə dair Konstitusiya Məhkəməsi Plenumunun hüquqi mövqeyini nəzərə alaraq belə qənaətə gəlir ki, məhkəmə aktları şikayətə və ya şikayəti verən şəxsə münasibətdə deyil, mübahisələndirilən hissəyə münasibətdə yoxlanılmalıdır.

II. Məhkəmə aktının apelyasiya və ya kassasiya qaydasında yoxlanılmış hissəsinin, digər tərəfin şikayəti üzrə təkrarən yoxlanılmasının mümkünlüyü məsələsinə dair

27. Mübahisəli hüquqi məsələnin həlli baxımından əhəmiyyət kəsb edən digər hal formalaşmış təcrübəyə əsasən yuxarı məhkəmələr tərəfindən eyni iş üzrə bir tərəfin şikayəti əsasında tam, yaxud müəyyən hissədə yoxlanılaraq qanuni qüvvəsini almış məhkəmə qərarının, mübahisənin digər tərəfinin şikayəti əsasında təkrarən yoxlanılmasının mümkünlüyünə qiymətin verilməsidir.

28. Məhkəmələr tərəfindən bu şəkildə təkrar yoxlamanın həyata keçirilməsi iş üzrə tərəflərin məhkəmə qərarlarından şikayət vermək hüququnun məhdudlaşdırılmasının yolverilməzliyi ilə əsaslandırılır.

29. Məhkəmə tərkibi istinad edilən əsaslandırma ilə razılaşmayaraq, hesab edir ki qeyd edilən məsələ üzrə düzgün hüquqi yanaşmanın müəyyən edilməsi üçün ilk növbədə tərəflərin şikayət vermə hüquqları ilə hüquqi müəyyənlik və məhkəmə qərarlarının sabitliyi prinsiplərinə və onların qarşılıqlı təsirinə aydınlıq gətirilməlidir.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hüquqi mövqeyi

30. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun M.İbrahimovanın şikayəti üzrə 2017-ci il 08 iyun tarixli qərarında Konstitusiyanın 60-cı maddəsinin I hissəsinə istinad edilərək qeyd edilmişdir ki, hər kəsin hüquq və azadlıqlarının inzibati qaydada və məhkəmədə müdafiəsinə təminat verilir. Məhkəmə müdafiəsi hüququ hər kəsin hüquqlarının əsas müdafiə forması olmaqla, tərəflərin mövcud hüquq və vəzifələrinin müəyyən edilməsini və qanunun düzgün tətbiqini tələb edir. MPM-in 4.1-ci maddəsində də hər kəsin qanunla müəyyən edilmiş qaydada məhkəməyə müraciət etmək hüququ nəzərdə tutulmuşdur. Həmin maddəyə əsasən, bütün fiziki və hüquqi şəxslər özlərinin qanunla qorunan hüquq və azadlıqlarını, eləcə də maraqlarını qorumaq və təmin etmək məqsədi ilə qanunla müəyyən edilmiş qaydada məhkəmə müdafiəsindən istifadə etmək hüququna malikdirlər.

31. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu MPM-in 420-ci maddəsinin şərh edilməsinə dair 2012-ci il 28 fevral tarixli qərarında qeyd etmişdir ki, məhkəməyə müraciət etmək hüququnun təmin edilməsi, öz növbəsində pozulmuş hüquq və azadlıqları qanunvericilikdə nəzərdə tutulan hədlər çərçivəsində səmərəli müdafiə və bərpa edə bilən ədalət mühakiməsinin həyata keçirilməsini şərtləndirir. Ədalət mühakiməsi vasitəsilə insan hüquq və azadlıqlarının təminatı sisteminin universal xarakteri, həmçinin şəxsin qanunsuz və əsassız məhkəmə qərarlarından müdafiə olunması məqsədilə müvafiq məhkəmələrə şikayət etmək imkanlarını əhatə edir.

32. Qeyd olunmalıdır ki, məhkəmə müdafiəsi hüququ mütləq deyil və prosessual qanunvericiliklə nəzərdə tutulmuş hədləri vardır. Pozulmuş və ya mübahisəli mülki hüquqların müdafiəsi mülki prosessual qanunvericiliyin müvafiq maddələrinə uyğun olaraq həyata keçirilməlidir. Yəni, şikayət hüququ olan şəxslərin hüquqlarının bərpası üçün nəzərdə tutulmuş şikayətin verilməsindən ibarət prosessual təminatın həyata keçirilməsi qanunvericilikdə müəyyən edilmiş məhkəmə sisteminin mahiyyətinə xələl gətirməməlidir.

33. Konstitusiya Məhkəməsinin Plenumu istinad edilən qərarında vurğulamışdır ki, məhkəmə aktlarından apelyasiya şikayəti verilməsi qanuni qüvvəyə minməmiş məhkəmə aktlarına yenidən baxılmasına imkan yaradır və birinci instansiya məhkəmələrində qəbul edilmiş qətnamə və qərardadların qanuniliyini və əsaslılığını yoxlamaq məqsədi daşıyır. Birinci instansiya məhkəməsinin aktlarına apelyasiya instansiyası məhkəməsi tərəfindən yenidən baxılması işdə iştirak edən şəxslərin hüquqlarının və qanuni mənafelərinin təsdiq edilməsinin mühüm təminatı olmaqla, artıq qəbul edilmiş, lakin qanuni qüvvəyə minməmiş məhkəmə aktlarının mümkün qədər tez yoxlanılması üsuludur.

34. Konstitusiya Məhkəməsinin Plenumu məhkəmə qərarlarının stabilliyi prinsipinə riayət edilməsinə xüsusi önəm verərək, Azərbaycan Respublikası İnzibati Prosessual Məcəlləsinin 28-ci maddəsinin şərh edilməsinə dair 2017-ci il 12 aprel tarixli Qərarında da göstərmişdir ki, qanuni qüvvəyə minmiş məhkəmə qərarlarının ləğvi və ya dəyişdirilməsi üçün əsaslar konstitusiya əhəmiyyətli məqsədlərə cavab verməli, hüquqi müəyyənlik və mütənasiblik prinsiplərinə uyğun olaraq məhkəmə qərarının ədalətliliyini, stabilliyini və tarazlığını pozmamalıdır.

35. Konstitusiya Məhkəməsi tərəfindən formalaşdırılmış hüquqi mövqeyə görə, qanuni qüvvəyə minmiş məhkəmə aktlarının qanunvericilikdə nəzərdə tutulmuş müddətlər çərçivəsində deyil, qeyri-məhdud zaman kəsiyində mübahisələndirilməsi imkanının mövcudluğu illüziyasını yaradan vəziyyət, hüquqi müəyyənliyin tərkib hissəsi olan “res judicata” prinsipinin, ədalət mühakiməsinin ağlabatan müddətdə həyata keçirilməsi tələbinin inkar edilməsilə yanaşı, artıq həll olunmuş mübahisə üzrə qanuni qüvvəyə minmiş məhkəmə qərarlarının sabitliyinə, davamlılığına xələl gətirir.

36. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumunun MPM-in 403.2-ci maddəsinin şərh edilməsinə dair 2020-ci il 24 iyul tarixli Qərarında da qeyd edilmişdir ki, MPM-in mülki məhkəmə icraatının vəzifələrini təsbit edən 2-ci maddəsinə görə, mülki işlər və kommersiya mübahisələri üzrə məhkəmə icraatının vəzifələri hər bir fiziki və yaxud hüquqi şəxsin Konstitusiyadan, qanunlardan və digər normativ hüquqi aktlardan irəli gələn hüquq və mənafelərinin məhkəmədə təsdiq olunmasıdır. Məcəllənin 4.1-ci maddəsinə əsasən isə bütün fiziki və hüquqi şəxslər özlərinin qanunla qorunan hüquq və azadlıqlarını, eləcə də maraqlarını qorumaq və təmin etmək məqsədi ilə qanunla müəyyən edilmiş qaydada məhkəmə müdafiəsindən istifadə etmək hüququna malikdirlər. Göründüyü kimi, bu maddələrdə fiziki və hüquqi şəxslərin hər cür mənafe və maraqlarının müdafiəsindən deyil,

qanunlardan və digər normativ hüquqi aktlardan irəli gələn, başqa sözlə, qanunla qorunan mənafe və maraqlardan bəhs olunur. Həmçinin ümumi hüquq nəzəriyyəsində, eləcə də beynəlxalq hüquqi aktlarda bu hüququn, müəyyən hallar nəzərə alınaraq, məhdudlaşdırılmasına yol verilir. Belə ki, məhkəmə müdafiəsi hüququnun vacibliyinə baxmayaraq, o mütləq xarakter daşımır və qanunvericilik tərəfindən müəyyən edilmiş hədlərdə konkret məhdudiyyətlərə məruz qala bilər. Lakin məhkəmə müdafiəsi hüququnu məhdudlaşdıran tədbirlər Konstitusiyanın 60-cı maddəsinin I hissəsinin və 71-ci maddəsinin II hissəsinin, habelə "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununun 3-cü maddəsinin müddəaları baxımından legitim məqsədlərə nail olmaq üçün tətbiq edilməli, mütənasiblik meyarına cavab verərək onun əsas mahiyyətinə toxunmamalıdır (Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 231.1-ci maddəsinin bəzi müddəalarının şərh edilməsinə dair" 2015-ci il 22 may tarixli qərarı). Qərarda Konstitusiya Məhkəməsinin Plenumu mülki prosessual qanunvericilikdə nəzərdə tutulmuş məhdudiyyətlərlə bağlı qeyd edir ki, hüquq və vəzifələrin həcminin prosessual qaydalar çərçivəsində məhdudlaşdırılması hüquqi müəyyənlik prinsipinin təmin edilməsinə, məhkəmə icraatı zamanı işdə iştirak edən şəxslərin qarşılaşa biləcəkləri hüquqi qeyri-müəyyənliyin aradan qaldırılmasına, ədalət mühakiməsinin daha səmərəli və ədalətli həyata keçirilməsinə xidmət edir. Eyni zamanda yalnız qanunvericilik səviyyəsində müəyyən oluna biləcək belə məhdudiyyətlər Konstitusiyada təsbit olunmuş hüquq və azadlıqları ləğv etməməlidir. Bu məhdudiyyətlər hər hansı şəxsin iradəsindən asılı olmayaraq, müvafiq hüquqa mütənasib şəkildə qanunvericinin müəyyən etdiyi hədlər çərçivəsində düzgün tətbiq edilməlidir. MPM-də məhkəmə müdafiəsi hüququnu məhdudlaşdıran şikayətin mümkünlüyü, prosessual müddətlər, məhkəmə qərarlarından şikayət verə biləcək konkret şəxslərin dairəsi və s. amillər nəzərdə tutulmuşdur.

37. Beləliklə, Konstitusiya Məhkəməsi qərarlarında nümayiş etdirdiyi hüquqi mövqeyə əsasən, məhkəmə müdafiəsi prosedurunun və konkret formasının seçilməsi məhkəmə qərarının qanuni qüvvəsini təmin edən, müxtəlif məhkəmə aktlarının kolliziyasının istisna edilməsinə yönələn məhkəmə qərarlarının stabilliyi prinsipi nəzərə alınmaqla həyata keçirilməlidir. Belə ki, bu prinsip məhkəmə aktlarının bir-birinə zidd olmamasının, eləcə də hüquqi müəyyənlik prinsipinin təmin edilməsinə yönəlir.

İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin mövqeyi

38. İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent təcrübəsində "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın (bundan sonra – Avropa Konvensiyası) 6-cı maddəsinin tələbləri baxımından "res judicata" prinsipinə hörmət edilməsini ehtiva edən qanuni qüvvəyə minmiş məhkəmə qərarlarının bir qayda olaraq dəyişdirilmədən saxlanılmasını nəzərdə tutan preyudisiallıq və qanunun aliliyinin fundamental aspektlərindən olan hüquqi müəyyənlik prinsiplərinin təmin edilməsinə xüsusi önəm verilmiş, yalnız məhkəmə səhvlərinin düzəldilməsi və işin düzgün həlli üçün əhəmiyyət kəsb edən hallar aşkar olunduqda belə qərarlara yuxarı instansiya məhkəməsi tərəfindən yenidən baxılmasının mümkünlüyü əks olunmuşdur (Xotulyeva Rusiya Federasiyasına qarşı iş üzrə 2009-cu il 30 iyul tarixli, Kondraşov və digərləri Rusiya Federasiyasına qarşı iş üzrə 2009-cu il 8 yanvar tarixli qərarlar). Hüququn aliliyinin əsas aspektlərindən biri olan hüquqi müəyyənlik prinsipi digərləri ilə yanaşı tələb edir ki, məhkəmələr tərəfindən tamamilə həll edilmiş iş üzrə qəbul olunan yekun qərar şübhə doğurmamalıdır (Brumaresku Rumıniyaya qarşı" iş üzrə 1999-cu il 28 oktyabr tarixli qərar). Hüquqi müəyyənlik, "res judicata" prinsipinə

hörməti (yəni bir dəfə həll edilmiş işə təkrar baxılmanın yolverilməzliyini) nəzərdə tutur. Prinsip onu əks etdirir ki, tərəflərdən heç biri yalnız işə təkrar baxılması və yeni qərara nail olmaq məqsədilə yekun, qanuni qüvvəyə minmiş qərara yenidən baxılmanı tələb edə bilməz. İşə yenidən baxılması üzrə yuxarı məhkəmə instansiyasının səlahiyyəti işə mahiyyəti üzrə yenidən baxmaq məqsədi ilə deyil, məhkəmə səhvlərini, ədalət mühakiməsinin qeyri-düzgün aparılmasını aradan qaldırmaq məqsədilə həyata keçirilməlidir. Yenidən baxma şikayətin gizli forması hesab edilə bilməz, eyni zamanda, yalnız bir məsələyə dair iki yanaşmanın mövcud olması yenidən baxma üçün əsas ola bilməz. Yalnız əsaslı və qarşısıalınmaz xarakterli hallara görə məcburiyyət qarşısında qalma bu prinsipdən geri çəkilməyə haqq qazandırır (Ryabıx Rusiyaya qarşı iş üzrə 2003-cü il 24 iyul tarixli qərar).

39. Şikayət hüququ Avropa Konvensiyasının 6-cı maddəsinin prizması baxımından da mütləq hüquq hesab edilmir. Belə ki, Konvensiya mülki icraat çərçivəsində ümumiyyətlə apelyasiya hüququnu nəzərdə tutmamışdır. Avropa Məhkəməsi formalaşdırdığı presedent hüququ ilə apelyasiya icraatının 6-cı maddədəki təminatlar baxımından qiymətləndirilməsinin mümkünlüyünü daxili qanunvericilikdə apelyasiya hüququnun nəzərdə tutulduğu halla şərtləndirmişdir (Delkur Belçikaya qarşı iş üzrə qərarı). Eyni zamanda qeyd etmişdir ki, apelyasiya icraatında bu təminatların tətbiq edilmə üsulu həmin proseslərin konkret xüsusiyyətlərindən asılıdır və bu zaman məhkəmə bütövlükdə dövlətdaxili hüquq sistemində həyata keçirilən proseslər, apelyasiya instansiyası məhkəməsinin hüquqi və praktiki funksiyaları, eləcə də tərəflərin səlahiyyətləri və onların maraqlarının hansı üsulla təmsil olunması və müdafiə edilməsini nəzərə almalıdır. Avropa Məhkəməsinin formalaşdırdığı presedent hüququna əsasən məhkəməyə müraciət etmək hüququ mütləq hüquq hesab edilmədiyindən məhdudlaşdırıla bilər. Lakin məhdudiyyətlər bu hüququn icrasını onun əsl mahiyyətini zədələyəcək şəkildə və miqyasda məhdudlaşdırmamalıdır. Onlar qanuni məqsəd daşımalı və istifadə edilən vasitələrlə qarşıya qoyulan məqsəd arasında müvafiq mütənasiblik olmalıdır (Qeren Fransaya qarşı və Omar Fransaya qarşı işləri üzrə qərarlar).

40. Avropa Məhkəməsi bir sıra qərarlarında yuxarı instansiya məhkəmələrində aparılan icraatın mümkünlüyü və hədlərinin qanuni məhdudiyyətlərə məruz qala bilməsini də yolverilən hesab etmişdir. Golder Birləşmiş Krallığa qarşı iş üzrə Qərarında Avropa Məhkəməsi göstərmişdir ki, məhkəməyə əlçatanlıq hüququ mütləq deyil və dolayı şəkildə yol verilən məhdudiyyətlərə məruz qala bilər. Bu xüsusilə də şikayətin mümkünlük şərtlərinə aiddir, çünki bu məsələ təbiət etibarı ilə, həmin sahədə müəyyən mülahizə sərbəstliyinə malik olan Dövlət tərəfindən tənzimlənmə tələb edir (Luordo İtaliyaya qarşı iş üzrə 2003-cü il 17 oktyabr tarixli qərar).

Məhkəmə tərkibinin mövqeyi

41. Qeyd edilənlər baxımından məhkəmə tərkibi belə qənaətə gəlir ki, məhkəmələrin eyni iş üzrə bir tərəfin şikayəti əsasında tam, yaxud müəyyən hissədə yoxlanılaraq qanuni qüvvəsini almış məhkəmə qərarının mübahisənin digər tərəfinin şikayəti əsasında təkrarən yoxlanılması hüquqi müəyyənlik prinsipinə zidd olduğundan, bu şikayətlərə baxılması yolverilməz hesab edilməklə geri qaytarılmalıdır.

42. Məhkəmə tərkibi qeyd edir ki, şikayətin bu əsasla geri qaytarılması apelyasiya instansiyası məhkəmələri tərəfindən şikayətin mümkünlüyünün yoxlanılması mərhələsində, onun qeyri-mümkün hesab edilməsinə dair qərardadın qəbulu yolu ilə, kassasiya instansiyası məhkəməsi tərəfindən isə şikayətin icraata qəbulu mərhələsində şikayətin icraata qəbulundan imtina haqqında qərardadın qəbulu yolu ilə həyata keçirilməlidir.

43. Apelyasiya instansiyası məhkəməsi birinci instansiya məhkəməsindən fərqli olaraq, şikayətin mümkünlük məsələsini yoxlayarkən onun MPM-in 361-ci maddəsində əks olunmuş formal tələblərə cavab verməsini qiymətləndirməklə yanaşı, verilmiş şikayətə apelyasiya qaydasında baxılması üçün prosessual əsasların olub-olmamasını da yoxlamalıdır. Belə ki, MPM-in 366.1-ci maddəsinə əsasən apelyasiya instansiyası məhkəməsi iş məhkəməyə daxil olduqdan sonra 15 gün müddətində apelyasiyanın mümkünlüyünü yoxlayır. Buraya işə apelyasiya qaydasında baxılmaq üçün prosessual əsasların olması daxildir. Bu Qərardadın 27-ci bəndində istinad edilən hallarda da, verilmiş yeni şikayət artıq daha əvvəl baxılaraq hüquqi qiymət verilmiş hissə ilə bağlı olduğundan, həmin şikayətə apelyasiya qaydasında baxılması üçün prosessual əsasların olmamasına görə şikayət qeyri-mümkün hesab edilməlidir.

44. Apelyasiya instansiyası məhkəməsi qeyri-mümkünlük haqqında qərardadı qəbul etməklə yanaşı, şikayət verən tərəfə mübahisələndirmək istədiyi həmin hissənin kassasiya qaydasında yoxlanılmadığı halda kassasiya şikayəti vermək hüququnu izah etməlidir. Belə ki, hər bir halda apelyasiya instansiyası məhkəməsi özünün qanuni qüvvədə olan və mübahisələndirilməyən qətnaməsi mövcud olduğu halda işə eyni hissədə digər tərəfin şikayəti əsasında yenidən baxmaqla həmin qətnamə ilə müəyyən edilmiş halları təkzib edə biləcək yeni qətnamə çıxarmaq imkanına malik olmadığından, həmin iş üzrə apelyasiya instansiyası məhkəməsinin qətnaməsi yalnız kassasiya instansiyası məhkəməsində mübahisələndirilə bilər. Çünki, məhkəmənin qəbul etdiyi qərarın hüquqa zidd olduğunu və onun qanuni qüvvəsini itirməsini yalnız qanunla müəyyən edilmiş qaydada müvafiq yuxarı instansiya məhkəməsi müəyyən edə bilər (Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun M.İbrahimovanın şikayəti üzrə 2017-ci il 08 iyun tarixli Qərarı).

45. Nəzərə alınmalıdır ki, qeyri-mümkünlük haqqında qərardaddan yuxarı instansiya məhkəməsinə şikayət nəzərdə tutulduğundan, sonuncunun apelyasiya şikayətinin qeyri-mümkünlüyünün qanuniliyinə qiymət vermək imkanı olacaqdır. Belə ki, MPM-in 366.4 və 402-ci maddələrinə əsasən apelyasiyanın qeyri-mümkün hesab edilməsi barədə qərardaddan kassasiya instansiyasına şikayət verilə bilər.

46. Analoji yanaşma bu Qərardadın 27-ci bəndində istinad edilən halda verilmiş kassasiya şikayətlərinə münasibətdə də tətbiq edilməlidir. Belə ki, kassasiya instansiyası məhkəməsi kassasiya şikayətinin icraata qəbulunun mümkünlüyünü yoxlayarkən, onun MPM-in 407-ci maddəsində əks olunmuş formal tələblərə cavab verməsini qiymətləndirməklə yanaşı, verilmiş şikayətə kassasiya qaydasında baxılması üçün prosessual əsasların olub-olmamasını da müəyyən etməlidir. Odur ki, apelyasiya instansiyası məhkəməsinin qətnaməsi hissəvi, yaxud tam şəkildə kassasiya qaydasında yoxlanıldığı və verilmiş yeni kassasiya şikayəti artıq baxılaraq hüquqi qiymət verilmiş hissə ilə bağlı olduğu halda, həmin şikayətə kassasiya qaydasında baxılması üçün prosessual əsasların olmamasına görə kassasiya instansiyası məhkəməsi tərəfindən MPM-in 411-ci maddəsinə əsasən şikayətin icraata qəbulundan imtina edilməli və şikayət geri qaytarılmalıdır.

47. Məhkəmə tərkibi vurğulayır ki, işdə iştirak edən şəxslərin belə hallarda məhkəmə aktlarından verdiyi şikayətin geri qaytarılması mütləq qaydada birinci, apelyasiya və kassasiya instansiyası məhkəmələri tərəfindən qanunvericiliyin müəyyən etdiyi aşağıda qeyd edilən prosessual təminatlara ciddi şəkildə riayət edilməsini tələb edir.

48. Bununla bağlı ilk növbədə qeyd edilməlidir ki, bütün instansiya məhkəmələrində mülki prosessual qanunvericiliyin mübahisə tərəflərinin məhkəmə iclasının vaxtı və yeri barədə rəsmi qaydada məlumatlandırılmasına dair tələbinə prosessual təminat hüququnun ayrılmaz tərkib hissəsi kimi riayət edilməlidir. Həmçinin, məhkəmə sənədlərinin işdə iştirak edən şəxslərə çatdırılması və rəsmi qaydada verilməsinə dair MPM-in 135-138-ci maddələrinin tələbləri, eləcə də həmin sənədlərin "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə elektron qaydada çatdırılması imkanlarından istifadənin yolverilənliyi də nəzərə alınmalıdır. Bu, proses iştirakçılarının öz hüquqlarının müdafiəsinə imkan verməklə yanaşı, istinad edilən kolliziyaların yaranmasının da qarşısını almış olacaqdır. Avropa Məhkəməsi öz presedent hüququnda dəfələrlə qeyd etmişdir ki, Konvensiya nəzəri və ya xəyali hüquqları deyil, praktiki və səmərəli hüquqları təmin etməyə yönəlib. İş üzrə tərəf məhkəmə iclasında iştirak etmək imkanına malik olduğu tərzdə məlumatlandırılmadığı halda ədalətli və açıq məhkəmə araşdırılması hüququ mahiyyətindən məhrum edilmiş olur (Qroşev Rusiyaya qarşı iş üzrə 2005-ci il 20 oktyabr tarixli Qərar). Odur ki, məhkəmə qərarlarının apelyasiya və kassasiya instansiyalarında şikayətin dəlilindən asılı olmayaraq, bu kobud prosessual pozuntunun olmasını yoxlayaraq, qətnaməni bu əsasla ləğv etməsi gələcəkdə bu Qərardadın qəbul edilməsi əsasını təşkil edən halların mövcudluğunun da qarşısını almış olacaqdır.

49. Daha sonra, tərəflərin hər birinə şikayət verməklə bağlı bərabər imkanların yaradılması baxımından əhəmiyyətli olan şikayət daxil olduqdan sonra işin yuxarı instansiya məhkəməsinə göndərilməsi müddətlərinə dair MPM-in 364 və 409-cu maddələrinin tələblərinə riayət edilməlidir. Belə ki, birinci və apelyasiya instansiyası məhkəmələri şikayətin MPM-in aidiyyəti üzrə 361 və 407-ci maddələrinin tələblərinə uyğunluğunu yoxladıqdan sonra ilk daxil olan şikayəti yuxarı instansiya məhkəməsinə mütləq şəkildə işdə iştirak edən bütün şəxslərə münasibətdə şikayət vermə müddətini gözlədikdən sonra göndərməlidir. Bu qaydaya riayət edilmədiyi halda yuxarı instansiya məhkəməsi həmin müddətin gözlənilməsi ilə bağlı prosessual tələblərə riayət edilməsinin təmin edilməsi üçün işi icraata qəbul etmədən müvafiq aşağı instansiya məhkəməsinə geri qaytarmalıdır. Bu mövqe, kassasiya şikayətinin icraata qəbul olunmasından sonra digər şəxslərin kassasiya şikayəti ilə apelyasiya məhkəməsinə müraciət edildiyi halda işin baxışdan çıxarılması ilə bağlı olan MPM-in 417.1.7-ci maddəsinin tələbləri ilə də uzlaşır.

50. Apelyasiya və kassasiya məhkəmələri tərəfindən şikayətin mümkün hesab edilərək, icraata qəbul edilməsindən sonra MPM-in aidiyyəti üzrə 367, 368 və 412, 415-ci maddələri ilə nəzərdə tutulmuş vəzifələr müvafiq qaydada icra edilməlidir.

51. Məhkəmələr şikayətin surətinin tərəflərə göndərilməsi və məhkəmə iclasının keçirilməsi vaxtının qeyd edildiyi bildirişdə MPM-in 139.2.7-1-ci maddəsinin tələblərinə uyğun olaraq, izah edilməli prosessual hüquqlar və vəzifələr çərçivəsində verilmiş şikayətin obyektinin işdə iştirak edən digər şəxslərin mənafeyinə toxunduğu hallarda həmin şəxslərin şikayət vermək hüquqlarından vaxtında istifadə etməmələrinin, habelə dəlillərini irəli sürməmələrinin sonradan şikayət vermə hüquqlarının məhdudlaşdırılması ilə nəticələnəcəyini xüsusi olaraq izah etməlidir.

52. MPM-in 403.1-ci maddəsinə əsasən apelyasiya instansiyası məhkəməsinin qətnamələrindən və qərardadlarından tərəflər, üçüncü şəxslər, xüsusi icraat işləri üzrə isə ərizəçi və maraqlı şəxslər tələbləri təmin olunmadığı hallarda şikayət verə bilərlər. Məhkəmə tərkibi xüsusi olaraq qeyd edir ki, istinad edilən maddə, bu Qərardadın 43-cü bəndində qeyd edilən əsaslarla apelyasiya şikayətinə baxılması yolverilməz hesab edilən şəxsin apelyasiya şikayəti vermədən kassasiya şikayəti vermək hüququna maneə kimi qiymətləndirilməməli və kassasiya şikayətinin icraata qəbulundan bu əsasla imtina edilməməlidir.

53. Belə ki, aşağı instansiya məhkəmələrində məhkəmə iclasının keçirilməsi yeri və vaxtı barədə məlumatlandırılmaması, yaxud da qəbul edilmiş məhkəmə aktının lazımi qaydada verilməməsi səbəbindən apelyasiya şikayət vermək imkanı olmamış şəxslərin, habelə apelyasiya şikayəti versə də, artıq qətnamənin həmin hissəsinin yoxlanılması əsası ilə şikayəti qeyri-mümkün hesab edilmiş şəxslərin kassasiya şikayəti vermək hüququ tanınmalıdır. Həmin şəxslərin şikayətləri üzrə kassasiya icraatı, bu şikayətlər üzrə mübahisələndirilən hissələrin digər tərəfin şikayəti üzrə kassasiya qaydasında yoxlanılmadığı halda mümkün olacaqdır.

54. Kassasiya instansiyası məhkəməsi apelyasiya şikayəti vermək imkanı olmayan şəxsin kassasiya şikayəti üzrə apelyasiya instansiyası məhkəməsinin qətnaməsini yoxlayarkən ümumi prosessual qaydaya uyğun olaraq yalnız mübahisələndirilən hissəyə qiymət verməlidir. Kassasiya şikayəti üzrə yoxlamanın həyata keçirilməsi zamanı kassasiyanın əsasını apelyasiya instansiyası məhkəməsi tərəfindən maddi hüquq normalarının pozulması və ya düzgün tətbiq edilməməsi təşkil etdikdə, kassasiya məhkəməsi öz səlahiyyətləri çərçivəsində maddi hüquq normalarının düzgün tətbiq olunub-olunmadığını bu dəlillərin digər tərəfin şikayəti üzrə apelyasiyanın predmetini təşkil edib-etməməsindən asılı olmayaraq yoxlamalıdır.

55. Kassasiya məhkəməsi tərəfindən apelyasiya instansiyası məhkəməsinin qətnaməsi mübahisələndirilən hissədə ləğv edilərək, yeni apelyasiya baxışına göndərilməsi ilə bağlı qərar qəbul edildikdə, apelyasiya instansiyası məhkəməsi işə təkrarən əvvəl verilmiş apelyasiya şikayəti üzrə və onun mübahisələndirdiyi baxış həddində baxmalıdır. Bununla yanaşı, apelyasiya şikayəti vermək imkanı olmamış şəxs yeni apelyasiya icraatı zamanı prosessual normaların tələblərinə uyğun qaydada apelyasiya şikayəti verərsə, şikayət icraata qəbul edilməli və onun dəlilləri üzrə də yoxlama həyata keçirilməlidir.

56. Kassasiya instansiyası məhkəməsi apelyasiya instansiyası məhkəməsi tərəfindən məhkəmə aktının baxış hədlərindən kənara çıxmaqla yoxladığını müəyyən etdiyi halda, işi həmin hissədə yeni apelyasiya baxışına göndərmədən sadəcə qətnamənin həmin hissədə ləğv edilməsi haqqında qərar qəbul etməli və şikayət vermiş tərəfə prosessual qanunvericiliyə uyğun olaraq apelyasiya şikayəti vermək hüququnu izah etməlidir.

57. Apelyasiya məhkəməsinin qətnaməsinin kassasiya qaydasında tam və yaxud qismən yoxlanıldığı halda isə, yoxlanılan həmin hissə ilə bağlı digər şəxsin kassasiya şikayətinə baxılması mümkünsüz olacaqdır. Belə ki, kassasiya instansiyası məhkəməsi özünün qanuni qüvvədə olan və mübahisələndirilməyən qərarını yenidən yoxlamaq imkanına malik deyildir.

58. Bu baxımdan, məhkəmə tərkibi bir daha vurğulamağı məqsədəuyğun hesab edir ki, bütün instansiya məhkəmələrində olduğu kimi kassasiya icraatında da prosessual qanunvericiliyin verdiyi imkanlardan istifadə etməklə, tərəflərin məhkəmə iclasının keçirilməsi yeri və vaxtı barədə məlumatlandırılmasından ibarət mühüm vəzifənin icrasına riayət edilməlidir. Belə ki, bu vəzifələrin lazımi qaydada icra edilməməsi işdə iştirak edən şəxslərin hüquqlarının müdafiəsi imkanından məhrum edilməsi ilə nəticələnə bilər.

59. Eyni zamanda qeyd edilməlidir ki, məhkəmələr mübahisələndirilən hissəni müəyyən edərkən şikayətin nəticə hissəsində aktın tam və yaxud qismən ləğvinin tələb edilib-edilməməsindən asılı olmayaraq, mübahisələndirilən hissəni şikayətin dəlilləri və şikayət verən şəxsin müvafiq hissəni mübahisələndirməsi ilə bağlı subyektiv hüququnun olub-olmaması baxımından müəyyən etməlidir. Əks halda, bu, bir tərəfdən şikayət verən şəxsin faktiki olaraq mübahisələndirmədiyi hissənin dispozitivlik prinsipinə zidd olaraq yoxlanılması, digər tərəfdən isə məhkəmə aktından şikayət verməmiş digər şəxslərin hüquqlarının əsassız məhdudlaşdırılması ilə nəticələnəcəkdir. Təsadüfi deyil ki, MPM-in 372.6-cı maddəsi birinci instansiya məhkəməsinin qətnaməsinin əsaslılığını onun həm düzünə, həm də dolayısı ilə mübahisələndirilən hissəsində yoxlanılmasını nəzərdə tutur.

60. O da qeyd edilməlidir ki, apelyasiya və kassasiya instansiyası məhkəmələri qəbul etdikləri aktların əsaslandırıcı hissəsində aşağı instansiyası məhkəməsinin qərarının hansı hissədə yoxladıqlarını aydın ifadə etməli, məhkəmə aktını hissəvi yoxladıqda isə nəticə hissəsində hansı hissənin ləğv edildiyini, dəyişdirildiyini və yaxud dəyişdirilmədən saxlanıldığını xüsusi olaraq göstərməli, dəyişdirilmədən saxlanılan hissənin isə mübahisələndirilib-mübahisələndirilmədiyinə diqqət yetirməlidilər.

61. Odur ki, işdə iştirak edən şəxslərin məhkəmə aktlarından verdikləri şikayətlərinin yuxarıda istinad edilən prosessual təminatların tətbiq edildiyi halda geri qaytarılması hüquqi müəyyənliyin və məhkəmə qərarlarının sabitliyinin təmin edilməsi kimi qanuni məqsədlər daşıdığından, qarşıya qoyulan məqsədə mütənasib olduğundan, habelə həmin müdaxilə cəmiyyətin ümumi maraqlarının tələbləri ilə şəxsin əsas hüquqlarının müdafiəsi tələbləri arasında ədalətli tarazlığı qoruyub saxladığından və qanunilik prinsipinin tələblərinə cavab verdiyindən yolverilən hesab edilməlidir.

62. Yuxarıda göstərilənlərə əsasən, Ali Məhkəmənin Mülki və Kommersiya kollegiyalarının hakimlərindən ibarət məhkəmə tərkibi kassasiya instansiyası məhkəməsində icraat zamanı aşkar edilmiş mübahisəli hüquqi məsələyə baxaraq, belə qənaətə gəlir ki apelyasiya və kassasiya qaydasında məhkəmə aktları müvafiq olaraq şikayətə və ya şikayəti verən şəxsə münasibətdə deyil, mübahisələndirilən hissədə yoxlanılmalıdır. Məhkəmə aktlarının bir tərəfin (və ya tərəflərin) apelyasiya və ya kassasiya şikayəti əsasında yoxlanılmış hissələrinin, sonradan şikayət vermiş tərəfin şikayəti üzrə təkrarən apelyasiya və ya kassasiya qaydasında yoxlanılması yolverilməzdir. Məhkəmə aktlarının apelyasiya qaydasında yoxlanılmış hissələrindən verilmiş apelyasiya şikayəti (və ya şikayətləri) MPM-in 366.2-ci maddəsinə əsasən apelyasiya instansiyası məhkəməsi tərəfindən qeyri-mümkün hesab edilməlidir. Məhkəmə aktlarının kassasiya qaydasında yoxlanılmış hissələrindən verilmiş kassasiya şikayətinin (və ya şikayətlərinin) icraata qəbulundan kassasiya instansiyası məhkəməsi tərəfindən MPM-in 411-ci maddəsinə əsasən imtina edilməlidir.

Beləliklə, Ali Məhkəmənin Mülki və Kommersiya kollegiyalarına daxil olan bütün hakimlərdən ibarət məhkəmə tərkibi MPM-in 418-1.1-ci maddəsini rəhbər tutaraq

Q Ə R A R A A L D I:

1. Apelyasiya və kassasiya qaydasında məhkəmə aktları müvafiq olaraq şikayətə və ya şikayəti verən şəxsə münasibətdə deyil, mübahisələndirilən hissədə yoxlanılmalıdır.

2. Məhkəmə aktlarının bir tərəfin (və ya tərəflərin) apelyasiya və ya kassasiya şikayəti əsasında yoxlanılmış hissələrinin, sonradan şikayət vermiş digər tərəfin şikayəti üzrə təkrarən apelyasiya və ya kassasiya qaydasında yoxlanılması yolverilməzdir.

3. Məhkəmə aktlarının apelyasiya qaydasında yoxlanılmış hissələrindən verilmiş apelyasiya şikayəti (və ya şikayətləri) apelyasiya instansiyası məhkəməsi tərəfindən Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 366.2-ci maddəsinə əsasən qeyri-mümkün hesab edilməlidir.

4. Məhkəmə aktlarının kassasiya qaydasında yoxlanılmış hissələrindən verilmiş kassasiya şikayətinin (və ya şikayətlərinin) icraata qəbulundan kassasiya instansiyası məhkəməsi tərəfindən Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 411-ci maddəsinə əsasən imtina edilməlidir.

5. Qərardad Azərbaycan Respublikası Ali Məhkəməsinin rəsmi internet səhifəsində və Azərbaycan Respublikası Ali Məhkəməsinin Bülletenində dərc edilsin.

Sədrlik edən Sənan Hacıyev

**Məhkəmələrin fəaliyyətinin monitorinqinin aparılması üzrə**

**Planın təsdiq edilməsinə dair**

**Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun**

**Q Ə R A R I**

**N 11**

**18 Sentyabr 2020-ci il** **Bakı şəhəri**

"Məhkəmələr tərəfindən maddi və prosessual hüquq normalarının tətbiqində sistemli xarakter daşıyan nöqsanların müəyyən edildiyi sahədə məhkəmələrin fəaliyyətinin monitorinqinin aparılması Qaydası"nın 2.1-ci bəndini rəhbər tutaraq

**QƏRARA ALDI**

"Valideynlərin və digər qohumların uşaqla ünsiyyətdə olmaq hüquqları ilə əlaqədar qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsi haqqında" Ali Məhkəmə Plenumunun 2011-ci il 28 oktyabr tarixli (2020-ci il fevralın 20-də edilmiş dəyişikliklərlə) Qərarının tətbiqi ilə bağlı məhkəmələrin fəaliyyətinin monitorinqinin aparılması üzrə Plan təsdiq edilsin.

**"Valideynlərin və digər qohumların uşaqla ünsiyyətdə olmaq hüquqları ilə əlaqədar qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsi haqqında" Ali Məhkəmə Plenumunun 2011-ci il 28 oktyabr tarixli (2020-ci il fevralın 20-də edilmiş dəyişikliklərlə) Qərarının tətbiqi ilə bağlı məhkəmələrin fəaliyyətinin monitorinqinin aparılması üzrə**

**P L A N**

Əhatə dairəsi: Bakı şəhəri üzrə rayon məhkəmələri və Bakı Apellyasiya Məhkəməsi;

Aparılma üsulu: Məhkəmələrdən anket (*cavablandırılması nəzərdə tutulan suallar toplusuna dair sorğu*) məlumatlarının toplanması üsulu ilə
Müddəti: 1 il
Başlanma müddəti: 01.10.2020
Bitmə müddəti: 01.10.2021

***Ramiz Rzayev***

***Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri***

**“Validеynlərin və digər qohumların uşaqla ünsiyyətdə olmaq hüquqları ilə əlaqədar qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsi haqqında” Ali Məhkəmə Plenumunun 28.10.2011-ci il tarixli (20 fevral 2020-ci ildə edilmiş dəyişikliklərlə) Qərarının tətbiqi ilə bağlı məhkəmələrin fəaliyyətinin monitorinqinin aparılmasına dair**

## A N K E T

1. İşin nömrəsi________________________________________________________________
2. İşə baxan birinci instansiya məhkəməsi _____________________________________
3. İşə baxan hakim______________________________________________________________
4. İddiaçı (uşağa münasibətdə statusu) ________________________________________
5. Cavabdeh (uşağa münasibətdə statusu) ______________________________________
6. Üçüncü şəxs(lər)_____________________________________________________________
7. Müvafiq icra hakimiyyəti orqanı işə cəlb edilmişdirmi?______________________________
8. Uşaq (lar) (təvəllüdü və cinsi)____________________________________________
9. İddia tələbi _______________________________________________________________
10. İddiaçı qohum olmayan, lakin uşaqla bağlılığı olan şəxslərə (dayə və digər) aid olmuşdurmu?__________________________________________________________

**BİRİNCİ İNSTANSİYA MƏHKƏMƏSİNDƏKİ İCRAAT**

11. İddia ərizəsinin məhkəməyə daxil olma tarixi______________________________________
12. Məhkəmənin hazırlıq iclasının tarixi_____________________________________________
13. Digər qohumların uşaqlarla ünsiyyətdə olmaq hüququ ilə əlaqədar tələb birbaşa məhkəməyə verilmişdirmi?

    __________________________________________________________________________
14. Hazırki iş üzrə uşaqlarla ünsiyyətdə olmaq hüququ ilə bağlı tərəflər arasında əvvəllər bu kimi iddialar və qanuni qüvvəyə minmiş məhkəmə qətnamələri olmuşdurmu?____________
15. Uşaqla ünsiyyətə dair iddialara baxılıb yekun qərarın qəbul edilməsinədək iddianın təmin tədbirinin görülməsinə dair vəsatət verilmişdirmi?__________________________________
16. Vəsatətə baxılması üzrə məhkəmənin qərardadı___________________________________
17. Vəsatət təmin edildiyi halda iddianın təmin tədbiri qismində verilmiş minimal ünsiyyət həddi nə qədər olmuşdur?______________________________________________________
18. Vəsatət rədd edildiyi halda məhkəmənin əsaslandırması______________________________
19. İş üzrə müvafiq icra hakimiyyəti orqanının qəyyumluq və himayəçilik komissiyalarından rəyin alınmasına dair qəbul edilmiş qərardadın tarixi_________________________________

20. Qərardadın göndərildiyi tarix______________________________________________
21. Qərardadda qoyulmuş sualların məzmunu______________________________________
_____________________________________________________________________________
22. Rəyin məhkəməyə daxil olduğu tarix________________________________________
23. Rəyə iddiaçının həyat şəraitinə dair müayinə aktı əlavə edilmişdirmi?__________________
24. Rəyin nəticə hissəsinin məzmunu_____________________________________________
25. Müvafiq icra hakimiyyəti orqanı tərəfindən rəyin hazırlanması zamanı uşaqlar dinlənilmişdirmi?___________________________________________________________
26. İş üzrə təkrar rəy alınmışdırmı ? Alınmışdırsa əsasları nədən ibarət olmuşdur?___________
_____________________________________________________________________________
27. Təkrar rəyin nəticə hissəsinin məzmunu_______________________________________
28. Validеynlər arasında nikah ləğv edilmişdirmi ?____________________________________
29. İddiaçı rəsmi yoxsa faktiki nikahda olan valideyn olmuşdur ? _________________________
30. Uşaqların kimin yanında və yaxud himayəsində qalması məsələsi həll olunmuşdurmu?
_____________________________________________________________________________
31. Uşaqla birlikdə yaşamayan valideynin uşağın fiziki, psixi sağlamlığına, onun əxlaqi inkişafına zərər yetirib-yetirməməsi məsələsi araşdırılmışdırmı? _______________________
32. Uşağın ünsiyyət tələb edən valideynlə bağlılığının müəyyən edilməsi üçün psixoloji rəy alınmışdırmı? ____________________________________________________________
33. Cavabdehin iddiaya etirazının dəlilləri___________________________________________
_____________________________________________________________________________
34. Uşaqla ünsiyyətdə olma vaxtı müəyyən edilərkən işin bütün halları, o cümlədən ailədə neçə uşağın olması, onların yaşı, bağçaya, yaxud məktəbə gedib-getməməsi, səhhəti, hansı valideynə daha çox bağlılığı, onun mənəvi, psixi və fiziki inkişafına təsir edən digər amillər nəzərə alınmışdırmı (ayrı-ayrılıqda göstərilməklə)? _________________________________
_____________________________________________________________________________
35. Digər şəxslərin uşaq(lar)la ünsiyyətinə dair əvvəllər qətnamə qəbul edilmişdirmi? Qəbul edilmişdirsə qəbul edilmiş qətnamənin nəticəsi və hazırki işdə həmin qətnamə ilə verilmiş ünsiyyət vaxtı nəzərə alınmışdırmı? _______________________________________________
_____________________________________________________________________________
36. Uşaq məhkəmə baxışı dövründə dinlənilmişdirmi?__________________________________
37. Dinlənilmişdirsə məhkəmə uşağın fikrini və marağını öyrənib nəzərə almışdırmı? Nəzərə alınmamışdırsa məhkəmənin əsaslandırması________________________________________
_____________________________________________________________________________
38. Valideynlərdən biri başqa dövlətdə yaşayırmı? Valideynlərdən biri xarici dövlətdə yaşayırsa

bu halın mövcudluğu qərarın qəbulu zamanı nəzərə alınmışdırmı?_____________________

39. Ekstremel hallar (tutulduqda, həbs olunduqda, müalicə müəssisəsində yerləşdirildikdə və sair) ilə əlaqədar uşağın ünsiyyət hüququnun məhdudlaşdırılması halı olmuşdurmu?_______

40. İş üzrə məhkəmənin qəbul etdiyi qərarın nəticə hissəsinin məzmunu___________________

_____________________________________________________________________________

41. Uşaqların öz valideynləri və digər qohumları ilə ünsiyyətdə olmasının hansı forması və ya formaları (yazışma, şəxsi görüşlər, telefon danışıqları və s.) müəyyən edilmişdir ?________

_____________________________________________________________________________

42. Məhkəmənin qətnaməsində uşaqla görüşün (ünsiyyətin) yeri, vaxtı, müddəti, hansı şəraitdə keçirilməsi, eyni zamanda görüşdə iştirak edən şəxslərin dairəsi göstərilmişdirmi? ________

_____________________________________________________________________________

43. Uşaqla görüşün (ünsiyyətin) vaxtı müəyyən edilərkən uşağın ad günü, bayram günləri və digər xüsusi günlər qətnamə ilə əhatə edilmişdirmi?________________________________

_____________________________________________________________________________

44. Uşaqla ünsiyyətdə olmağın onun sağlamlığına zərər vurduğu hallarda görüşün məhdudlaşdırılması və ya qadağan olunması barədə qərar qəbul edildiyi halda məhkəmənin əsaslandırması nədən ibarət olmuşdur və müvafiq ekspertizalar keçirilmişdirmi?__________

_____________________________________________________________________________

45. Valideynlər arasında və yaxud valideynlərlə qohumlar arasında razılıq olmadığı halda uşağın fikri və yerli icra hakimiyyətinin qəyyumluq və himayə orqanın rəyi nəzərə alınmışdırmı? Nəzərə alınmamışdırsa əsaslandırması________________________________

46. “Valideynlərin və digər qohumların uşaqla ünsiyyətdə olmaq hüquqları ilə əlaqədar qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsi haqqında” Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumun Qərarına istinad olunmuşdurmu?_______________

47. Qətnamədə icra üsulu qeyd olunmuşdurmu?_______________________________________

48. Qətnamənin qəbul edildiyi məhkəmə iclasının tarixi________________________________

## APELYASİYA İNSTANSİYASI MƏHKƏMƏSİNDƏKİ İCRAAT

49. Apelyasiya şikayətinin verilib-verilməməsi (*verilmişdirsə kimin tərəfindən*)

_____________________________________________________________________________

50. İşin nömrəsi_____________________________________________________________

51. Apelyasiya instansiyası məhkəməsi______________________________________________

52. Apelyasiya instansiyası məhkəməsində işə baxan hakimlər__________________________

_____________________________________________________________________________

53. Uşaq apelyasiya baxışı dövründə dinlənilmişdirmi?_________________________________

54. Dinlənilmişdirsə məhkəmə uşağın fikrini və marağını öyrənib nəzərə almışdırmı? Nəzərə alınmamışdırsa məhkəmənin əsaslandırması________________________________________

_____________________________________________________________________________

55. Yekun qərarın qəbul edilməsinədək iddianın təmin tədbirinin görülməsinə dair vəsatət verilmişdirmi?_________________________________________________________________
56. Vəsatətə baxılması üzrə məhkəmənin qərardadı______________________________________

57. Vəsatət təmin edildiyi halda iddianın təmin tədbiri qismində verilmiş minimal ünsiyyət həddi nə qədər olmuşdur?_______________________________________________________
58. Vəsatət rədd edildiyi halda məhkəmənin əsaslandırması______________________________
59. İş üzrə müvafiq icra hakimiyyəti orqanının qəyyumluq və himayəçilik komissiyalarından təkrar və ya əlavə rəyin alınmasına dair qərardad qəbul edilmişdirmi?___________________
60. Qərardad qəbul edilmişdirsə qərardadın qəbul edilmə və göndərilmə tarixi

_____________________________________________________________________________

61. Qərardadda qoyulmuş sualların məzmunu__________________________________________

_____________________________________________________________________________

62. Rəyin məhkəməyə daxil olduğu tarix______________________________________________
63. Rəyə iddiaçının həyat şəraitinə dair müayinə aktı əlavə edilmişdirmi?___________________
64. Rəyin nəticə hissəsinin məzmunu_________________________________________________
65. Müvafiq icra hakimiyyəti orqanı tərəfindən rəyin hazırlanması zamanı uşaqlar dinlənilmişdirmi?_______________________________________________________________
66. Apelyasiya instansiyası məhkəməsinin iş üzrə gəldiyi nəticə __________________________

_____________________________________________________________________________

- **Birinci instansiya məhkəməsinin qətnaməsi ləğv edildiyi və ya dəyişdirildiyi halda**

67. Birinci instansiya məhkəməsi qətnaməsinin ləğvi və ya dəyişdirilməsi əsasları____________

_____________________________________________________________________________

68. Uşaqların öz valideynləri və digər qohumları ilə ünsiyyətdə olmasının hansı forması və ya formaları (yazışma, şəxsi görüşlər, telefon danışıqları və s.) müəyyən edilmişdir ?________

_____________________________________________________________________________

69. Qətnamədə uşaqla görüşün (ünsiyyətin) yeri, vaxtı, müddəti, hansı şəraitdə keçirilməsi, eyni zamanda görüşdə iştirak edən şəxslərin dairəsi göstərilmişdirmi? ______________________________
70. Uşaqla görüşün (ünsiyyətin) vaxtı müəyyən edilərkən uşağın ad günü, bayram günləri və digər xüsusi günlər qətnamə ilə əhatə edilmişdirmi?________________________________
71. Uşaqla ünsiyyətdə olmağın onun sağlamlığına zərər vurduğu hallarda görüşün

məhdudlaşdırılması və ya qadağan olunması barədə qərar qəbul edildiyi halda məhkəmənin əsaslandırması nədən ibarət olmuşdur və müvafiq ekspertizalar keçirilmişdirmi?__________

____________________________________________________________________________

72. Valideynlər arasında və yaxud valideynlərlə qohumlar arasında razılıq olmadığı halda uşağın fikri və yerli icra hakimiyyətinin qəyyumluq və himayə orqanın rəyi nəzərə alınmışdırmı? Nəzərə alınmamışdırsa əsaslandırması_________________________________

73. "Valideynlərin və digər qohumların uşaqla ünsiyyətdə olmaq hüquqları ilə əlaqədar qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsi haqqında" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumun Qərarına istinad olunmuşdurmu?_______________

74. Qətnamədə icra üsulu qeyd olunmuşdurmu?________________________________________

75. Qətnamənin qəbul edildiyi məhkəmə iclasının tarixi_________________________________

**KASSASİYA İNSTANSİYASI MƏHKƏMƏSİNDƏKİ İCRAAT**

76. Kassasiya şikayətinin verilib-verilməməsi (*verilmişdirsə kimin tərəfindən*)

____________________________________________________________________________

77. İşin nömrəsi__________________________________________________________________

78. Kassasiya instansiyası məhkəməsində işə baxan hakimlər

____________________________________________________________________________

____________________________________________________________________________

79. Kassasiya məhkəməsinin qərarının tarixi:

____________________________________________________________________________

80. Kassasiya instansiya məhkəməsinin iş üzrə gəldiyi nəticə ____________________________

____________________________________________________________________________

QEYD: İş təkrar apelyasiya baxışında olmuşdursa yuxarıdakı ardıcıllığa uyğun olaraq həmin icraatlar üzrə suallar təkrar qoyulmalı və cavablandırılmalıdır.

Anketin tərtib edilmə tarixi "___" __________" 202_-ci il.

Anketi tərtib edən şəxsin imzası (*vəzifəsi adı, soyadı, atasının adı göstərilməklə*):

____________________________________________________________________________

**Məhkəmələrin fəaliyyətinin monitorinqinin aparılması üzrə**

**Planın təsdiq edilməsinə dair**

**Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun**

**Q Ə R A R I**

**N 12**

**18 sentyabr 2020-ci il** **Bakı şəhəri**

"Məhkəmələr tərəfindən maddi və prosessual hüquq normalarının tətbiqində sistemli xarakter daşıyan nöqsanların müəyyən edildiyi sahədə məhkəmələrin fəaliyyətinin monitorinqinin aparılması Qaydası"nın 2.1-ci bəndini rəhbər tutaraq

**QƏRARA ALDI**

"İşlərin ümumi və yaxud kommersiya məhkəmələrinə aidiyyətinin müəyyən edilməsi, məhkəmə aidiyyəti ilə bağlı mübahisələrə və məhkəmələr arasında yaranan fikir ayrılıqlarına baxılmasının xüsusiyyətləri haqqında" Ali Məhkəmə Plenumunun 2020-ci il 18 sentyabr tarixli Qərarının tətbiqi ilə bağlı məhkəmələrin fəaliyyətinin monitorinqinin aparılması üzrə Plan təsdiq edilsin.

**"İşlərin ümumi və yaxud kommersiya məhkəmələrinə aidiyyətinin müəyyən edilməsi, məhkəmə aidiyyəti ilə bağlı mübahisələrə və məhkəmələr arasında yaranan fikir ayrılıqlarına baxılmasının xüsusiyyətləri haqqında" Ali Məhkəmə Plenumunun 2020-ci il 18 sentyabr tarixli Qərarının tətbiqi ilə bağlı monitorinqin aparılması üzrə**

**PLAN**

Əhatə dairəsi: Bakı şəhəri üzrə rayon məhkəmələri, Bakı Kommersiya Məhkəməsi və respublika üzrə apelyasiya instansiyası məhkəmələri;

Aparılma üsulu: Məhkəmələrdən anket (cavablandırılması nəzərdə tutulan suallar toplusuna dair sorğu) məlumatlarının toplanması üsulu ilə
Müddəti: 1 il
Başlanma müddəti: 02.11.2020
Bitmə müddəti: 01.11.2021

***Ramiz Rzayev***

***Azərbaycan Respublikası***
***Ali Məhkəməsinin sədri***

**“İşlərin ümumi və yaxud kommersiya məhkəmələrinə aidiyyətinin müəyyən edilməsi, məhkəmə aidiyyəti ilə bağlı mübahisələrə və məhkəmələr arasında yaranan fikir ayrılıqlarına baxılmasının xüsusiyyətləri haqqında” Ali Məhkəmə Plenumunun 18 sentyabr 2020-ci il tarixli Qərarının tətbiqi ilə bağlı məhkəmələrin fəaliyyətinin monitorinqinin aparılmasına dair**

**<u>A N K E T</u>**
**(mülki işlər üzrə)**

1. İşin nömrəsi və iddia ərizəsinin daxil olma tarixi________________________________

2. İşə baxan birinci instansiya məhkəməsi _____________________________________

3. İşə baxan hakim_________________________________________________________

4. *İddiaçının hüquqi vəziyyəti:*

**<u>fiziki şəxs</u>:**

***Statusu***:
- □ fərdi sahibkar
- □ təsisçi
- □ səhmdar
- □ tam ortaqlığın iştirakçısı
- □ kooperativin üzvü
- □ idarəetmə orqanının rəhbəri
- □ idarəetmə orqanının üzvü
- □ fərdi sahibkar statusu olmayan fiziki şəxs

**<u>hüquqi şəxs</u>:**

***Növü:***
- □ publik hüquqi şəxs
- □ kommersiya hüquqi şəxsi
- □ qeyri-kommersiya hüquqi şəxsi

***Mənsubiyyəti***:
- □ yerli
- □ xarici

***Mübahisə üzrə statusu***:
- □ müstəqil
- □ təsisçi

***Təşkilati-hüquqi forması:***

*Kommersiya:*

✓ Təsərrüfat ortaqlıqları:
- □ tam ortaqlıq
- □ kommandit ortaqlığı

✓ Təsərrüfat Cəmiyyətləri:
- □ törəmə təsərrüfat cəmiyyəti
- □ asılı təsərrüfat cəmiyyəti
- □ məhdud məsuliyyətli cəmiyyət
- □ əlavə məsuliyyətli cəmiyyət
- □ qapalı səhmdar cəmiyyət
- □ açıq səhmdar cəmiyyət
- □ kooperativlər

*Qeyri-kommersiya*: □ ictimai birliklər
□ fondlar
□ ittifaqlar
□ Hüquqi şəxsin ləğvedicisi
□ Dövlət orqanı
□ Bələdiyyə

5. Cavabdehin hüquqi vəziyyəti:

**fiziki şəxs:**

***Statusu***: □ fərdi sahibkar
□ təsisçi
□ səhmdar
□ tam ortaqlığın iştirakçısı
□ kooperativin üzvü
□ idarəetmə orqanının rəhbəri
□ idarəetmə orqanının üzvü
□ fərdi sahibkar statusu olmayan fiziki şəxs

**hüquqi şəxs:**

***Növü:*** □ publik hüquqi şəxs
□ kommersiya hüquqi şəxsi
□ qeyri-kommersiya hüquqi şəxsi

***Mənsubiyyəti***: □ yerli
□ xarici

***Mübahisə üzrə statusu***: □ müstəqil
□ təsisçi

***Təşkilati-hüquqi forması:***
*Kommersiya:*

✓ Təsərrüfat ortaqlıqları: □ tam ortaqlıq
□ kommandit ortaqlığı

✓ Təsərrüfat Cəmiyyətləri: □ törəmə təsərrüfat cəmiyyəti
□ asılı təsərrüfat cəmiyyəti
□ məhdud məsuliyyətli cəmiyyət
□ əlavə məsuliyyətli cəmiyyət
□ qapalı səhmdar cəmiyyət
□ açıq səhmdar cəmiyyət
□ kooperativlər

*Qeyri-kommersiya*: □ ictimai birliklər
□ fondlar
□ ittifaqlar
□ Hüquqi şəxsin ləğvedicisi
□ Dövlət orqanı
□ Bələdiyyə

6. Müstəqil tələb irəli sürən üçüncü şəxsin hüquqi vəziyyəti:

**fiziki şəxs:**

***Statusu*:**
- □ fərdi sahibkar
- □ təsisçi
- □ səhmdar
- □ tam ortaqlığın iştirakçısı
- □ kooperativin üzvü
- □ idarəetmə orqanının rəhbəri
- □ idarəetmə orqanının üzvü
- □ fərdi sahibkar statusu olmayan fiziki şəxs

**hüquqi şəxs:**

***Növü:***
- □ publik hüquqi şəxs
- □ kommersiya hüquqi şəxsi
- □ qeyri-kommersiya hüquqi şəxsi

***Mənsubiyyəti*:**
- □ yerli
- □ xarici

***Mübahisə üzrə statusu*:**
- □ müstəqil
- □ təsisçi

***Təşkilati-hüquqi forması:***

*Kommersiya:*

✓ Təsərrüfat ortaqlıqları:
- □ tam ortaqlıq
- □ kommandit ortaqlığı

✓ Təsərrüfat Cəmiyyətləri:
- □ törəmə təsərrüfat cəmiyyəti
- □ asılı təsərrüfat cəmiyyəti
- □ məhdud məsuliyyətli cəmiyyət
- □ əlavə məsuliyyətli cəmiyyət
- □ qapalı səhmdar cəmiyyət
- □ açıq səhmdar cəmiyyət
- □ kooperativlər

*Qeyri-kommersiya*:
- □ ictimai birliklər
- □ fondlar
- □ ittifaqlar
- □ Hüquqi şəxsin ləğvedicisi
- □ Dövlət orqanı
- □ Bələdiyyə

7. Mübahisənin predmeti (iddia ərizəsinin "xahiş edirəm" hissəsində qeyd olunan iddiaçının tələbi dəqiq göstərilsin)________________________________________

____________________________________________________________

____________________________________________________________

____________________________________________________________

____________________________________________________________

____________________________________________________________

## BİRİNCİ İNSTANSİYA MƏHKƏMƏSİNDƏKİ İCRAAT

8. Aidiyyət məsələsinə baxılır:
   □ işdə iştirak edən şəxs(lər)in ərizəsi (vəsatəti) əsasında
   □ məhkəmənin öz təşəbbüsü ilə
   □ aidiyyət üzrə daxil olmuş mübahisələr üzrə məhkəmələr arasında yaranan fikir ayrılığı ilə əlaqədar

9. Aidiyyət məsələsinin mübahisələndirilməsinə dair ərizə kim tərəfindən və nə vaxt verilmişdir?____________________________________________________________
   ____________________________________________________________

10. İşdə iştirak edən şəxsin məhkəmə aidiyyətinə dair mübahisə üzrə ərizəsi Azərbaycan Respublikasının MPM-in hansı normasına istinad olunaraq əsaslandırılmışdır?____________________________________________________________
   ____________________________________________________________
   ____________________________________________________________
   ____________________________________________________________
   ____________________________________________________________

11. Məhkəmənin gəldiyi nəticə nə olmuşdur?
   □ ərizə təmin edilərək iş aidiyyəti üzrə göndərilmişdir.
   □ aidiyyət haqqında ərizə təmin edilməmişdir.
   □ məhkəmələr arasında fikir ayrılığının olması əsası ilə kassasiya instansiyası məhkəməsinə göndərilmişdir.

12. Məhkəmə gəldiyi nəticəni hansı norma(lar) ilə əsaslandırmışdır?________________
   ____________________________________________________________
   ____________________________________________________________
   ____________________________________________________________
   ___

13. İşin mahiyyəti üzrə baxılması üçün kommersiya məhkəməsinə göndərilməsi qənaətinə gəlindikdə hansı hala istinad olunmuşdur? ________________________
   ____________________________________________________________
   ____________________________________________________________
   ____________________________________________________________

14. Azərbaycan Respublikası MPM-in 32.7-ci maddəsinə əsasən, bir məhkəmədən digərinə göndərilən iş onun göndərildiyi məhkəmə tərəfindən:
   □ icraata qəbul edilərək məhkəmə baxışına təyin edilmişdir.
   □ iddia ərizəsi MPM-in 152-ci maddəsinə istinad edilməklə geri qaytarılmışdır.
   □ məhkəmələr arasında fikir ayrılığının olması əsası ilə kassasiya instansiyası məhkəməsinə göndərilmişdir.

15. Məhkəmə aidiyyətlə bağlı qərardadında hazırki monitorinqin aparılmasına əsas olmuş Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 18 sentyabr 2020-ci il tarixli Qərarına istinad etmişdirmi?
   □ Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun qeyd olunmuş Qərarına istinad etmiş və nəzərə almışdır.
   □ nəzərə almamışdır.

16. Məhkəmə tərəfindən Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun qeyd olunmuş Qərarında ifadə olunmuş hüquqi mövqe nəzərə alınmadığı halda, əsaslandırma hansı qaydada aparılmışdır?________________________________

______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________
______________________________________________________________________

17. Aidiyyət haqqında qərardaddan işdə iştirak edən şəxslər tərəfindən şikayət verildiyi halda, Azərbaycan Respublikası MPM-in 403-1.5-ci maddəsinin tələblərinə əməl edilməsinin təmini üçün zəruri olan prosessual hərəkətlər yerinə yetirilmişdirmi; şikayətin surəti tərəflərə göndərilmişdirmi, onlara etiraz və izahatlarının kassasiya instansiyası məhkəməsinə göndərilməsi hüquqları izah edilmişdirmi? (Azərbaycan Respublikası MPM-in 403-1.5-ci maddəsi və Plenum Qərarının 9-cu bəndi)
   □ yerinə yetirilmişdir
   □ yerinə yetirilməmişdir

18. Barəsində şikayət verilmiş, aidiyyət haqqında qərardada yenidən baxan məhkəmənin gəldiyi nəticə necə olmuşdur?
   □ şikayət təmin edilmişdir.
   □ şikayət təmin edilməmiş və iş materialı ilə birlikdə baxılması üçün kassasiya instansiyası məhkəməsinə göndərilmişdir.

19. Şikayətin geri qaytarılmasına dair qərardad qəbul edildiyi təqdirdə hansı hala istinad edilmişdir:
   □ şikayətin imzalanmaması, yaxud hüququ olmayan və vəzifəsi göstərilməyən şəxs tərəfindən imzalanması
   □ vəkil orderinin əlavə edilməməsi
   □ şikayətdə maddi və yaxud prosessual hüquq normalarının pozulmasının, yaxud düzgün tətbiq edilməməsinin nədən ibarət olmasının göstərilməməsi

20. Geri qaytarma qərardadından kassasiya instansiyası məhkəməsinə şikayət verilmişdirmi?
   □ verilmişdir
   □ verilməmişdir

21. Qərardadın qəbul edildiyi məhkəmə iclasının tarixi__________________________

**APELLYASİYA İNSTANSİYASI MƏHKƏMƏSİNDƏ İŞƏ MAHİYYƏTİ ÜZRƏ BAXILARKƏN MƏHKƏMƏ AİDİYYƏTİNİN HÜQUQİ QİYMƏTLƏNDİRİLMƏSİ**

22. İşin nömrəsi və daxil olma tarixi____________________________________________

23. Apellyasiya instansiyası məhkəməsində işə baxan məhkəmə tərkibi_________________________________________________________________
_____________________________________________________________________
_

24. İşə mahiyyəti üzrə baxılarkən aidiyyətlə bağlı məhkəmənin qiymətləndəndirməsinin nəticəsi və qərardadın tarixi?______________________________________________
_____________________________________________________________________
_____________________________________________________________________
_____________________________________________________________________

25. Məhkəmə gəldiyi nəticəni hansı norma(lar) ilə əsaslandırmışdır?_______________
_____________________________________________________________________
_____________________________________________________________________

26. Məhkəmə işə aidiyyəti üzrə birinci instansiya kimi ümumi məhkəmələrdə baxılmalı olmaması nəticəsinə gəldikdə, hansı hala istinad etmişdir? ____________________
_____________________________________________________________________
_____________________________________________________________________
_____________________________________________________________________

27. Məhkəmə aidiyyətlə bağlı qərardadında hazırki monitorinqin aparılmasına əsas olmuş Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 18 sentyabr 2020-ci il tarixli Qərarına istinad etmişdirmi?
   - □ Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun qeyd olunmuş Qərarına istinad etmiş və nəzərə almışdır.
   - □ nəzərə almamışdır.

28. Məhkəmə tərəfindən Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun qeyd olunmuş Qərarında ifadə olunmuş hüquqi mövqe nəzərə alınmadığı halda, əsaslandırma hansı qaydada aparılmışdır?_________________________________
_____________________________________________________________________
_____________________________________________________________________
_____________________________________________________________________
_____________________________________________________________________
_____________________________________________________________________
_____________________________________________________________________

## KASSASİYA İNSTANSİYASI MƏHKƏMƏSİNDƏKİ İCRAAT

29. İşin nömrəsi________________________________________________________

30. Aidiyyət məsələsinə baxılır:
    □ işdə iştirak edən şəxs(lər)in şikayəti əsasında
    □ kassasiya şikayəti əsasında
    □ məhkəmələr arasında yaranan fikir ayrılığı səbəbindən

31. Şikayət hansı məhkəmənin qərardadından verilmişdir?
    □ Bakı Apellyasiya Məhkəməsinin qərardadından
    □ Bakı şəhəri üzrə rayon-şəhər məhkəmələrinin qərardadlarından:

    - Bakı şəhəri Binəqədi Rayon Məhkəməsi
    - Bakı şəhəri Qaradağ Rayon Məhkəməsi
    - Bakı şəhəri Xəzər Rayon Məhkəməsi
    - Bakı şəhəri Yasamal Rayon Məhkəməsi
    - Bakı şəhəri Nərimanov Rayon Məhkəməsi
    - Bakı şəhəri Nəsimi Rayon Məhkəməsi
    - Bakı şəhəri Nizami Rayon Məhkəməsi
    - Bakı şəhəri Səbail Rayon Məhkəməsi
    - Bakı şəhəri Sabunçu Rayon Məhkəməsi
    - Bakı şəhəri Suraxanı Rayon Məhkəməsi
    - Bakı şəhəri Xətai Rayon Məhkəməsi
    - Bakı şəhəri Pirallahı Rayon Məhkəməsi

32. Kassasiya instansiyası məhkəməsində işə baxan hakimlərin qarışıq tərkibində sədrlik edən məruzəçi hakimin aid olduğu məhkəmə kollegiyası______________________
    ____________________________________________________________________

33. Qərardaddan şikayət verildiyi halda, birinci instansiya məhkəməsi tərəfindən Azərbaycan Respublikası MPM-in 403-1.5-ci maddəsinin tələblərinə əməl edilməsinin təmini üçün zəruri olan prosessual hərəkətlər yerinə yetirilmişdirmi; şikayətin surəti tərəflərə göndərilmişdirmi, onlara etiraz və izahatlarının kassasiya instansiyası məhkəməsinə göndərilməsi hüquqları izah edilmişdirmi? (Azərbaycan Respublikası MPM-in 403-1.5-ci maddəsi və Plenum Qərarının 9-cu bəndi)
    □ yerinə yetirilmişdir
    □ yerinə yetirilməmişdir

34. Birinci instansiya məhkəməsi tərəfindən Azərbaycan Respublikası MPM-in 269.1-ci maddəsində nəzərdə tutulmuş 3 günlük müddət gözlənilmişdirmi?
    □ gözlənilmişdir
    □ gözlənilməmişdir

35. Birinci instansiya məhkəməsi tərəfindən Azərbaycan Respublikası MPM-in 269.3-cü maddəsində nəzərdə tutulmuş 7 günlük müddət gözlənilmişdirmi?
    □ gözlənilmişdir
    □ gözlənilməmişdir

36. Kassasiya instansiyası məhkəməsinin məhkəmə aidiyyətinin müəyyən edilməsi ilə

bağlı gəldiyi nəticə necə olmuşdur?

□ məhkəmələr arasında yaranmış fikir ayrılığı üzrə mübahisəyə baxaraq işi aid olduğu məhkəməyə göndərmişdir.

□ məhkəmələr arasında fikir ayrılığının yaranmasına əsas olmuş hallarla bağlı əlavə araşdırmanın aparılmasını zəruri hesab edərək, məhkəmə aidiyyətinin yenidən müəyyən edilməsi üçün işi iddia ərizəsinin verildiyi birinci instansiya məhkəməsinə göndərmişdir.

□ işdə iştirak edən şəxslərin şikayəti əsasında məhkəmə aidiyyətinə dair mübahisəyə baxaraq:

- ✓ işin məhkəmə aidiyyəti üzrə göndərilməsi və ya məhkəmə aidiyyəti haqqında ərizənin rədd edilməsi barədə qərardadı dəyişiklik edilmədən, şikayəti təmin etmədən saxlamışdır.
- ✓ işin məhkəmə aidiyyəti üzrə göndərilməsi və ya məhkəmə aidiyyəti haqqında ərizənin rədd edilməsi barədə qərardadı tamamilə ləğv edib, yeni qərar qəbul etmişdir.

37. Məhkəmələr tərəfindən aidiyyət məsələsinə qiymət verilərkən hansı norma(lar) pozulmuşdur?______________________________________________________
_____________________________________________________________________
_____________________________________________________________________
_____________________________________________________________________

38. Kassasiya instansiyası məhkəməsi işə birinci instansiya kimi ümumi məhkəmələrdə baxılmalı olmaması nəticəsinə gəldikdə, bunu hansı norma(lar)a və hallara istinad edərək əsaslandırmışdır?_____________________________________________
_____________________________________________________________________
_____________________________________________________________________
_____________________________________________________________________
_____________________________________________________________________

39. Məhkəmələr tərəfindən şikayətin geri qaytarılması ilə bağlı prosessual hüquq normalarının tələblərinə əməl edilmişdirmi?

□ əməl edilmişdir

□ əməl edilməmişdir

Anketin tərtib edilmə tarixi “___” __________” 202_-ci il.

Anketi dolduran hakimin imzası (*soyadı, atasının adı göstərilməklə*):
_____________________________________________________________________
_____________________________________________________________________

**Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki və Kommersiya Kollegiyalarının qərarlarının nümunəvi formasına dair tələblər**

## A. TİTUL VƏRƏQİ

- Azərbaycan Respublikasının gerbi, qərarın Azərbaycan Respublikasının adından çıxarıldığının qeyd edilməsi, işə baxan Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasının adı, iddiaçı(lar)nın və cavabdeh(lər)in adları, işin nömrəsi, açar sözlər, qərarın çıxarılma tarixi, işə baxmış məhkəmənin yerləşdiyi şəhərin adı.

**Qeyd.** Bu hissə ilə bağlı məlumatlar elektron məhkəmə informasiya sisteminin tələbləri nəzərə alınmaqla yazılmalıdır.

Təlimatda digər bölmələrin adlarından fərqli olaraq, şərti olaraq boyük hərflərlə (A, B, C və s.) qeyd edilən bölmələrin adları Qərarda qeyd edilmir.

## B. GİRİŞ HİSSƏ

- Qərarı çıxaran Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasının adı, hakimlərin adları, atalarının adları və soyadları göstərilməklə işə baxan məhkəmənin tərkibi (sədrlik edən və məruzəçi hakim göstərilməklə), məhkəmə iclas katibinin adı, soyadı və atasının adı, iclasda iştirak etmiş şəxslərin səlahiyyətləri göstərilməklə adları, ata adları və soyadları, iddia tələb(lər)i (ilkin və qarşılıqlı), kasasiya şikayət(lər)i verilmiş qərar haqqında məlumat (qərarın tarixi və nömrəsi göstərilməklə məhkəmənin və kollegiyanın adı), kasasiya şikayəti vermiş şəxsin adı, açıq və ya qapalı məhkəmə iclasının keçirilməsi barədə qeyd.

## C. TƏSVİRİ HİSSƏ

### İŞİN HALLARI, İŞ ÜZRƏ MƏHKƏMƏ İCRAATI

- (bu hissədən başlayaraq bütün abzaslar (başlıqlar istisna olmaqla) ardıcıl olaraq nömrələnməlidir).
- proses iştirakçılarının mövqelərini nəzərə almaqla və xronoloji ardıcıllığa riayət etməklə məhkəmə mübahisəsinin başlanıldığı anadək olan işin faktiki vəziyyəti (işin tərəflərin mübahisələndirmədiyi halları və hamıya bəlli olan, sübuta ehtiyacı olmayan hallar).
- işə baxan məhkəmələrin adı, işin nömrəsi, qərarların çıxarıldığı tarix və onları qəbul etmiş hakimlərin adı, soyadı və atasının adları, mübahisənin predmeti, məhkəmələrin qərarlarında əks olunmuş mübahisəyə dair işin araşdırılması nəticəsində müəyyən olunmuş əhəmiyyətli faktiki halları və həmin faktiki hallara tətbiq edilən hüquq barədə məhkəmələrin mövqeyi.

**a) Birinci instansiya məhkəməsindəki icraat**

Bu hissədə iddia tələbləri (ilkin və qarşılıqlı), iddianın və ona qarşı etirazın əsaslandırılması, işin mahiyyətinə aid məhkəmənin müəyyən etdiyi faktiki hallar və həmin faktiki hallara tətbiq etdiyi hüquq normaları göstərilməlidir. Burada həmçinin icraat gedişində aparılmış işin nəticəsinə təsir edən vacib prosessual hərəkətlər (məsələn, yerli baxış, ekspertiza

keçirilməsi v.s), eləcə də yekun məhkəmə aktı çıxarılanadək qəbul edilmiş prosessual aktlar (məsələn, icraata üçüncü şəxslərin cəlbi, işlərin bir icraatda birləşdirilməsi və s.) barədə məlumat verilməli və məhkəmənin mübahisənin həlli ilə bağlı gəldiyi qənaət öz əksini tapmalıdır.

**b) Apelyasiya instansiyası məhkəməsindəki icraat**

Həmin icraat gedişində aparılmış işin nəticəsinə təsir edən vacib prosessual hərəkətlər (məsələn, yerli baxış, ekspertizanın keçirilməsi v.s), eləcə də yekun məhkəmə aktı çıxarılanadək qəbul edilmiş prosessual aktlar (məsələn, icraata üçüncü şəxslərin cəlbi, işlərin bir icraatda birləşdirilməsi və s) barədə məlumat verilməli və məhkəmənin mübahisənin həlli ilə bağlı gəldiyi qənaət öz əksini tapmalıdır. Bundan başqa, məhkəmənin faktiki halları birinci instansiya məhkəməsindən fərqli qaydada müəyyən etdiyi hallarda həmin məsələ də bu hissədə göstərilməlidir.

Bundan başqa, işə bir neçə dəfə apelyasiya və kassasiya instansiyası məhkəmələrində baxıldıqda kassasiya məhkəməsinin əvvəlki tərkibinin hüquqi mövqeyi, təkrar apelyasiya baxışına münasibətdə verilmiş göstərişlər, eləcə də yeni apelyasiya baxışında kassasiya məhkəməsinin hüquqi mövqeyinin və göstərişlərin nəzərə alınması vəziyyəti ifadə olunmalıdır.

**Qeyd.** İşə bir neçə dəfə apelyasiya və kassasiya instansiyası məhkəmələrində baxıldıqda xronoloji ardıcıllıqla həmin icraatlar barədə məlumatlar da qeyd edilməlidir. Bu zaman, həmin məhkəmələrdəki icraat müvafiq olaraq bu qaydada qeyd edilməlidir – apelyasiya instansiyası məhkəməsindəki birinci icraat, apelyasiya instansiyası məhkəməsindəki ikinci icraat, kassasiya instansiyası məhkəməsindəki birinci icraat və s.

## KASSASİYA ŞİKAYƏTİNİN VƏ ONA QARŞI ETİRAZIN DƏLİLLƏRİ, MƏHKƏMƏ İCRAATI İŞTİRAKÇILARININ İZAHATLARI

***a)* Kassasiya şikayətinin dəlilləri**

Mübahisənin mahiyyətinə aid olan maddi və prosessual hüquq normalarının tələblərinin pozulması ilə bağlı dəlillər yığcam qeyd edilməlidir. Belə dəlillər iki kateqoriyaya aid ola bilər – faktiki halların natamam və ya düzgün müəyyənləşdirilmədiyi ilə bağlı dəlillər və hüququn düzgün tətbiq edilmədiyi ilə bağlı dəlillər. Kassasiya şikayətinin dəlilləri qərarda o qaydada əks olunmalıdır ki, sözügedən hər iki kateqoriyaya aid dəlillərin nədən ibarət olduğunu aydın şəkildə fərqləndirmək mümkün olsun.

Eyni zamanda hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin pozulması ilə bağlı dəlillər də qeyd edilməlidir.

Faktiki hallara dair dəlillərin şikayətdə hansı qaydada ifadə olunduğu nəzərə alınmaqla onlar qərarda iki formada əks oluna bilər. Birinci halda, şikayətlərdə faktiki halların natamam və ya düzgün müəyyənləşdirilmədiyi ilə bağlı dəlillər prosessual hüquq normalarının düzgün tətbiq edilmədiyi ilə əlaqələndirilməklə təqdim oluna bilər. Bu halda, faktiki hallara dair şikayətin dəlilləri qərarda məhz prosessual normaların düzgün tətbiq edilmədiyi ilə əlaqələndirilmiş qaydada əks etdirilməlidir.

İkinci halda, şikayətlərdə faktiki halların natamam və ya düzgün müəyyənləşdirilmədiyi ilə bağlı dəlillər prosessual hüquq normaları ilə əlaqələndirilmədən, ümumi qaydada faktların məhkəmələr tərəfindən düzgün müəyyənlişdirilmədiyi kimi göstərilə bilər. Bu halda isə, faktiki hallara dair şikayətin dəlilləri qərarda yığcam şəkildə təqribən belə ifadə olunmalıdır - faktiki halların natamam və ya düzgün müəyyənləşdirilmədiyi ilə bağlı dəlillər onların müəyyənləşdirilməsinə dair prosessual hüquq normalarının düzgün tətbiq edilmədiyi ilə əlaqələndirilmədən, ümumi qaydada faktların məhkəmələr tərəfindən düzgün müəyyənlişdirilmədiyi ilə bağlı olmuşdur.

Hüququn düzgün tətbiq edilmədiyi ilə bağlı dəlillər də əsasən iki qrup dəlillərdən ibarət ola bilər. Onlardan birincisi, mübahisə üzrə tərəflər arasında mövcud olan hüquq münasibətlərini birbaşa tənzimləyən maddi və prosessual hüquq normalarının məhkəmələr tərəfindən düzgün tətbiq edilməməsi. Bu halda, mübahisənin mahiyyətinə aid həmin dəlillərin hər biri qərarda əks etdirilməlidir. İkinci qrup dəlillər isə mübahisə üzrə tərəflər arasında mövcud olan hüquq münasibətlərini birbaşa tənzimləməyən ümumi maddi və prosessual hüquq normalarının məhkəmələr tərəfindən düzgün tətbiq edilməməsi ilə bağlı olalar. Belə dəlillər isə qərarda yiğcam şəkildə mübahisəni mahiyyəti üzrə həll edərkən tətbiq edilməyən normalar kimi ümumiləşdirilməklə qeyd edilməlidir.

***b)* Kassasiya şikayətinə qarşı etirazın dəlilləri**

- Kassasiya şikayətinə qarşı verilmiş etiraz(lar)ın dəlilləri də eynilə kassasiya şikayətinin dəlilləri kimi qeyd edilməlidir.
- Kassasiya şikayətlərinə qarşı tərəflər etiraz verməmişlərsə, bu barədə də qeydiyyat aparılmalıdır.

***c)* Məhkəmə icraatı iştirakçılarının izahatları**

- Prosesdə iştirak edən şəxslərin izahatları yığcam ifadə olunmalıdır.
- İşdə iştirak edən şəxslərin məhkəmə iclasına vəkilsiz gəlmələrinə onların izahatlarının dinlənilməsi baxımından münasibət bildirilməlidir.
- İşdə iştirak edən şəxslər prosesə gəlməmişlərsə, məhkəmə iclasının onların iştirakı olmadan keçirilməsinin mümkünlüyü məsələsi müzakirə olunmalıdır.

## TƏTBİQ EDİLƏN HÜQUQ

Bu hissədə, mübahisəni mahiyyəti üzrə həll edərkən tətbiq olunan milli (maddi və prosessual) və beynəlxalq hüquq normaları sadalanmalıdır. Mübahisə üzrə nəticəyə gəlməyə təsir etdiyi halda, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenum qərarlarına (fərdi şikayətlər üzrə qərarlardakı hüquqi mövqelərə), Ali Məhkəmənin Plenum qərarlarına, məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsi məqsədi ilə Ali Məhkəmənin müvafiq kollegiyalarının mübahisəli hüquqi məsələyə dair hüquqi mövqeyini əks etdirən qərardadlarına, eləcə də İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin qərarlarına da istinadlar edilməlidir.

Burada həmçinin kassasiya baxışının hədlərinə dair, eləcə də məhkəmənin qərar çıxararkən rəhbər tutduğu digər prosessual normalar da göstərilməlidir.

Qeyd: Mübahisə üzrə nəticəyə gəlməyə birbaşa təsir etməyən milli və beynəlxalq hüquq normalarına, habelə aidiyyəti məhkəmə qərarlarına buna zərurət olmadığı hallarda istinad edilməməlidir.

Əsaslandırıcı hissədə milli və beynəlxalq hüquq normaları ilə bağlı əsaslandırılma aparılan zaman bu hissədəki müvafiq abzasların nömrələrinə istinad edilməlidir.)

## D. ƏSASLANDIRICI HİSSƏ

## KASSASİYA BAXIŞININ HƏDLƏRİ

- Kassasiya baxışının hədləri ifadə olunmalıdır. Apelyasiya məhkəməsinin aktının hansı hissədə yoxlanıldığı dəqiq göstərilməlidir.

## KASSASİYA İNSTANSİYASI MƏHKƏMƏSİNİN MÖVQEYİ

- Apelyasiya instansiyası məhkəməsinin aktları qüvvədə saxlanıldıqda, kassasiya məhkəməsinin mübahisənin həlli ilə bağlı apelyasiya məhkəməsinin gəldiyi qənaət ilə razılaşdığı qeyd edilməlidir. Bu zaman, yığcam şəkildə apelyasiya məhkəməsi tərəfindən müəyyən olunmuş faktiki hallara maddi və prosessual hüquq normalarının həmin məhkəmə tərəfindən düzgün tətbiq edildiyi və mübahisənin həllinə dair apelyasiya məhkəməsinin hüquqi mövqeyinin düzgün olduğu göstərilməlidir. Lakin kassasiya şikayətinin bütün dəlillərinə ayrı-ayrılıqda münasibət bildirilməlidir. Kassasiya şikayətinin dəlilləri ilə apelyasiya şikayətinin dəlilləri eyni məzmunlu olduğu və kassasiya instansiyası məhkəməsi apelyasiya instansiyası məhkəməsinin bu hissədə əsaslandırılması ilə razılaşdığı hallarda, qərarda onlara təkrarən qiymət verilmədən ümumi şəkildə apellyasiyanın mövqeyi ilə razlığın ifadə olunması yetərli hesab edilir.
- Apelyasiya instansiyası məhkəməsinin aktları ləğv edilərək iş təkrar baxışa göndərildikdə, kassasiya şikayətinin dəlillərinə də qiymət verilməklə məhkəmənin maddi və prosessual hüquq normalarını pozmasının, yaxud düzgün tətbiq etməməsinin nələrdən ibarət olduğu dəqiq göstərilməlidir. Həmçinin, maddi və prosessual hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsi üçün kassasiya instansiyası məhkəməsinin hüquqi mövqeyi və təkrar apelyasiya baxışında nəzərə alınmalı olan kassasiya instansiyası məhkəməsinin səlahiyyətləri çərçivəsində verilmiş göstərişlər aydın şəkildə ifadə olumalıdır.
- Kassasiya instansiyası məhkəməsində işə təkrarən baxıldıqda kassasiya məhkəməsinin əvvəlki göstərişlərinə apelyasiya instansiyası məhkəməsi tərəfindən riayət edilib-edilməməsi, eləcə də Ali Məhkəmənin hüquqi mövqeyinin nəzərə alınıb-alınmadığı məsələsi müzakirə edilməlidir.

- Apelyasiya instansiyası məhkəməsinin aktları ləğv edilərək iş üzrə yeni qərar çıxarıldıqda və ya dəyişdirildikdə, kassasiya şikayətinin dəlillərinə də qiymət verilməklə məhkəmənin maddi və prosessual hüquq normalarını pozmasının, yaxud düzgün tətbiq etməməsinin nədən ibarət olduğu, habelə məhkəmə aktının hansı hissədə ləğv olunduğu və yaxud dəyişdirildiyi dəqiq göstərilməlidir. Həmçinin, işin nəyə görə təkrar apelyasiya baxışına göndərilməsinə ehtiyac olmadığı və mübahisə üzrə yeni qərarın çıxarılması və ya apelyasiya instansiyası məhkəməsinin aktının dəyişdirilməsi üçün əsasların mövcud olduğu aydın şəkildə ifadə olunmalıdır.

## NƏTİCƏVİ HİSSƏ

**QƏRARA ALDI**

- Kassasiya şikayətinin təmin (tam və ya qismən) olunub-olunmadığına münasibət.
- Yoxlanılan məhkəmə aktının ləğv (tam və ya qismən) edildiyi, iş üzrə yeni qərar qəbul edildiyi və ya qüvvədə saxlanıldığına münasibət. Əgər məhkəmə aktı hissəvi yoxlanılırsa, hansı hissənin qüvvədə saxlanıldığı xüsusi olaraq göstərilməlidir.
- Qərar qəti olduğu və qəbul edildiyi andan qüvvəyə minməsi barədə qeyd.

**Hakimlər (ad və soyadları və imzalar)**

**Qeyd:**

- Qərarların məxfiləşdirilməsinin təmin edilməsi məqsədilə qərarın mətnində tərəflərin ad, soyad və ata adı tam şəkildə göstərilməlidir.
- Fiziki və hüquqi şəxslərin, dövlət orqanlarının, qanunverici aktların və ya predmetlərin adları mətndə təkrarlandığı halda həmin adlar mətndə istifadə olunduğu ilk yerdə qeyd edilməklə ixtisar edilə bilər (Məsələn: bundan sonra - iddiaçı, bundan sonra - ikinci cavabdeh, bundan sonra – Əmlak Komitəsi, və ya bundan sonra - mübahisəli tikili). Titul vərəqində və nəticə hissələrində ixtisarlara yol verilmir.
- Qərarlar Azərbaycan Respublikası Prezidentinin 27 sentyabr 2003-cü il tarixli 935 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair" Təlimatın, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 16 aprel tarixli 174 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan dilinin Orfoqrafiya Normaları"nın tələblərinə uyğun şəkildə tərtib edilməlidir.

**Azərbaycan Respublikası adından**

**Azərbaycan Respublikası Ali Məhkəməsi**
**Mülki kollegiyasının**

**iddiaçı _________ cavabdeh________ qarşı iş üzrə**

**Q Ə R A R I**

**iş № 2(102)-_____/20**

***(Açar sözlər: ______________________________)***

**Bakı şəhəri, 29 iyun 2020-ci il**

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki kollegiyası, hakimlər ______ oğlu (sədrlik edən və məruzəçi), ____ və ____ ibarət tərkibdə,

_____________ katibliyi,

Cavabdeh ____________nin nümayəndəsi ____________ oğlunun və vəkili ____________ oğlunun iştirakı ilə,

Bakı Apellyasiya Məhkəməsi Mülki kollegiyasının 2(103)-______/2019 nömrəli iş üzrə 24 oktyabr 2019-cu il tarixli qətnaməsindən cavabdeh Azərbaycan Respublikası ____________ tərəfindən verilmiş kassasiya şikayəti üzrə işə 29 iyun 2020-ci il tarixdə Ali Məhkəmənin binasında açıq məhkəmə iclasında baxaraq, aşağıdakı qərarı qəbul etdi.

**İşin halları, iş üzrə məhkəmə icraatı**

1. _____________ (bundan sonra – iddiaçı) içərisində qadın xəz şubaları olan üç ədəd çanta ilə 23 sentyabr 2014-cü il tarixdə _____________ Gömrük İdarəsinin _____________ gömrük postuna daxil olmuş, həmin bağlamalar _____________ Gömrük İdarəsinin _____________ gömrük postuna müvəqqəti saxlanca verilmişdir. Qeyd edilən malların müvəqqəti saxlanca verilməsi ilə əlaqədar _____________ gömrük postunun əməkdaşları tərəfindən 23 sentyabr 2014-cü il tarixli 216 saylı protokol tərtib edilməklə imzalanmışdır.

2. İddiaçı 29 iyun 2015-ci il tarixdə Azərbaycan Respublikası ____________nin sədrinə ünvanladığı ərizəsində kommersiya fəaliyyəti ilə məşğul olduğundan, Çindən xəz şubaları gətirərək Azərbaycandan tranzit yolu ilə Dağıstana apardığını qeyd etmişdir. Gətirilən şubalardan 52 ədədi qüsurlu olduğundan həmin malların Çinə qaytarılması üçün _____________ gömrük postunda saxlanca verildiyini, sonradan həmin malların qaytarılmadığını qeyd edərək, həmin malların qaytarılmasında köməklik olunmasını xahiş etmişdir.

3. _____________ Rayon Məhkəməsinin 28 iyun 2016-ci il tarixli qətnaməsi ilə iddiaçının _____________ Gömrük İdarəsinə qarşı hər birində 21 ədəd qadın xəz şubası olmaqla üç bağlama yükün itirilməsi nəticəsində ona dəymiş 95000 ABŞ dolları məbləğində ziyanın ödənilməsi tələbinə dair iddiası təmin edilmiş, iddiaçıya məxsus 63 ədəd qadın xəz şuba və ya onların dəyəri olan 95000 ABŞ dollarının ödəniş gününə Azərbaycan manatına məzənnəsi ilə cavabdehdən alınaraq iddiaçıya verilməsi qət edilmişdir.

4. Sumqayıt Apellyasiya Məhkəməsinin 18 noyabr 2016-cı il tarixli qətnaməsi ilə Azərbaycan Respublikası ____________nin apellyasiya şikayəti təmin edilmiş, _____________ Rayon Məhkəməsinin 28 iyun 2016-ci il tarixli qətnaməsi ləğv edilmiş, iddia rədd edilmişdir. Qətnamə onunla əsaslandırılmışdır ki, həmin işdə cavabdeh qismində göstərilən _____________ Gömrük İdarəsi iddiaya cavab verməli olan şəxs deyildir.

5. Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki kollegiyasının 15 mart 2017-ci il tarixli qərarı ilə iddiaçının kassasiya şikayəti təmin edilməmiş, Sumqayıt Apellyasiya Məhkəməsi Mülki kollegiyasının 18 noyabr 2016-cı il tarixli qətnaməsi dəyişdirilmədən saxlanılmışdır.

***a) Birinci instansiya məhkəməsində icraat***

6. İddiaçı cavabdehlərə qarşı iddia ərizəsi ilə məhkəməyə müraciət edərək, _____________ Gömrük İdarəsinin _____________ postuna daxil olmuş, hər birində 21 ədəd qadın xəz şubası olmaqla üç bağlama yükün itirilməsi nəticəsində iddiaçıya dəymiş 93950 ABŞ dolları həcmində ziyanın ____________ndən tutularaq iddiaçının xeyrinə ödənilməsi barədə qətnamə çıxarılmasını xahiş etmişdir.

7. İddia tələbi onunla əsaslandırılmışdır ki, iddiaçı 23 sentyabr 2014-cü ildə _____________ Gömrük İdarəsində əşyalarının götürülməsinə dair 216 saylı protokolla saxlama kamerasına müvəqqəti olaraq yük yerləşdirmişdir. Həmin mallar tranzit olaraq Çin Xalq Respublikasına qaytarılmalı idi. Yükü başqa sürücü oradan almalı idi. Yükün içində ümumi qiyməti 93950 ABŞ dolları həcmində xəz şubalar olmuşdur. Bir müddət sonra o, həmin malları geri almaq üçün məntəqəyə müraciət etmişdir. 2014-cü ilin sonlarında malların məntəqədə olmaması barədə ona məlumat vermişlər. 2015-ci ilin yanvarında onun müraciətinə mənfi cavab verilmişdir. Bununla əlaqədar müraciət etdiyi bütün instansiyalar ona həmin mal barədə hər hansı məlumat verməmişlər. _____________ Gömrük İdarəsində müvafiq sənədləri təqdim edərək ya malı, ya da onun dəyərini tələb etmişdir. Hesab edilir ki, iddiaçıya dəymiş 93950 ABŞ dolları həcmində ziyanı Azərbaycan ____________ ödəməlidir.

8. Bakı Şəhəri Yasamal Rayon Məhkəməsinin (bundan sonra – birinci instansiya məhkəməsi) 2(004)-____/2018 nömrəli iş üzrə 20 fevral 2018-ci il tarixli qətnaməsi ilə (hakim ________) iddia təmin edilməmişdir.

9. Məhkəmə toplanmış sübutlara hüquqi qiymət verərək hesab etmişdir ki, iddia tələbinin məzmunu formal olaraq delikt tələbi kimi qoyulsa da, iş üzrə dövlət orqanları tərəfindən hər hansı mülki hüquq pozuntusunun qeydə alınması müəyyən edilməmişdir. Cavabdehin əşyaların saxlanca verilməsi protokolu ilə müəyyən edilmiş müddəti həddən artıq çox ötürməsi və əşyaların aqibətinə xeyli vaxt ərzində etinasız yanaşması həmin əşyaların müsadirə edilməsinə səbəb olmuşdur. İddiaçı mübahisələndirilən malların sayı, dəyəri və malların götürülməsi ilə bağlı orqanlara vaxtında müraciət etməsi ilə əlaqədar sübutları məhkəməyə təqdim edə bilməmişdir. Eyni zamanda iş materiallarında olan qanuni qüvvəyə minmiş məhkəmə aktlarından görünür ki, hazırkı iddia tələbi əvvəllər də _____________ Gömrük İdarəsinə qarşı qaldırılmış, lakin iddia tələbində göstərilmiş dəlillər həmin işdə də öz təsdiqini tapmamışdır.

10. Məhkəmə öz mövqeyini Azərbaycan Respublikası Mülki Məcəlləsinin (bundan sonra – Mülki Məcəllə) 21, 1096.1, 1097.1 maddələrinə istinadla əsaslandırmışdır.

### *b) Apelyasiya instansiyası məhkəməsindəki birinci icraat*

11. Bakı Apelyasiya Məhkəməsi Mülki kollegiyasının (bundan sonra – apelyasiya instansiyası məhkəməsi) 2(103)-_____/2018 nömrəli iş üzrə 21 avqust 2018-ci il tarixli qətnaməsi ilə (hakimlər – ______ (sədrlik edən və məruzəçi), ______ və ______) iddiaçının apelyasiya şikayəti təmin edilməmiş, qətnamə dəyişdirilmədən saxlanılmışdır.

12. Apelyasiya instansiyası məhkəməsi birinci instansiya məhkəməsinin müsadirənin qanuni olması ilə bağlı gəldiyi qənaətlə razılaşmasa da, iddianın sübuta yetrilməməsi əsası ilə rədd olunmasını qanuni hesab etmiş və öz mövqeyini Mülki Məcəllənin 21, 1096.1, 1097.1 maddələrinə istinadla əsaslandırmışdır.

### *c) Kassasiya instansiyası məhkəməsindəki birinci icraat*

13. Azərbaycan Respublikası Ali Məhkəməsi Mülki kollegiyasının (bundan sonra – kassasiya instansiyası məhkəməsi) 2(102)-_____/2019 nömrəli iş üzrə 18 iyul 2019-cu il tarixli qərarı ilə (hakimlər – ______ (sədrlik edən və məruzəçi), ______ və __________) iddiaçının kassasiya şikayəti qismən təmin olunmuş, apelyasiya instansiyası məhkəməsinin 21 avqust 2018-ci il tarixli qətnaməsi ləğv edilmiş, iş yenidən baxılması üçün apelyasiya instansiyası məhkəməsinə göndərilmişdir.

14. Kassasiya instansiyası məhkəməsinin hüquqi mövqeyi ondan ibarət olmuşdur ki, mülki prosessual qanunvericilikdə subutetmə yükünün bölüşdürülməsinin ümumi qaydası ilə bərabər, sübutetmə baxımından imkanları məhdud olan tərəfi müəyyən faktın mövcudluğunu sübut etmək vəzifəsindən azad edən və digər tərəf əksini sübut edənədək bu faktın mövcudluğunu ehtimal edilən xüsusi qayda da nəzərdə tutulmuşdur. Belə ki, Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin (bundan sonra – MPM) 77.2-ci maddəsinə əsasən dövlət orqanlarının, icra və s. orqanların aktlarının etibarsız hesab edilməsi barədə mübahisələrə baxıldıqda, həmin aktların qəbul edilməsi üçün əsas olmuş halları sübut etmək vəzifəsi bu aktı qəbul etmiş orqanın üzərinə düşür. Lakin iddianı rədd edən məhkəmələr iş üzrə sübutemə vəzifəsini düzgün bölüşdürməmişlər.

### *d) Apelyasiya instansiyası məhkəməsindəki ikinci icraat*

15. Apelyasiya instansiyası məhkəməsinin 2(103)-______/2019 nömrəli iş üzrə 24 oktyabr 2019-cu il tarixli qətnaməsi ilə (hakimlər – ______ (sədrlik edən və məruzəçi), ______ və __________) iddiaçının apelyasiya şikayəti təmin edilmiş, birinci instansiya məhkəməsinin qətnaməsi ləğv edilmiş və iş üzrə yeni qətnamə qəbul edilmiş, iddia təmin edilərək vurulmuş maddi zərərin kompensasiyası kimi 93950 ABŞ dolları (ödəniş anında Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən müəyyən edilmiş ABŞ dollarının manata məzənnəsinə uyğun manatla) və ödənilmiş dövlət rüsumlarının əvəzi kimi 45 manat məbləğində pulun Azərbaycan Respublikası ____________ndən tutularaq _____________ ödənilməsi qət olunmuşdur.

16. Məhkəmə MPM-in 420-ci maddəsinə əsasən kassasiya instansiyası məhkəməsinin qərarında irəli sürdüyü hüquqi mövqeyi nəzərə alaraq qeyd etmişdir ki, iddiaçıya məxsus bağlamaların “Əşyaların götürülməsinə dair” 23 sentyabr 2014-cü il tarixli, 216 saylı protokolla rəsmiləşdirilməklə _____________ Gömrük İdarəsinin _____________ gömrük postunda saxlanca verilməsi işin mübahisələndirilməyən halıdır. Həmin protokolda isə iddiaçıdan 3 çantada ümumi dəyəri 95000 ABŞ dolları olan şubaların götürüldüyü qeyd edilmişdir. İddiaçı həmin malların cavabdeh orqan tərəfindən heç bir səbəb olmadan qaytarılmamasına istinad edərək, şubaların dəyəri kimi 93950 ABŞ dolları məbləğində pulun cavabdeh orqandan tutulmasını tələb etmişdir. Cavabdeh birinci instansiya məhkəməsinə təqdim edilmiş yazılı etirazını onunla əsaslandırmışdır ki, iddiaçı tələbini təsdiq edən mötəbər sübutlar təqdim etməmiş, ziddiyyətli izahatlar (məlumatlar) vermişdir. İddiaçı 2014-cü ilin sentyabr ayından sonra yalnız 13 iyun 2016-cı il tarixdə Azərbaycan Respublikasının gömrük sərhədindən keçməsinə baxmayaraq, bu müddətlərdə malları ilə maraqlanmaması şübhə doğurur.

17. Apelyasiya instansiyası məhkəməsi MPM-in 77.2-ci maddəsinə istinadla qeyd etmişdir ki, cavabdeh iddiaçı tərəfindən təqdim edilmiş protokolla malların sayı və dəyərinin düzgün göstərilməməsi əsası ilə razılaşmadığını göstərsə də, etirazının əsası kimi istinad etdiyi halı təsdiq edən hər hansı sübut təqdim etməmişdir. Halbuki, əşyaların götürülməsi barədə protokol əşyanın adı, əşyanın gətirildiyi ölkə, miqdarı, çəkisi, faktura dəyəri qrafalarına bölünməklə əşyanı təhvil alan həmin qrafaların dəqiq doldurulmasını təmin etməlidir. İddiaçının təqdim etdiyi protokolda malların dəyərinin göstərilməsi, cavabdeh orqanda saxlanılan surətində isə malların dəyərinin göstərilməməsi iddiaçının iddiasının əsası kimi istinad etdiyi halları sübut etmədiyi nəticəsinə gəlməyə əsas vermir. Belə ki, cavabdeh malların sayının və dəyərinin iddiaçının göstərdiyi miqdarda və məbləğdə olmadığını bildirsə də, həmin malların əslində hansı miqdarda olduğu və faktura dəyərinin nə qədər təşkil etdiyi barədə heç bir sübut təqdim etməmişdir. Bundan başqa, cavabdeh tərəfindən təqdim edilmiş 29 dekabr 2014-cü il tarixli, 75 saylı aktdan görünür ki, 2 bağlama şuba “______________” Birliyinin Xırdalan şəhərində yerləşən anbarına təhvil verilmişdir. Beləliklə, cavabdeh orqanın iddiaçıdan qadın xəz şubalarını təhvil alaraq saxlanca qəbul etməsi işin mübahisəsiz halı olmaqla, iş üzrə mübahisəli hal yalnız malların sayı və dəyəridir.

18. Apelyasiya instansiyası məhkəməsinin qənaətinə görə, hazırkı mübahisə üzrə iddiaçı təqdim etdiyi protokolun həqiqiliyini sübut etmək vəzifəsi daşımamaqla, həmin sənədin faktiki təhvil götürülən əşyaların sayı və miqdarına uyğun olmadığını sübut etmək və saxlanca götürülmüş malların sayı və dəyərinin dəqiq göstərildiyi sənədi təqdim etmək vəzifəsi cavabdehin üzərinə düşür. Digər tərəfdən, apellyasiya məhkəməsi tərəfindən birinci baxış zamanı Azərbaycan Respublikası ____________ Birliyinə sorğu göndərilərək Xirdalan şəhərində yerləşən anbarına təhvil verilmiş 2 bağlama şubanın satılıb-satılmaması barədə məlumatın, satıldığı təqdirdə hərracın keçirilməsinə dair protokolun və digər sənədlərin surətlərinin məhkəməyə təqdim edilməsi xahiş edilmiş, lakin verilən sorğu Birlik tərəfindən ümumiyyətlə cavablandırılmamışdır.

19. Apelyasiya instansiyası məhkəməsi hesab etmişdir ki, iddiaçıya məxsus əmlakların cavabdehə təhvil verilməsi öz təsdiqini tapdığından, lakin həmin orqan əşyaların sonrakı taleyi barədə məhkəmələrə hər-hansı ağlabatan məlumat vermədiyindən və sübutları təqdim etmədiyindən, sonuncu iddiaçıya vurulmuş ziyana görə öhdəlik daşıyır və iddiaçının tələbi əsaslı hesab edilməlidir.

20. Cavabdehdən tutulan məbləği müəyyən edərkən apelyasiya instansiyası məhkəməsi hesab etmişdir ki, iddiaçıya vurulan ziyan sonuncu tərəfindən təqdim olunmuş qaimələrlə təsdiq olunduğundan və həmin sübutların qeyri-mötəbərliyinə dair hər hansı əsas məhkəməyə təqdim olunmadığından, 93950 ABŞ dolları məbləğində pul cavabdeh Azərbaycan Respublikası ____________ndən tutularaq iddiaçıya ödənilməlidir.

21. Beləliklə, işin hallarına Mülki Məcəllənin 5.3, 425.1, 152, 21.1, 21.2, 1096.1, 1097.1 maddələrini tətbiq edərək apelyasiya instansiyası məhkəməsi hesab etmişdir ki, birinci instansiya məhkəməsi mübahisələndirilən qətnaməni qəbul edərkən maddi və prosessual hüquq normalarını pozmuş, onun gəldiyi nəticə üçün mühüm əhəmiyyəti olan bütün faktiki halları aydınlaşdırılmamış, həmçinin qətnamədə göstərilmiş nəticələr işin hallarına uyğun gəlməmişdir.

**Kassasiya şikayətinin və ona etirazın dəlilləri, məhkəmə icraatı iştirakçılarının izahatları**

***a) Kassasiya şikayətinin dəlilləri***

22. Cavabdeh ____________ (vəkil ____________) kassasiya şikayəti verərək apelyasiya instansiyası məhkəməsinin qətnaməsinin ləğv edilməsini və işin yeni apelyasiya baxışına qaytarılması barədə qərar qəbul olunmasını xahiş etmişdir.

23. Kassasiya şikayəti onunla əsaslandırılmışdır ki, MPM-in 420-ci maddəsinə əsasən kassasiya instansiyasında işə baxan məhkəməni tələbini nəzərə almayan apelyasiya instansiyası məhkəməsi kassasiya instansiyası məhkəməsinin 18.07.2019-cu il tarixli qətnaməsində qeyd olunan halları araşdırmadan, cavabdeh tərəfin verdiyi vəsatətləri nəzərə almadan əsassız və qanunsuz qərar qəbul etmişdir. Apelyasiya instansiyası məhkəməsi yekun nəticəyə gələrkən şübhə doğuran halları aydınlaşdırmamışdır. Halbuki, ədalətli məhkəmə araşdırılması hüququnun təmin edilməsindən ötrü iddiaçıda olan protokol ilə cavabdehdə olan protokol arasındakı fərqin aydınlaşdırılması, iddia olunan əmlakın dəyərinin müəyyənləşdirilməsindən ötrü məhkəmə əmtəəşünaslıq və məhkəmə-xətşünaslıq ekspertizası keçirilməli idi. Apelyasiya instansiyası məhkəməsi apelyasiya şikayətinin dəlillərinə müfəssəl qiymət verməmiş, iddia tələbinə qarşı verilmiş etiraz və vəsatətdə göstərilən xüsusatları nəzərə almamış, bununla da ədalətli məhkəmə araşdırılması hüququnu təmin etməmiş, gəldiyi nəticə üzrə hüquqi müəyyənlik prinsipini pozmuşdur.

Məhkəmənin qətnamədə gəldiyi nəticə maddi və prosessual hüquq normalarının pozulması ilə qəbul edildiyindən qanuni və əsaslı hesab edilməməklə ləğv edilməli və mülki iş üzrə ədalətli məhkəmə araşdırılmasının təmin edilməsi və obyektiv nəticəyə gəlinməsi üçün yenidən apellyasiya baxışına qaytarılmalıdır.

***b) Kassasiya şikayətinə qarşı etirazın dəlilləri***

24. Kassasiya şikayətinə qarşı etiraz daxil olmamışdır.

***c) Məhkəmə icraatı iştirakçılarının izahatları***

25. Məhkəmə iclasında iştirak edən cavabdeh ____________nin nümayəndəsi ____________ və vəkili ____________ ayrı-ayrılıqda kassasiya şikayətinin dəlillərini müdafiə edərək, onun təmin olunmasını, apelyasiya instansiyası məhkəməsinin qətnaməsinin ləğv edilərək işin yenidən baxılması üçün apelyasiya instansiyası məhkəməsinə göndərilməsini xahiş etdilər.

26. Məhkəmə iclasının yeri və vaxtı barədə lazımi qaydada məlumatlandırılmalarına baxmayaraq iş üzrə iddiaçı, eləcə də digər cavabdehin nümayəndəsi məhkəmə iclasına gəlmədikləri və gəlməmələrinin səbəbləri barədə məlumat vermədikləri üçün Məhkəmə kollegiyası MPM-in 415.3-cü maddəsinə əsasən işə iddiaçının və digər cavabdehin nümayəndəsinin iştirakı olmadan baxılmasını mümkün hesab etmişdir.

**Tətbiq edilən hüquq**

Azərbaycan Respublikasının Mülki Məcəlləsi

27. Maddə 5.3. Mülki hüquq münasibətlərinin subyektləri öz hüquq və vəzifələrini vicdanla həyata keçirməyə borcludurlar.

28. Maddə 21.1. Hüququ pozulmuş şəxs ona vurulmuş zərərin əvəzinin tam ödənilməsini tələb edə bilər, bu şərtlə ki, qanunda və ya müqavilədə zərərin əvəzinin daha az miqdarda ödənilməsi nəzərdə tutulmasın.

29. Maddə 21.2. Zərər dedikdə, hüququ pozulmuş şəxsin pozulmuş hüququnu bərpa etmək üçün çəkdiyi və ya çəkməli olduğu xərclər, əmlakından məhrum olması və ya əmlakının zədələnməsi (real zərər), habelə hüququ pozulmasaydı, həmin şəxsin adi mülki dövriyyə şəraitində əldə edəcəyi gəlirlər (əldən çıxmış fayda) başa düşülür.

30. Maddə 152. Mülkiyyət hüququ – subyektin ona mənsub əmlaka (əşyaya) öz istədiyi kimi sahib olmaq, ondan istifadə etmək və ona sərəncam vermək üzrə dövlət tərəfindən tanınan və qorunan hüququdur.

31. Maddə 425.1. Öz hüquqlarını həyata keçirərkən və vəzifələrini icra edərkən tərəflərdən hər biri vicdanlılığın tələb etdiyi tərzdə, yəni şərtləşdirilmiş vaxtda və yerdə lazımi şəkildə, öhdəliyin şərtlərinə və bu Məcəllənin tələblərinə müvafiq surətdə, belə şərtlər və tələblər olmadıqda isə işgüzar adətlərə və ya adətən irəli sürülən digər tələblərə müvafiq surətdə hərəkət etməlidir.

32. Maddə 1096. Mülki hüquq pozuntusu (delikt) hüquqla və ya qanunla müdafiə edilən başqa şəxsə (zərərçəkənə) birbaşa ziyan və ya zərər vurulmasına gətirib çıxaran təqsirli, hüquqa zidd (mülki qanunvericiliyin normalarını pozan) əməldir (hərəkət və ya hərəkətsizlikdir). Delikt törətmiş şəxs mülki hüquq məsuliyyəti daşıyır.

33. Maddə 1097.1. Mülki hüquq pozuntusu (delikt) nəticəsində fiziki şəxsin şəxsiyyətinə və ya əmlakına vurulmuş zərərin, habelə hüquqi şəxsin əmlakına və işgüzar nüfuzuna vurulmuş zərərin əvəzi zərərvuran tərəfindən tam həcmdə ödənilməlidir.

Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi

34. Maddə 77.1. Hər bir tərəf öz tələblərinin və etirazlarının əsası kimi istinad etdiyi halları sübut etməlidir.

35. Maddə 77.2. Dövlət orqanlarının, icra və s. orqanların aktlarının etibarsız hesab edilməsi barədə mübahisələrə baxıldıqda, həmin aktların qəbul edilməsi üçün əsas olmuş halları sübut etmək vəzifəsi bu aktı qəbul etmiş orqanın üzərinə düşür.

36. Maddə 407.2. Kassasiya şikayətində işin hallarının sübut olunmamasına, məhkəmənin gəldiyi nəticə üçün əhəmiyyətli olan bütün faktiki halların aydınlaşdırılmamasına və yaxud qətnamə və qərardadda ifadə olunan nəticələrin işin faktiki hallarına uyğun olmamasına istinad etməyə yol verilmədiyi üçün kassasiya instansiyası məhkəməsi şikayətin belə dəlilləri üzrə araşdırma aparmır və onlara qiymət vermir.

37. Maddə 416. Kassasiya instansiyası məhkəməsi müstəsna olaraq hüquqi məsələlərə baxmaqla apelyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməsini yoxlayır (maddə 416).

38. Maddə 418.3. Prosessual hüquq normalarının pozulması və ya düzgün tətbiq olunmaması qətnamənin yaxud qərardadın ləğv edilməsi üçün o vaxt əsas ola bilər ki, bu pozuntu düzgün qətnamə qəbul edilməməsi ilə nəticələnsin və ya nəticələnə bilsin.

39. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 18.03.2019-cu il tarixli qərarı

Çəkişmə və dispozitivlik prinsiplərinin üstünlüyündən irəli gələrək mülki prosessual qanunvericilik məhkəmənin heç bir halda öz təşəbbüsü ilə sübut toplamaq vəzifəsini nəzərdə tutmur, əskinə bunu məhkəməyə qadağan edir. Belə ki, işdə olan sübutlar əsasında işə baxmaq mümkün olmadıqda, məhkəmə zəruri əlavə sübutlar təqdim etməyi tərəflərə təklif edə bilər (MPM-in 77.3-cü maddəsi). Lakin işdə iştirak edən şəxsin işdə iştirak edən və iştirak etməyən şəxslərdən və ya orqanlardan onlarda olan zəruri sübutları müstəqil əldə etmək imkanı olmadıqda o, həmin sübutları tələb etmək barədə vəsatətlə məhkəməyə müraciət edə bilər (MPM-in 78.2-ci maddəsi). Göründüyü kimi, məhkəmə iş üzrə sübutları yalnız tərəflərin vəsatəti əsasında və onlar həmin sübutları müstəqil qaydada əldə edə bilmədikdə tələb edə bilər. Bu zaman zəruri sübutu müstəqil qaydada əldə edə bilmədiyini sübut etmək yükü də müvafiq tərəfin üzərinə düşür. Əks yanaşma məhkəmənin tərəflərin prosessual səlahiyyətlərini öz üzərinə götürərək, onlardan hər hansı birinin tərəfində dayanması, yaxud onları əvəz etməsi görüntüsü yarada bilər. Halbuki məhkəmə (hakim) bütün proses boyu obyektiv və qərəzsiz arbitr olaraq qalmalıdır. ...hüquqi həqiqət prinsipinə görə sübutların toplanması və təqdim edilməsi yükü bütünlüklə tərəflərin üzərinə düşür. Təqdim olunmuş sübutlar əsasında həqiqətin müəyyən edilməsi isə məhkəmə tərəfindən sübutların düzgün qiymətləndirilməsindən asılıdır.

### Kassasiya baxışının hədləri

40. Kassasiya instansiyası məhkəməsi işin faktiki hallarını araşdırmır. Lakin apelyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq

olunub-olunmamasını yoxlamaq zərurətindən irəli gələrək, iş materiallarında olan, aşağı instansiya məhkəmələri tərəfindən qəbul edilərək işə əlavə olunmuş, araşdırılmış və (və ya) müəyyən edilmiş sübutlara və hüquqi faktlara istinad edilməsi kassasiya instansiyası məhkəməsinin faktiki halları araşdırması kimi qiymətləndirilməməlidir (§ 36-37).

41. Hazırkı kassasiya şikayətində qətnamə iş üzrə cavabdeh ____________ tərəfindən tam mübahisələndirildiyindən və apelyasiya instansiyası məhkəməsinin aktının ləğvi xahiş edildiyindən həmin məhkəmə aktı tam yoxlanılır.

**Kassasiya instansiyası məhkəməsinin mövqeyi**

42. Məhkəmə kollegiyası hesab edir ki, apelyasiya instansiyası məhkəməsi tərəfindən mübahisəli hüquq münasibətini tənzimləyən maddi hüquq normaları düzgün tətbiq olunmuşdur. İş üzrə düzgün qətnamə qəbul edilməməsi ilə nəticələnən prosessual hüquq normalarının pozulması və ya düzgün tətbiq olunmaması halları müəyyən edilmir. Bu baxımdan apelyasiya instansiyası məhkəməsinin qətnaməsinin ləğv olunması və ya dəyişdirilməsi üçün əsas yoxdur.

43. Baxılan iş üzrə MPM-in 77.2-ci maddəsinə (§35) və kassasiya instansiyası məhkəməsinin əvvəlki qərarında ifadə etdiyi hüquqi mövqeyə uyğun olaraq işə yenidən baxmış apelyasiya instansiyası məhkəməsi iddiaya etirazın əsasları kimi istinad olunan halları sübut etmə yükünün cavabdehin üzərində olduğu barədə qanuni nəticəyə gəlmişdir.

44. Nəzərə alınmalıdır ki, etirazın əsaslarını sübut etmək yükü cavabdeh tərəfin üzərində olduğu halda həmin hallarla bağlı iddiaçının sübut etmə vəzifəsini yerinə yetirmədiyinə, yaxud onun sübutlarının qeyri-mötəbər olduğuna istinadla iddianın rədd olunması prosessual qanunvericiliyin istinad olunan norması baxımından əsassızdır.

45. Eyni zamanda belə halda məhkəmənin üzərinə öz təşəbbüsü ilə iş üzrə şübhə doğuran halları araşdırmaq və ya onlara aydınlıq gətirmək vəzifəsi qoyula bilməz.

46. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 18.03.2019-cu il tarixli qərarında (§ 39) ifadə edilmiş hüquqi mövqelərə əsasən hüquqi həqiqət prinsipinə görə sübutların toplanması və təqdim edilməsi yükü bütünlüklə tərəflərin üzərinə düşür. Təqdim olunmuş sübutlar əsasında həqiqətin müəyyən edilməsi isə məhkəmə tərəfindən sübutların düzgün qiymətləndirilməsindən asılıdır.

47. Kollegiya nəzərə alır ki, hazırkı mübahisə üzrə cavabdeh dövlət orqanıdır və həmin orqan məhkəmələrdə peşəkar hüquqşünas vasitəsilə təmsil olunmuşdur.

48. Cavabdeh kassasiya şikayətində iş üzrə məhkəmə-əmtəəşünaslıq və məhkəmə-xətşünaslıq ekspertizalaının təyin olunması barədə vəsatətlərinin əsassız olaraq təmin edilmədiyini bildirsə də, iş materiallarında cavabdehin sonuncu məhkəmə iclasında yalnız məhkəmə-əmtəəşünaslıq ekspertizasının keçirilməsi barədə vəsatət verdiyi müəyyən olunur (bununla bağlı cavabdehin məhkəmə iclas protokoluna verdiyi qeydin düzgünlüyü təsdiq edilmişdir). Apelyasiya instansiya məhkəməsi tərəfindən həmin vəsatətə baxılmış və əsaslandırılmış qərardadla təmin olunmamışdır.

49. Eyni zamanda iş üzrə cavabdehin, həmçinin yazılı və ya şifahi qaydada məhkəmə-xətşünaslıq ekspertizasının keçirildiyi barədə vəsatət verdiyi müəyyən edilmir (bununla bağlı cavabdehin məhkəmə iclas protokoluna verdiyi qeydin düzgünlüyü təsdiq edilməmişdir).

50. Bununla yanaşı, cavabdeh kassasiya şikayətində istinad olunan vəsatətlərin işin tam, obyektiv və hərtərəfli araşdırılması üçün zəruri olduğunu və bu vəsatətlərin təmin

olunmamasının prosessual hüquq normalarının pozulmasına səbəb olduğunu əsaslandırmamışdır.

51. Kassasiya şikayətinin digər dəlilləri məhkəmənin gəldiyi nəticə üçün əhəmiyyətli olan bütün faktiki halların aydınlaşdırılmaması və qətnamədə ifadə olunan nəticələrin işin faktiki hallarına uyğun olmaması ilə bağlıdır və hazırkı icraat çərçivəsində belə dəlillər üzrə araşdırma aparılmır, onlara qiymət verilmir.

52. Məhkəmə kollegiyası qeyd olunanları nəzərə alaraq belə qənaətə gəlir ki, apelyasiya instansiyası məhkəməsinin qətnaməsi dəyişdirilmədən saxlanılmalı, kassasiya şikayəti təmin olunmamalıdır.

53. Yuxarıda göstərilənlərə əsasən və MPM-in 416, 417 və 419-cu maddələrini rəhbər tutaraq, Məhkəmə kollegiyası

**Qərara aldı:**

Cavabdeh Azərbaycan Respublikası ____________ tərəfindən verilmiş kassasiya şikayəti təmin edilməsin.

Bakı Apellyasiya Məhkəməsi Mülki kollegiyasının 2(103)-______/2019 nömrəli iş üzrə 24 oktyabr 2019-cu il tarixli qətnaməsi dəyişdirilmədən saxlanılsın.

Qərar qətidir və qəbul edildiyi andan qüvvəyə minir.

**Sədrlik edən:** ____________________

**Hakimlər:** ___________________

___________________

**(Layihə)**

**Azərbaycan Respublikası Ali Məhkəməsinin**
**Mülki Kollegiyasına**

# KASSASİYA ŞİKAYƏTİ

**A. Kassasiya şikayəti verən şəxs**

1. Adı (fiziki və ya hüquqi şəxsin):________________________________________
2. Soyadı (fiziki şəxsin):_______________________________________________
3. Ata adı (fiziki şəxsin):_______________________________________________
4. VÖEN (hüquqi şəxsin və ya fərdi sahibkar statusuna malik fiziki şəxsin):________
5. Ünvan (fiziki şəxsin qeydiyyatda olduğu rəsmi ünvan və əgər orada yaşamırsa faktiki yaşadığı ünvan, hüquqi şəxsin rəsmi ünvanı, eləcə də məhkəmə ilə yazışmaların aparılmasının istənildiyi digər ünvan) ____________________________________
6. Elektron poçt ünvanı:_______________________________________________
7. Mobil telefon nömrəsi (və ya nömrələri):_________________________________
8. İşdəki prosessual statusu (iddiaçı, cavabdeh və ya üçüncü şəxs)_____________

**B. Kassasiya şikayəti verən şəxsin vəkili**

1. Adı:_________________________________________________________________
2. Soyadı:_____________________________________________________________
3. Ata adı:_____________________________________________________________
4. Ünvan (qeydiyyatda olduğu rəsmi ünvan və əgər orada yaşamırsa faktiki yaşadığı ünvan, eləcə də məhkəmə ilə yazışmaların aparılmasının istənildiyi digər ünvan)______________________________________________________________
5. Elektron poçt ünvanı:_______________________________________________
6. Mobil telefon nömrəsi (və ya nömrələri):_________________________________
7. Fəaliyyət forması:

8.1. Fərdi qaydada fəaliyyət göstərir_______________________________________

8.2. Vəkil bürosuna qeydiyyatdadır_________________________________________

**C. Kassasiya şikayəti verən şəxsin qanuni nümayəndəsi və ya nümayəndəsi**

1. Adı:________________________________________________________

2. Soyadı:_______________________________________________________

3. Ata adı:_______________________________________________________

4. Ünvan (qeydiyyatda olduğu rəsmi ünvan və əgər orada yaşamırsa faktiki yaşadığı ünvan, eləcə də məhkəmə ilə yazışmaların aparılmasının istənildiyi digər ünvan, hüquqi ünvan.)

________________________________________________________________

5. Elektron poçt ünvanı:____________________________________________

6. Fax:________________________________________________________

7. Mobil telefon nömrəsi (və ya nömrələri):______________________________

8. Etibarnamə (və ya səlahiyyəti təsdiq edən digər sənəd):

8.1 №____________________________________________________

8.2. Kim tərəfindən verilmişdir:___________________________________

8.3. Verilmə tarixi:____________________________________________

8.4.Qüvvədə olma müddəti:________________________________________

**D. Barəsində şikayət verilən məhkəmə qətnamə və ya qərardad haqqında məlumat**

1. Apelyasiya instansiyası məhkəməsinin adı____________________________

2. İşə baxmış məhkəmə tərkibi______________________________________

3. Məhkəmə aktının tarixi və nömrəsi__________________________________

- Qətnamə

☐ Dəyəri 2000 manatdan artıq olan əmlak xarakterli

☐ Qeyri-əmlak xarakterli

- Qərardad

☐ Apelyasiya şikayətinin qeyri-mümkün hesab edilməsi

☐ Kassasiya şikayətinin qaytarılması

☐ İcraata xitam verilməsi

☐ Məhkəmə aidiyyəti

4. Şikayət verilən məhkəmə aktının rəsmi təqdim edilmə (alınma) tarixi:__________

5. Məhkəmə mübahisəsinin predmeti və iddia tələbləri

________________________________________________________________

6. Məhkəmə mübahisəsinin digər tərəfləri

## A. İŞİN HALLARI:

*Bu hissədə kassasiya şikayəti verən şəxs işin faktiki halları ilə bağlı mövqeyini aydın ifadə etməli, məhkəmələr tərəfindən müəyyən edilmiş hansı halları qəbul etdiyini, hansı halları isə qəbul etməyərək mübahisələndirdiyini dəqiq göstərməli, eləcə də mübahisənin düzgün həlli üçün əhəmiyyətli hesab etdiyi digər hansı faktiki halların isə ümumiyyətlə məhkəmələr tərəfindən araşdırılmayaraq müəyyənləşdirilməmiş qaldığını konkret bildirməlidir. İşin halları ilə bağlı mövqe mübahisənin predmetinə aidiyyəti nəzərə alınmaqla yığcam şəkildə xronoloji ardıcıllığa riayət etməklə sadə və anlaşıqlı formada təqdim edilməlidir.*

**B. MADDİ HÜQUQ NORMALARININ DÜZGÜN TƏTBİQ EDİLMƏMƏSİNƏ DAİR DƏLİLLƏR:**

*Bu hissədə şikayət olunan məhkəmə aktı çıxarılarkən düzgün tətbiq edilmədiyi iddia olunan hər bir maddi hüquq norması sıralanmaqla göstərilməli və hər birinin qarşısında düzgün tətbiq edilməmənin nədən ibarət olduğuna dair mövqeni aydın şəkildə ifadə edən müvafiq izah verilməlidir.*

| Sıra | Norma | Normanın düzgün tətbiq edilməməsinə dair dəlillər |
|---|---|---|
| | | |
| | | |

**C. PROSESSUAL HÜQUQ NORMALARININ DÜZGÜN TƏTBİQ EDİLMƏMƏSİNƏ DAİR DƏLİLLƏR:**

*Bu hissədə şikayət edilən məhkəmə aktı çıxarılarkən düzgün tətbiq edilmədiyi iddia olunan hər bir prosessual hüquq norması sıralanmaqla göstərilməli və hər birinin qarşısında düzgün tətbiq edilməmənin nədən ibarət olduğuna dair mövqe aydın şəkildə ifadə edən müvafiq izah verilməlidir.*

| Sıra | Norma | Normanın düzgün tətbiq edilməməsinə dair dəlillər |
|---|---|---|
| | | |
| | | |

**D. MƏHKƏMƏ TƏCRÜBƏSİNİN POZULMASINA DAİR DƏLİLLƏR:**

*Bu hissədə nəzərə alınmadığı iddia olunan hər bir məhkəmə aktı sıralanmaqla göstərilməli və hər birinin qarşısında məhkəmə aktı çıxarılarkən nəzərə alınmayan hüquqi mövqenin (sözügedən məhkəmə aktlarında təsbit olunmuş hüquqi mövqedən fərqli yanaşmanın tətbiq edilməsi) nədən ibarət olduğuna dair münasibəti aydın şəkildə ifadə edən müvafiq izah verilməlidir.*

| Sıra | Məhkəmə aktı | İzah |
|---|---|---|
| | | |
| | | |

## E. KASSASİYA ŞİKAYƏTİ VERƏN ŞƏXSİN TƏLƏBİ:

*Bu hissədə kassasiya şikayəti verən şəxs özünün tələblərini aydın göstərməli, yəni, məhkəmə aktının tam və ya qismən ləğv edilməsinə, eləcə də iş üzrə yeni qərar çıxarılmasına və ya işin təkrar apelyasiya baxışına göndərilməsinə dair tələblərini dəqiq göstərməlidir.*

| |
|---|
| |

## F. KASSASİYA ŞİKAYƏTİNƏ ƏLAVƏ EDİLMİŞ SƏNƏDLƏR

| |
|---|
| |
| |
| |
| |

**G. Kassasiya şikayəti verən şəxsin imzası (şikayət hüquqi şəxs tərəfindən *verildikdə onu imzalamaq hüququ olan şəxs tərəfindən imzalanmalı və möhürlə təsdiq olunmalıdır):***

**Vəkilin imzası**

**Tarix**

**(Layihə)**

**Azərbaycan Respublikası Ali Məhkəməsinin**
**Mülki Kollegiyasına**

**_____________________________________kassasiya şikayətinə qarşı**

## ETİRAZ

**D. Kassasiya şikayətinə qarşı etiraz verən şəxs**

9. Adı (fiziki və ya hüquqi şəxsin):____________________________________

10. Soyadı (fiziki şəxsin):____________________________________

11. Ata adı (fiziki şəxsin):____________________________________

12. VÖEN (hüquqi şəxsin və ya fərdi sahibkar statusuna malik fiziki şəxsin):__________

13. Ünvan (fiziki şəxsin qeydiyyatda olduğu rəsmi ünvan və əgər orada yaşamırsa faktiki yaşadığı ünvan, hüquqi şəxsin rəsmi ünvanı, eləcə də məhkəmə ilə yazışmaların aparılmasının istənildiyi digər ünvan, hüquqi şəxsin hüquqi ünvanı)__________________________

14. Elektron poçt ünvanı:____________________________________

15. Mobil telefon nömrəsi (və ya nömrələri):____________________________

16. İşdəki prosessual statusu (iddiaçı, cavabdeh və ya üçüncü şəxs)_______________

17. Kassasiya şikayətinin rəsmi təqdim edilmə (alınma) tarixi:______________________

**E. Kassasiya şikayətinə qarşı etiraz verən şəxsin vəkili**

8. Adı:____________________________________________________

9. Soyadı:__________________________________________________

10. Ata adı:________________________________________________

11. Ünvan (qeydiyyatda olduğu rəsmi ünvan və əgər orada yaşamırsa faktiki yaşadığı ünvan, eləcə də məhkəmə ilə yazışmaların aparılmasının istənildiyi digər ünvan)____________________________________________________

12. Elektron poçt ünvanı:____________________________________

13. Mobil telefon nömrəsi (və ya nömrələri):____________________________

14. Fəaliyyət forması:

8.3. Fərdi qaydada fəaliyyət göstərir____________________________

8.4. Vəkil bürosuna qeydiyyatdadır____________________________

**F. Kassasiya şikayətinə qarşı etiraz verən şəxsin qanuni nümayəndəsi və ya nümayəndəsi**

9. Adı:________________________________________________

10. Soyadı:______________________________________________

11. Ata adı:______________________________________________

12. Ünvan (qeydiyyatda olduğu rəsmi ünvan və əgər orada yaşamırsa faktiki yaşadığı ünvan, eləcə də məhkəmə ilə yazışmaların aparılmasının istənildiyi digər ünvan)____________

13. Elektron poçt ünvanı:_______________________________________

14. Mobil telefon nömrəsi (və ya nömrələri):___________________________

15. Etibarnamə (və ya səlahiyyəti təsdiq edən digər sənəd):

8.2 №______________________________________________________

8.4. Kim tərəfindən verilmişdir:___________________________________

8.5. Verilmə tarixi:____________________________________________

8.4.Qüvvədə olma müddəti:_______________________________________

**H. İŞİN HALLARI:**

*Bu hissədə kassasiya şikayətinə qarşı etiraz verən şəxs işin faktiki halları ilə bağlı münasibətini aydın ifadə etməli, xüsusən kassasiya şikayətində bildirilən mübahisələndirilən faktiki hallara dair özünün mövqeyini dəqiq göstərməlidir.*

**I. KASSASİYA ŞİKAYƏTİNDƏKİ MADDİ HÜQUQ NORMALARININ DÜZGÜN TƏTBİQ EDİLMƏMƏSİ İLƏ BAĞLI DƏLİLLƏRƏ MÜNASİBƏT:**

*Bu hissədə kassasiya şikayətində göstərilən hər bir maddi hüquq normasının pozuntusu ilə bağlı dəlillərə dair mövqe aydın ifadə olunmalıdır.*

| Sıra | Norma | İzah |
|---|---|---|
| | | |
| | | |

**J. KASSASİYA ŞİKAYƏTİNDƏKİ PROSESSUAL HÜQUQ NORMALARININ DÜZGÜN TƏTBİQ EDİLMƏMƏSİ İLƏ BAĞLI DƏLİLLƏRƏ MÜNASİBƏT:**

*Bu hissədə kassasiya şikayətində göstərilən hər bir prosessual hüquq normasının pozuntusu ilə bağlı dəlillərə dair mövqe aydın ifadə olunmalıdır.*

| Sıra | Norma | İzah |
|---|---|---|
| | | |
| | | |

**K. MƏHKƏMƏ TƏCRÜBƏSİNİN POZULMASINA DAİR DƏLİLLƏRƏ MÜNASİBƏT:**

*Bu hissədə kassasiya şikayətindəki hər bir məhkəmə təcrübəsinin nəzərə alınmaması ilə bağlı dəlillərə dair mövqe aydın ifadə olunmalıdır.*

| Sıra | Məhkəmə aktı | İzah |
|---|---|---|
| | | |
| | | |

**L. KASSASİYA ŞİKAYƏTİNƏ QARŞI ETİRAZ VERƏN ŞƏXSİN TƏLƏBİ:**

*Bu hissədə kassasiya şikayətinə qarşı etiraz verən şəxs özünün kassasiya şikayəti və mübahisələndirilən məhkəmə aktının taleyi ilə bağlı mövqeyini aydın şəkildə ifadə etməlidir.*

| |
|---|
| |

**M. ETİRAZA ƏLAVƏ EDİLMİŞ SƏNƏDLƏR**

| |
|---|
| |
| |

**N. Kassasiya şikayətinə qarşı etiraz verən şəxsin imzası (etiraz hüquqi şəxs tərəfindən verildikdə onu imzalamaq hüququ olan şəxs tərəfindən imzalanmalı və möhürlə təsdiq olunmalıdır)**

**Vəkilin imzası**

**Tarix**